# HƏQİQƏTİ DÜŞÜNDÜNÜZMÜ?

**Məgər insan onu nütfədən yaratdığımızı görmür?. Budur, o indi açıq-aşkar düşmən kəsilmişdir. O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər?". De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər cür yaratmağı bilir. (Yasin surəsi, 77-79)**


**HARUN YƏHYA**
**(ADNAN OKTAR)**

# MÜNDƏRİCAT

Giriş: Yeni bir dünya

Təməl suallar

Quran barəsində düşünmək

Qurandakı din və ataların dini

Əsl dindarlar və saxta dindarlar

Quranda təsvir edilən mömin

Özümüzü sorğu-sual etmək

Din əxlaqını yaşamayan insan modelinin zərərləri

Dindən uzaq cəmiyyətdən Quran əxlaqına keçid

Dünya və axirət

Möminlərin əsl yurdu: Cənnət

İnkarçıları gözləyən cəhənnəm

Yeni bir ölçü

Gözümüzün önündəki möcüzələr

Ağcaqanad

Balarısı

Dəvə

Quranda təkrarlanan sözlər

Quranda 19 rəqəmi

Təkamül yalanı

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib

edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Həqiqəti düşündünüzmü?

*"Öyüd alıb düşünə bilən insanlar" və "təmiz ağıl sahibləri" üçün*

# YENİ BİR DÜNYA

*Rəbbinin doğru yolu budur. Biz ayələri öyüd alıb düşünən bir qövmə bir-bir izah etdik. (Ənam surəsi, 126)*

*O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar, onlar Allahın doğru yola yönəltdiyi şəxslərdir. Təmiz ağıl sahibləri də məhz onlardır. (Zumər surəsi, 18)*

Bu kitabı oxuyan adamdan gözlənilən, həyatının ən əhəmiyyətli mövzusunu yenidən nəzərdən keçirməsidir. Ancaq bunu edərkən, indiyə qədər dəyişməz həqiqət kimi qəbul etdiyi qanunları, sahib olduğu bəzi ön mühakimələrdən xilas olmalıdır. Çünki bir insan, nə olursa olsun bir mövzuya ön mühakimələrlə yaxınlaşsa doğru qərar verə bilməz. Çirkin görmək istədiyi şeyi çirkin görər. Pis olduğuna əvvəldən qərar verdiyi şeyi pis hesab edər.

Bu da bir həqiqətdir ki, bu ön mühakimələr, mühakimə etmədən verilən hökmlər çox vaxt adamın özündən qaynaqlanar.

Yaşadığı cəmiyyət insanı, dünyaya gəldiyi gündən etibarən saysız önmühakimə sahibi birinə çevrilməyə məhkum edir. Onun dəyər mühakimələrini ailəsi, yaxın ətrafı, yoldaşları müəyyənləşdirir. Xüsusilə də müasir cəmiyyətlərdə media insanları müəyyən mövzularda şərt qoymaq istiqamətində böyük bir təsirə malikdir. Qəzet və televiziyalar, özlərinə baxanlara bir çox yaxşı şeyi pis, pis şeyi də yaxşı kimi göstərmə təsirinə sahibdirlər.

Cəmiyyətin özünə aşıladığı qərəzli fikirləri tamamilə qəbul etmiş insan isə şəxsiyyətindən çox şey itirmişdir. Öz ağlı ilə deyil, ətrafdakıların verdiyi təlqinlərlə hərəkət edir. Haqqında danışılan insan bu şəkildə, ancaq özünə doğru kimi göstərilən dəyərləri doğru qəbul edər. Hər dövrdə hər cəmiyyətin fərqli doğrulara inandığını düşünsək, cəmiyyətə qeydsiz-şərtsiz tabe olmağın tamamilə mənasız olduğunu görə bilərik. Bəzi cəmiyyətlər üçün adamyeyənlik normal qarşılanar və ya faşist bir cəmiyyətdə (Nasist Almaniyası kimi) yarı dəli bir liderə qeydsiz-şərtsiz itaət etmək doğru kimi qəbul edilər. Bu nümunələri çoxalda bilərik, amma xülasə şəklində demək

istədiyimiz şey, cəmiyyətin yanlış təlqinlərindən xilas olmuş halda düşünmənin ağıl sahibi bir insana yaraşar bir rəftar olmasıdır.

Cəmiyyətin, haqqında saysız ön mühakimələr meydana gətirdiyi mövzuların başında din gəlir. Xüsusilə medianın bəzi seqmentlərinin verdiyi təlqin, din haqqında bəzi kəslər çətinliklə aradan qaldırılacaq bəzi ön mühakimələr meydana gətirmişdir. Heç bir doğru tərəfi olmayan təlqinlərin bir nəticəsi olaraq, din, bir çox insanın elə də əhəmiyyət vermədiyi, üzərində düşünmə gərəyi hiss etmədiyi və mümkün qədər uzaq dayanmağa çalışdığı bir anlayışa çevrilmişdir. Bu düşüncəyə sahib kəslərin, ümumiyyətlə çox şüurlu bir şəkildə belə bir münasibət göstərdikləri deyilə bilməz. Bu kəslərdən soruşulsa ehtimal ki, dindar olduqlarını deyəcəklər, amma həqiqətdə din onlar üçün, həyatlarında ən az əhəmiyyət verdikləri mövzulardan biridir.

Əslində bu adam həyatında bir dəfə belə oturub, ciddi şəkildə, din və özünün din haqqındakı düşüncə və davranışları barəsində də düşünməmişdir. Din əxlaqının niyə mövcud olduğu kimi bir sual üzərində heç ətraflı düşünməmişdir. Onun səhv dünyagörüşünə görə din; ümumiyyətlə yaşlı insanları maraqlandırar, bəzi doğru əxlaqi dəyərləri müdafiə edər, lakin bununla yanaşı bir çox "can sıxıcı" qadağalar və məhdudlaşdırmalar gətirər. Dinə dair tətbiqlərin bəzilərini doğru və yerində, bəzilərini isə öz ağlına görə köhnə və "qeyri-müasir" olaraq qəbul edər. (Allahı və İslam dini tənzih edirik.) Yenə də ümumiyyətlə dini açıq şəkildə inkar etməz. Amma başda söylədiyimiz kimi, din əxlaqından mümkün qədər uzaq dayanar. Dindar olduğunu düşündüyü kəslərlə əsla görüşmək, danışmaq, hətta eyni mühitdə olmaq istəməz. Bu ön mühakiməli və yanlış dünyagörüşünə görə onlar qorxunc və əsrarəngiz insanlardır. Halbuki, bu adam xeyli yanılmışdır. İslam dini estetikanı, keyfiyyəti, nəcibliyi, nəzakəti, gözəlliyi, sevgini, səmimiliyi, mərhəməti, mehribanlığı, düşünməyi, araşdırmağı, ağıllı olmağı tələb edən, səmimi şəkildə bu əxlaqı yaşayanları mənəvi cəhətdən üstün hala gətirən bir dindir.

Dinə istiqamətli bu səhv dünyagörüşü, vurğuladığımız kimi, cəmiyyətin bəzi seqmentlərinin verdiyi təlqinləri bilavasitə qəbul etməkdən, bir sözlə müstəqil şəkildə düşünməməkdən qaynaqlanar. Düşünmənin əhəmiyyəti isə, İslamın təməl qaynağı olan Quran ayələriylə xəbər verilmişdir:

**De: "Əgər bilirsinizsə, deyin görüm yer və onun üstündə olanlar kimindir?" Onlar: "Allahındır!" deyəcəklər. De: "Yenə də öyüd-nəsihət alıb düşünməyəcəksiniz?" (Muminun surəsi, 84-85)**

**Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Amma öyüd alıb düşünən varmı? (Qamər surəsi, 17)**

**...Budur, Rəbbiniz Allah. Ona ibadət edin. Yenə də öyüd alıb düşünməyəcəksiniz? (Yunis surəsi, 3)**

**Heç yaradan da yarada bilməyən kimi ola bilərmi?. Öyüd alıb düşünməyəcəksinizmi? (Nəhl surəsi, 17)**

Din barəsində cəmiyyətin təlqinlərindən xilas olaraq düşünməyən adam, iki böyük səhvə yol verəcək. Bunlardan birincisi, din əxlaqından uzaq dayanmağa çalışan adamın, dinin mövcud olma səbəbini, yəni Allahı düşünməməsi, tanımaması, daha doğru bir sözlə, Uca Allahın sonsuz qüdrətini qiymətləndirə bilməməsidir. İkinci səhv isə, dinin insanı, çətinlik və təzyiq dolu, mühafizəkar mühitə sürükləyəcəyini və boynuna yaradılışına zidd şeylər etməyi yükləyəcəyini zənn etməsidir. Din adına ortaya çıxan bəzi kəslərin, bəhs olunan mənzərəni, dinin özüymüş kimi göstərmələri də, adamdakı; "din əxlaqını yaşasam istədiklərimi edə bilmərəm" qorxusunun davam etməsinin əhəmiyyətli bir səbəbidir. Halbuki, həqiqətlər bu adamın qənaətindən çox fərqlidir. İslam əxlaqı insanı hər cür təzyiqdən, qorxudan, narahatlıqdan, nigarançılıqdan xilas edər. Adamın daim şən, mülayim, hüzurlu və rahat bir ruh halına sahib olmasını təmin edər. Səmimi şəkildə Qurana və sünnəyə tabe olan bir kimsə, yuxarıda saydığımız ön mühakimələrə sahib bir adamın əsla yaşaya bilməyəcəyi və bəlkə də, xəyal belə edə bilməyəcəyi bir gözəllik və bərəkət içində yaşıyar.

İnsan birinci səhvdən xilas olduqda, yəni özünü yaradan və ona ən yaxın varlıq olan Allahı tanıdıqda, dindən uzaq dayanmağın lazım olduğu şəklindəki batil inancdan da xilas olar. Bu səhvin aradan qaldırılmasının gətirəcəyi zehin açıqlığı və həssaslıq, ikinci səhvin də aradan qaldırılmasını təmin edər. Din görünüşü altındakı başqa strukturlarla əsl din arasındakı bariz fərqləri ayırd edər.

Yekunlaşdırmaq lazımdırsa, din haqqında saysız ön mühakimə meydana gəlmişdir. Lakin, dinə yaxınlaşarkən götürüləcək əsas meyar, insanların din haqqında nə söylədikləri deyil, insanın öz vicdanı olmalıdır. "İnsanların əksəriyyətinə" tabe olmağın insanı doğru yola aparmayacağı Quranda açıq şəkildə ifadə edilmişdir:

**Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan**

**azdırarlar. Onlar ancaq zənnə qapılar və ancaq "zənn və təxminlə" yalan uydurarlar. (Ənam surəsi, 116)**

"Birlik" və ya digər adıyla "sürü psixologiyası"ndan xilas olub, öz vicdanı ilə düşünməyə başlayan insan, Quran ayələrində bildirilən həqiqəti bilavasitə özü görər. O artıq, "insanların böyük hissəsindən" fərqli olaraq yeni bir dünyaya addım atmışdır. Bu addımı özünü keçmiş dünyanın bütün zülmətindən, çətinliyindən, darlığından uzaqlaşdırıb, dinin vəsilə olduğu sonsuz gözəlliklərə və dərin hikmətlərə aparacaq... Bu vaxt dərhal bunu xatırlatmaqda fayda var; din deyərkən Rəbbimizin göndərdiyi son haqq din olan İslamı nəzərdə tuturuq. Çünki Quranda bildirildiyi kimi, **"Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır!..." (Ali İmran surəsi, 19)**

# TƏMƏL SUALLAR...

*Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır? Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar. Yoxsa sənin Rəbbinin xəzinələri onlardadır? Yaxud onlar üstün güc sahibidirlər? (Tur surəsi, 35-37)*

Əvvəlki hissədə toxunduğumuz kimi, dinə ön mühakimələrlə yaxınlaşan adamın edəcəyi ilk səhv dini Allahın varlığını düşünmədən qiymətləndirməkdir. Adam İslamı qiymətləndirəcəksə, əvvəlcə Allahın sonsuz qüdrətini dərk etməyə çalışmalıdır. Əgər Allaha inanmırsa, Quranı da, müsəlmanları da öz batil və yanlış məlumatlarla dolu dünyagörüşü çərçivəsində araşdıracaq və belə bir araşdırma ilə həqiqətə çatmayacaq.

Necə ki, tarix boyu din haqqında araşdırmalar aparan bəzi sosioloqlar, dinin necə meydana gəldiyindən və ya cəmiyyət üzərindəki təsirindən bəhs edən minlərlə cild kitab yazmışlar. Amma bütün bu akademik çalışmalara baxmayaraq, bu kəslər, din əxlaqını həqiqi mənada yaşayan bir adamın dindən anladığı şeylərin mində birini belə anlaya bilməmiş, dinin əslinə, özünə çata bilməmişdirlər. Çünki bu kəslər, dinin təməli olan Allahın vahidliyi və hər şeyi əhatə etdiyi həqiqətini qavraya bilməmişdirlər. Quranda bu cür kəslərin vəziyyəti, **"...Onlar elmini qavraya bilmədikləri və özlərinə hələ yozumu gəlməmiş bir şeyi yalanladılar..." (Yunis surəsi, 39)** ayəsiylə ifadə edilir.

İnsan İslamın nə demək olduğunu, Allahın varlığını dərk etdikdə və Quranda təsvir edilən həyatı yaşadıqda dərhal anlayar.

Allahın varlığı və Ondan başqa İlah olmadığı isə əslində çox açıq bir həqiqətdir. Amma düşünmə tənbəlliyi üzərində qurulan "cahiliyyət cəmiyyəti", (Quranda, İslamdan kənar sosial strukturlar bu sifətlə xarakterizə olunar) bu həqiqəti görə bilməyəcək qədər korlaşmış vəziyyətdədir. Onsuz da "cahil" sifətini də buna görə daşıyır.

Müsəlmanlar isə Qurandakı bir çox ayəyə əsasən, Allahın varlığını düşünmək və yaradılış dəlillərinə baxmaqla məsul tutulmuşlar. Bu ayələrdən biri belədir:

**De: "Düşündünüzmü heç? Əgər Allah sizin eşitmə və görmə qabiliyyətinizi əlinizdən alsa, qəlblərinizə möhür vursa, Allahdan başqa hansı məbud onları sizə qaytara bilər?" Bax gör, Biz ayələri necə müxtəlif formalarda izah edirik, onlar isə yenə üz çevirib mane olurlar. (Ənam surəsi, 46)**

Kiçik bir nümunə, insanın düşünməyə başlamasına və cahiliyyət cəmiyyətinin bir fərdi olmasından ötrü sahib olduğu cəhalətdən xilas olmağa köməkçi ola bilər.

Bu ana qədər yaddaşınızda olan hər şeyin (bədəninizə aid məlumat da daxil) silindiyini fərz edək. Bu halda olarkən dünyaya bənzər bir yerdə olduğunuzu görsəydiniz, olduqca təəccüblü bir vəziyyətdə olardınız. Yaddaşınızdakı hər şey silinmiş olduğu halda, birdən-birə dünyanın bir yerində olduğunuzu düşünək.

Yəqin ki, ilk hiss etdiyiniz şey, öz bədəniniz olacaqdı. "Mən" dediyiniz şeydən fərqli bir şey olduğunu hiss etdiyinizdən, ona istədiyinizi etdirə bilmək sizə çox qəribə gələcəkdi. Bəlkə bir müddət qolunuzu endirib qaldıracaq, nəyə yaradığını başa düşməyə çalışacaqdınız.

Ətrafda, haradan meydana gəldiyini bilmədiyiniz bədəniniz üçün olduqca əlveriş bir mühit olduğunu görəcəkdiniz. Üstünə basıla biləcək möhkəm bir zəmin, aydın bir görüntü, bir-birindən gözəl qoxular, müxtəlif heyvanlar, tam bədənin tələblərinə uyğun bir temperatur, rahat tənəffüs edilə biləcək bir hava və daha minlərlə həssas tarazlıq... Acan bədəninizin ehtiyac duyduğu yeməklər, quruyan damağınızı sərinlədəcək tərtəmiz su və daha bir çox şey...

Görəsən belə bir mühitdə heç bir şey düşünmədən boş-boş veyllənməyə mi, yoxsa özünüzə bəzi suallar verməyə mi başlayardınız? Əvvəlcə kim olduğunuzu, niyə orada mövcud olduğunuzu, gördüyünüz nizamın yaranma səbəbini araşdırmazdınız mı? Ağlınıza gələcək ilk suallar bunlar olmazdımı?

- Mən kiməm?

- Məni kim yaratdı, sahib olduğum qüsursuz bədəni kim yaratdı?

- Ətrafımdakı böyük nizamı yaradan kimdir?

- Məndən nə etməyimi istəyir, mənə nəyi göstərir?

Bir az ağıllı bir insan, belə bir vəziyyətdə, yuxarıdakı və bunlara bənzər digər suallara cavab tapmaqdan daha əhəmiyyətli heç bir şey olmadığını düşünərdi. Bütün bu suallara əhəmiyyət verməyib, vaxtını gündüzləri boş-boş gəzməklə, gecələri isə yatmaqla keçirən biri üçün də "ağılsız" sözündən başqa bir ifadə işlədilə bilməzdi.

Həmin yerdə bir anda yaranan bədəni və o bədənin içində olduğu mühiti mütləq üstün ağıl sahibi bir güc meydana gətirmişdir. İnsanı bundan sonra da hər bir saniyə yenə O yaşada bilər. Onda insanın həyatında, sonsuz bir güc sahibi olan bu üstün gücü tanımağa çalışmaqdan daha əhəmiyyətli nə ola bilər?

Nümunəni bir qədər də genişləndirib, həmin ərazidə hərəkət edərək bir şəhərə çatdığınızı düşünək. Şəhərdə əksəriyyəti olduqca kobud, həris və səmimiyyətsiz olan

cürbəcür insanlar olsun və onlar nədənsə, bu yerin və özlərinin sahibinin kim olduğunu heç düşünməmiş olsunlar. Hamısının özü üçün bir iş, bir məqsəd və ya bir ideologiya tapmasına baxmayaraq, şəhərdə heç cür yaxşı bir nizam-intizam meydana gətirə bilmədiklərini fərz edin.

Bu mühitdə, əxlaqi cəhətdən şəhərdəki digər insanlara görə müxtəlif davranan, təmkinli və ağıllı rəftarlar nümayiş etdirən, düz danışan, digərlərindən fərqli olduqları dərhal görülə bilən, etibarlı və doğru sözlü olduqları hiss edilən bəzi insanlarla qarşılaşdığınızı fərz edək. Başınızın onlarla söhbətə qızışdığını və davam edən söhbət əsnasında belə bir məlumat verdiklərini də fərz edək:

"Biz digərlərindən fərqli düşünən və yaşayan insanlarıq. Çünki biz, buranın, bizim və digər bütün insanların (sən də bura daxilsən) bir sahibi olduğunu, Onun sonsuz bir gücə sahib olduğunu və buranı da insanları imtahan etmək və öyrətmək üçün müvəqqəti bir yer kimi yaratdığını bilirik. Ondan bizə gəlib çatmış bir kitab var və bütün həyatımızı bu kitabda yazılanlar əsasında nizama salırıq".

Belə bir vəziyyətdə, bəlkə də, bu insanların həqiqəti deyib deməklərindən dərhal əmin ola bilməzdiniz. Amma onları dinləməkdən, hələ haqqında danışdıqları kitab haqqında məlumat əldə etməkdən daha əhəmiyyətli heç bir şey olmadığını asanlıqla başa düşərdiniz, elə deyilmi?... Onda sizin, bu nümunədəki qədər diqqətli olmağınıza mane olan nədir? Haqqında danışılan adam kimi dünyada bir anda deyil, əksinə uzunmüddətli bir inkişaf prosesi nəticəsində yaranmağınızmı? Onda yuxarıdakı nümunə əsasında düşünsək, şəhərdəki insanların əksəriyyətinin içində olduğu vəziyyətə düşdüyünüzü deyə bilərik. Bəs sizi bu anda bu halınızla yalnız; "bu axşam nə yeyim, sabah hansı paltarımı geyinim?" və ya "bu insan haqqımda nə düşünür, bu adama nə deyəcəyəm?" kimi suallara cavab tapmağa yönəldən və bu suallardan xeyli əhəmiyyətli olduğu çox aydın olan mövzulardan uzaq tutan "cahiliyyət" cəmiyyətlərinin mövcud olduğunun dərk edirsinizmi?

Bu cəmiyyətin içində olmaq və onun təlqinlərindən təsirlənməkdən qaynaqlanan cahilliyi bir düşünək...

Öz-özünüzə bu sualı verin (belə ki, bu sual bəhs olunan cəmiyyətdə, ya unudulmuş ya da qeyri-kafi yalan "izahat"larla arxivə verilmişdir): Mən necə yarandım?

Bu sualı cavablandıra bilmək üçün, əvvəlcə bütün ön mühakimələrinizdən xilas olub, həyatın başlanğıcını, yəni doğum hadisəsini qısa şəkildə araşdırmağınız faydalı olacaq.

# Doğumun qısa tarixi

Yeni bir insanın yaradılmasının səbəbkarı olacaq spermalar kişi bədəninin xarici qismindəki bir nahiyədə istehsal olunur. Bunun səbəbi istehsalın ancaq bədən temperaturundan təxminən 2 dərəcə aşağı bir temperaturda reallaşa bilməsidir. Bu temperaturun sabitlənməsi üçün bir də xayanın üstünə yerləşdirilmiş xüsusi dəri fəaliyyət göstərir. Bunun funksiyası soyuqda büzüşərək, istidə isə tərləyərək tələb olunan temperaturu sabit saxlamaqdır. Xayalıqlarda, dəqiqədə orta hesabla istehsal olunan 1 000 ədəd sperma kişinin xayalarından qadının yumurtalarına doğru edəcəyi səfər üçün xüsusi bir yaradılışa malikdir; baş, boyun və quyruq hissəsindən ibarətdir. Quyruğu ilə bir balıq kimi ana bətnində hərəkət edər.

Körpənin genetik şifrəsinin bir hissəsinə sahib baş hissə xüsusi qoruyucu bir zirehlə örtülmüşdür. Bu zirehin faydası ana bətninin girişində aydın olur: Bura olduqca turş mühitdir (ananın mikroblardan qorunmasından ötrü).

Kişidən bətnə ancaq milyonlarla sperma atılmır. Sperma bir-birindən fərqli mayelərin qarışığından ibarətdir. Bu mayelər, spermaların ehtiyac duyduğu enerjini təmin edəcək şəkəri özündə saxlayır. Həmçinin əsas xüsusiyyətiylə ana bətninin girişindəki turşuları neytrallaşdıraraq, spermanın hərəkət edəcəyi sürüşkən mühiti təmin etmək kimi vəzifələrə sahibdir. Spermalar yumurtaya çatana qədər ananın bədənində çətin bir səyahət keçirərlər. Özlərini nə qədər müdafiə edirlərsə etsinlər, 200-300 milyon spermadan yumurtaya çatanların sayı mindən o qədər də çox olmaz.

Bütün bu məlumatlar əsasında ağla gələn bu ilk sualın cavabını düşünək: Sperma, ana bədənini heç tanımadığı halda, necə olub da "öz-özünü" o mühitə uyğun hala gətirmişdir?

Sperma, "öz-özünü" bir mühitə uyğun hala gətirə bilməyəcəyinə görə, bu sualın tək cavabı, bu mühitə uyğun şəkildə yaradılmasıdır.

Doğumun qısa tarixinə nəzər salmağa davam edək:

Yumurta, ancaq bir duz dənəsinin yarısı böyüklüyündədir. Yumurtayla spermanın qarşılaşdığı yer uşaqlıq borusu adlandırılan hissədir. Yumurta spermanın özünü tapa bilməsi üçün xüsusi bir maye ifraz edər. Spermalar da bu mayeni izləyərək hədəflərinə çatarlar.

Yumurtanı mayalayacaq sperma yumurtaya yaxınlaşdığında, yumurtanın ifraz etdiyi bir maye spermanın qoruyucu zirehini əridər və spermanın ucundakı əridici ferment kisəcikləri ortaya çıxar. Sperma yumurtaya çatdığında bu fermentlər yumurtanın pərdəsini deşərək spermanın içəri girməsini təmin edər. Beləliklə də,

yumurtanın ətrafını bürüyən spermalar, içəriyə girmək üçün böyük bir yarışa başlayarlar. Yumurtanı adətən tək bir sperma mayalayar və bu andan sonra başqa bir spermanın içəri girmə ehtimalı qalmaz. Bunun səbəbi yumurtanın ətrafında olan elektrik sahəsinin ilk spermanın içəriyə girməsiylə birlikdə itələmə xüsusiyyəti qazanmasıdır.

Sonunda spermadakı kişinin DNT-siylə qadının DNT-si birləşər. Artıq ananın bətnində yeni bir kənar hüceyrə (ziqot), yeni bir insan vardır.

Yumurtayla əlaqədar bu məlumatları düşündükdə ağla dərhal bu sual gəlir: Yumurta, elə bil, spermayla qarşılaşacağını "bilir"; bəs bu necə ola bilər?. Bunun da tək cavabı, yumurtanın spermayla uyğunlaşacaq şəkildə (hər ikisi arasında uyğunluq yaratdığına görə, hər ikisinə də nəzarət edən) bir Yaradıcı tərəfindən yaradılmasıdır...

Doğumun fövqəladəliyi bununla da bitməz, insanın yaranma mərhələləri hələ yeni başlayır:

Yumurta çıxıntılı səthi sayəsində uşaqlığa yerləşər. Bu çıxıntılar, yumurtanın həqiqi uzadılmaları olub, torpağa yerləşən köklər kimi, orqanın dərinliklərinə doğru gedərlər. Beləliklə də, ziqot inkişafı üçün ananın bədənində ifraz olunan hormonlardan faydalana bilər. Tam mənasıyla uşaqlığa yapışmış ziqot inkişafa başlayar. Yumurta bətnə yerləşməyə və qidalanmağa başlamışdır.

Bundan sonra 2-4-8-16 kimi həndəsi silsilə üzrə çoxalan hüceyrələr tək-tək körpənin orqanlarını meydana gətirməyə başlayar. Bu hüceyrələr bölünərək çoxalar və yeni yaranan hüceyrələr bir-birinin eynisi olar. Buna baxmayaraq, hüceyrələr, mükəmməl bir nizam içində fərqli hərəkət edər və əmələ gətirəcəkləri orqanlara uyğun şəkildə xüsusiləşməyə başlayarlar ki, bütün bunların da necə və hansı səbəbə görə baş tutduğu bilinməz. Başlanğıcda jelatini xatırladan uşaqlıqda böyük bir dəyişmə müşahidə olunar; o yumşaq strukturun içində bədənin şaquli vəziyyətdə dayanmasını təmin edəcək sərt sümüklər yaranmağa başlayar. Həm də hər sümük yerli yerində yaranar!.

Digər bir sözlə, başlanğıcda eyni olan hüceyrələr müxtəlifləşərək bəziləri işığa həssas göz hüceyrələrini, bəziləri istini, soyuğu və ya ağrını hiss edən sinir hüceyrələrini və ya səs titrəyişlərini hiss edəcək hüceyrələri meydana gətirər.

Sonunda körpə anasının bətnindəki inkişafını tamamlamış və dünyaya göz açmışdır. Bu halıyla ana bətnindəki halından 100 milyon dəfə böyük, 6 milyard dəfə də ağırdır.

Əhəmiyyətli olan burada izah edilən "qısa tarix"in, başqa hər hansı bir canlının deyil, bizim həyata başlama əhvalatımız olmasıdır. Onda bir insan üçün, bu cür

kompleks, amma fövqəladə bir hadisənin kimin əsəri olduğunu tapmaqdan daha əhəmiyyətli nə ola bilər?

Bu sualın cavabını bir qədər sonra verək və hal-hazırda doğumun qısa tarixini nəzərdən keçirdikdən sonra cavablandırılması lazım olan digər bir sualı cavablandıraq:

Hüceyrələr çoxalarkən qruplara ayrılıb, bədənin fərqli orqanlarını necə meydana gətirməyə başlaya bilərlər?

Bu mərhələdə qarşımıza bu həqiqət çıxır: Doğumla əlaqədar sualların Yaradıcının varlığını qəbul etməkdən başqa bir cavabı ola bilməz. Bütün bu mürəkkəb əməliyyatların "öz-özünə" baş verdiyini düşünmək ağılsızlıqdır. Şüursuz hüceyrələr necə "qərar verib" də insan orqanlarını meydana gətirə bilər? Hadisədəki fövqəladəliyi görən ateist elm adamları belə bunun öz-özünə baş verə bilməyəcəyini etiraf edir, lakin yaradılışı qəbul etməmək üçün buna mənasız bir ad qoyaraq "təbiət möcüzəsi" adlandırırlar. Ancaq təbiətdə, belə mükəmməl bir sistemi meydana gətirəcək şüur axtarmaq boşunadır. Təbiətin özü də cansız və şüursuz atomlardan meydana gələn bir bütündür və qərar alıb tətbiq etmə gücünə sahib deyil.

Bu hadisənin ana və atadan qaynaqlandığını düşünmək də, əlbəttə ki, səhv olar. Hətta onlar da bədənlərində baş verən hadisələrdən xəbərsizdirlər. Belə olmasına baxmayaraq, ana-ata, doğulan adam tərəfindən həyat səbəbi kimi görülər. Bu səbəblə də ana ataya böyük bir minnət çəkilər, sevgi və hörmət göstərilər.

Onda insan bunu düşünməlidir: Onun (və əslində digər bütün həyat funksiyalarının) əsl Yaradıcısı olan Allah daha çox minnət, sevgi və hörmətə layiq deyilmi? Onun varlığı ortadadır, onsuz da Onsuz bir şeyin mövcud olması qeyri-mümkündür.

Quranda insanın yaradılma möcüzəsi belə izah edilir:

**Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır! (Muminun surəsi, 12-14)**

Başqa Quran ayələrində yaradılış möcüzəsindən belə bəhs edilir:

**Bəlkə insan özbaşına və məsuliyyətsiz qoyulacağını güman edir? Məgər o, kişi**

**toxumundan axıdılan bir damla nütfə deyildimi? Sonra laxtalanmış qan oldu. Allah onu yaradıb kamil bir görkəmə saldı. Ondan da bir cüt kişi və qadın yaratdı. Məgər O, ölüləri diriltməyə qadir deyil? (Qiyamət surəsi, 36-40)**

**...Onun xəbəri olmadan heç bir dişi nə hamilə olar, nə də daşıdığını yerə qoya bilər. Uzunömürlünün uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq Yazıda (Lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır. (Fatir surəsi, 11)**

Belə olduqda, bir insanın başdakı nümunədə izah edilən və "birdən-birə meydana gəlmiş" və kimin özünü və ətrafındakı şeyləri yaratdığıyla maraqlanan adamdan heç bir fərqi olmadığı ortadadır.

Belə olduqda da, edilməsi lazım olan ən əhəmiyyətli şey, əgər o adamın şəhərdə tanış olduğu və özünə, özünü və ətrafdakı hər şeyi yaradan Yaradıcımızı tanıda biləcəklərini, Ondan özlərinə çatmış bir kitab olduğunu söyləyən kəslər kimi bəziləri varsa onları dinləməkdir. Yaxud da insan bütün bunları görməzlikdən gəlib; "bu axşam nə geyəcəyəm, filankəsə nə deyəcəyəm" kimi hər gün təkrarlanan və bir gün ölümlə birlikdə heç bir mənası qalmayacağı aydın olan suallarla məşğul olmağa qayıda bilər.

İndi siz düşünün: Bu iki variantdan hansı daha ağıllı, daha məntiqli və daha "vicdani"dir?...

İnsan Allahın yaratdığı bir varlıqdır, bunu inkar edə bilməz. Hadisəyə başqa heç bir izah gətirə bilməz. Yaradıldığına görə, yuxarıdakı ayədə bildirildiyi kimi, "özbaşına və məsuliyyətsiz" də qoyulmayacaq. Əlbəttə ki, yaradılmasının bir məqsədi vardır. Bunu haradan öyrənəcək?.

Bu sualın tək cavabı vardır: Allahın özünə göndərdiyi Kitabdan...

# QURAN BARƏSİNDƏ DÜŞÜNMƏK

*Biz səndən əvvəl də, ancaq özlərinə vəhy etdiyimiz kişilər (kişi peyğəmbərlər) göndərdik. Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun. Biz onları aydın dəlillər və kitablarla göndərdik. Sənə də Zikri nazil etdik ki, insanlara, onlar üçün nazil olanı izah edəsən və bəlkə onlar da yaxşı şəkildə fikirləşələr. (Nəhl surəsi, 43-44)*

Quran barəsində nə bilirsiniz? Yəqin ki, bir çox insan bu suala belə cavab verər: "Quran dinimizin müqəddəs kitabıdır". Bu cavab doğrudur, amma bu kəslərin bir qismi sualın əsl cavabı olan, Quranın məzmunu haqqında elə də bir fikir sahibi deyil. Quran barəsində bəzi cəmiyyətlərdə xalq arasında səhv tətbiqlər və inanclar da vardır. Quran, adətən evlərin divarlarında bəzəkli, qoruyucu bir şey içində asılmış halda dayanar. Müəyyən yaşdan yuxarı yaşa sahib kimsələr tərəfindən oxunulacağı düşünülər. Heç oxumadıqları üçün Quran ayələrinin məzmunu barəsində da heç bir şey bilməzlər.

Bəzi cəmiyyətlərdə Quranın içində nə yazıldığını bilən, Quran üzərində düşünən insanların sayı çox azdır.

Yaxşı, bəs onda Quranın əsl göndərilmə məqsədi nədir? Bunu, yenə Quran ayələrindən öyrənirik. Ayələrdə belə buyurulur:

**Bu Quran insanlar üçün bir bildirişdir. Qoy onunla həm xəbərdar olunub qorxudulsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də təmiz ağıl sahibləri yaxşı şəkildə öyüd alıb düşünsünlər. (İbrahim surəsi, 52)**

**Biz Quranı zikr (öyüd alıb düşünmək) üçün asanlaşdırdıq. Amma heç öyüd alıb düşünən varmı? (Qamər surəsi, 32)**

**Onların rəvayətlərində təmiz ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müxtəlif formalarda izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

**Bu, qətiyyən şübhə doğurmayan, çəkinənlərə doğru yol göstərən bir Kitabdır. (Bəqərə surəsi, 2)**

Yuxarıdakı ayələrdə və bunlara bənzər bir çox ayədə, Quranın göndərilmə məqsədinin; insanları düşünməyə yönəltmək, onlara özlərini yaradan Allahı tanıtmaq, onlara "bələdçi" olub yol göstərmək olduğu bildirilir. Quran, ağıl və vicdanı açıq olan hər insana xitab edən, onları doğru yola çatdıran bir kitabdır.

Onda, əvvəlcə Qurana istiqamətli səhv dünyagörüşü aradan qaldırılmalıdır. Quran bəzilərinin zənn etdiyi kimi yalnız Peyğəmbərimiz (s.ə.v)-ə xitab edən bir kitab deyil. "Müsəlmanam" deyən hər kəs Qurana yönəlməlidir.

Bəzi insanlar müəyyən günlərdə və ya dövrlərdə Quran oxuyarlar və Quran ayələrindən xəbərdardırlar. Ancaq bu kəslər Quranı "oxumaq"la kifayətlənər, beləliklə də, boynuna düşən vəzifəni yerini yetirdiklərini düşünərlər. Əlbəttə ki, "Quran oxumaq" bir ibadətdir və yerinə yetirilməsi zəruridir. Ancaq oxunanları həyata keçirmək, gündəlik həyata tətbiq etmək də çox əhəmiyyətli bir ibadətdir.

Quranın "dövrə uyğunlaşdırılmasının" lazım olduğunu irəli sürən bəzi cahil kəslər isə, Quranın hər dövrü və hər cəmiyyəti əhatə etdiyi xüsusiyyətini görə bilməmişdirlər. Quranı açıq bir zehinlə oxuyan adam görər ki, Quranda izah edilən insan və cəmiyyət xüsusiyyətləri, bu gün də daxil olmaqla tarixin hər dövrünü izah edir.

Din əxlaqından uzaq cəmiyyətlərin etdikləri bütün səhvlər, pozulmalar və azğınlıqlar Quranda izah edilər, həmin cəmiyyətlərin dinə qarşı göstərdikləri reaksiyalar təsvir edilər, xarakterləri haqqında məlumat verilər. Bu məlumatlar hazırkı dövrə də uyğun gəlir və bu da Quranın hər dövrə xitab edən möcüzəvi istiqamətini bir dəfə daha sübut edir.

Quranı tətbiq etmək məqsədiylə oxuyan və əlindən gəldiyi qədər tətbiq etməyə başlayan bir adam (belə ki, o artıq bir "mömin" olma yolundadır) gün keçdikcə Quranın həyatın hər anını necə əhatə etdiyini heyrətlə və Qurana olan inamı artaraq görəcək. Quranda imanlı insanın qarşılaşacağı hadisələr və bu hadisələr qarşısında göstərməli olduğu rəftarlar ən incə nöqtəsinə qədər təsvir edilmişdir. Quranı ancaq "oxumaq"la kifayətlənib, tətbiq etməkdən imtina etmək isə insanı zənn ediləndən daha pis bir mövqeyə salır.

Allah bir ayədə belə buyurur:

**Onlara Tövrata əməl etmək tapşırıldıqdan sonra ona əməl etməyənlər belində çoxlu kitab daşıyan, amma onlardan faydalana bilməyən uzunqulağa bənzəyirlər. Allahın ayələrini yalan sayan adamların məsəli necə də pisdir. Allah zalım adamları doğru yola yönəltməz. (Cümə surəsi, 5)**

# QURANDAKI DİN VƏ ATALARIN DİNİ

*Onlar yaramaz əməl etdikləri zaman: "Atalarımızı belə gördük. Allah da bizə bunu əmr etmişdir" deyirlər. De: "Allah yaramaz əməlləri əmr etməz. Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?" (Əraf surəsi, 28)*

*Onlara: "Allahın nazil etdiyinə tabe olun!" deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!" deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)*

Qurana və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə əməl olunmadığı bir mühitdə əsl mənada bir dinin yaşandığını düşünmək qeyri-mümkündür. Bu mərhələdə, Qurandakı din ilə, bəzi cəmiyyətlərdə görülən din anlayışının fərqini yaxşı müəyyənləşdirmək. Buna çox diqqət yetirilməlidir: Əgər din, Quranın və sünnələrin tətbiq olunması deyil, əksinə atalardan qalma bəzi səhv düşüncə və batil inancların davam etdirilməsi olaraq başa düşülərsə, o din artıq əsl İslam dini ola bilməz.

Bu gün bəzi cəmiyyətlərdə dindar kimi tanınan bir çox insanın Qurandan və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsindən xəbərsiz olması vəziyyətin təhrif olunduğunu göstərir. Bu kəslər üçün din, sanki atalardan qalan batil bir miras kimi davam edir ki, bunun da (Allahın istəyi xaricində) Allah Qatında hər hansı bir dəyəri olmasını gözləmək səhv olar.

Buddistlərdən totemlərə tapınan Afrika qəbilələrinə qədər bir çox cəmiyyət, dinlərini atadan qalma miras kimi tətbiq edir və bunların heç biri haqq din deyil. Çünki bu dinlərdə məqsəd, haqq dində olduğu kimi Allahın razılığını qazanmaq deyil, çox vaxt bəzi insanlar üçün ənənəni davam etdirmənin bəxş etdiyi nostalji zövqü yaşamaq, bəzən də mənfəət əldə etməkdir.

Quranda bildirilən dindəki təməl isə Allahın razılığıdır. Müsəlman bunu özünə təməl kimi qəbul etməlidir. Bu mövzudakı bir ayə mövzunu izah edir:

**Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 109)**

Ayədən də aydın olacağı kimi, Allah rizası üzərində qurulmamış bir iman, bunun

üzərində qurulmamış bir din anlayışı məqbul olmadığı kimi özü ilə birlikdə qorxunc bir aqibət də gətirir.

# ƏSL DİNDARLAR VƏ SAXTA DİNDARLAR

*De: "Əgər bilirsinizsə, deyin görüm yer və onun üstündə olanlar kimindir?" De: "Bəs öyüd alıb düşünməyəcəksiniz?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!" deyəcəklər. De: "Bəs çəkinməyəcəksiniz?" De: "Əgər bilirsinizsə, deyin görüm hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!" deyəcəklər. De: "Bəs necə olur ki, sehrlənirsiniz?" Xeyr, Biz onlara haqqı gətirdik. Onlar isə yalançıdırlar! (Muminun surəsi, 84-90)*

Kitabın əvvəlində verilən nümunəyə geri qayıdaq. Şəhərdə, digər insanlardan hər cəhətdən fərqlənən bir qrup insan olduğunu vurğulamışdıq. Həmin bu insanlara, şəhərin digər sakinlərinin əhəmiyyətli bir hissəsinin pis gözlə baxdıqlarını, onların əleyhində hərəkət etdiklərini ifadə etmişdik. Həmin bir qrup insanın isə, özlərinə, o şəhərin və digər hər şeyin sahibinin çatdırdığı bir kitabı rəhbər tutduqlarını söyləmişdik.

Həmin insanlar Allahın verdiyi ada əsasən müsəlmandırlar:

**Allah yolunda lazımınca cihad edin (səy göstərin). O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəl nazil etdiyi kitablarda, həm də bu Kitabda sizi müsəlman adlandırdı. Elə isə dosdoğru namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın. O sizin Himayədarınızdır. O nə gözəl Himayədar, nə gözəl Yardımçıdır! (Həcc surəsi, 78)**

**İnsanları Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!" deyən kəsdən daha gözəl söz deyən kim ola bilər? (Fussilət surəsi, 33)**

Burada diqqət yetirilməsi lazım olan bir xüsus var: Digər insanların möminlərə yaxşı gözlə baxmamaları... Nümunədə izah edilən şəhərin "cahil bir şəhər" olduğunu ifadə etmişdik. Bir cəmiyyətin "cahiliyyət" cəmiyyəti olması, onun dinsiz bir cəmiyyət olduğu mənasını verməz. Tam əksinə, Quranda izah edilən "cahiliyyət" cəmiyyətləri

guya özlərini "dindar" hesab edərlər. Amma bağlı olduqları din, haqq din deyil. Yaşadıqları, atalarından qalan, bir çox batil inanc və xurafata əsaslanan, israrla davam etdirdikləri və doğru olduğunu zənn etdikləri azğın bir din anlayışıdır. Quranda, "cahiliyyət" cəmiyyətinin bu xüsusiyyəti belə vurğulanır:

**Onlara: "Allahın nazil etdiyinə itaət edin!" deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!" deyərlər. Əgər şeytan onları Cəhənnəm odunun əzabına çağırmışsada mı (bu yolu tutub gedəcəklər)? (Loğman surəsi, 21)**

"Cahiliyyət" cəmiyyətinin ən əhəmiyyətli xüsusiyyəti isə, müdafiə etdiyi bu batil sistemi Allah üçün müdafiə etməsidir. Bu səmimiyyətsiz bir şeydir və "cahiliyyət" cəmiyyətinin üzvlərinin Allaha qarşı bağlılıqları yoxdur. Amma bu cəmiyyətin bəzi üzvləri, ən əsası da öndə gələnləri, dindar imici nümayiş etdirərlər. Belə ki, Allahın bir peyğəmbərini öldürmək kimi Allah Qatında ola biləcək ən böyük günahı işləyərkən belə, Allaha and içərlər:

**Şəhərdə doqquz adam vardı, yer üzündə fitnə-fəsad törədir və əmin-amanlıq yaratmırdılar. Onlar dedilər: "Bir-birinizin yanında Allaha and için ki, gecə ona və ailəsinə basqın edib öldürəcək, sonra da onun yaxın qohumuna deyəcəyik ki, biz onun ailəsinin öldürüldüyünü görməmişik və biz, həqiqətən, düzünü deyirik". (Nəml surəsi, 48-49)**

"Cahiliyyət cəmiyyəti"ndə Quranı bilən, Qurana tabe olacaqlarına dair söz vermələrinə baxmayaraq, "dünyanın müvəqqəti faydasını" seçərək öz mənfəətlərini güdən bir qrup da vardır. Bütün bu etdikləri ikiüzlülüyə baxmayaraq, özlərini "nümunəvi müsəlman" kimi göstərərlər:

**Onlardan sonra Kitaba varis olan bəzi pis insanlar gəldilər. Onlar bu fani dünya malını alıb: "Biz bağışlanacağıq!" deyirlər. Onlara buna bənzər mənfəətlər gəldikdə, onu da alırlar. Məgər Allah barəsində haqdan başqa bir şey söyləməyəcəklərinə dair onlardan Kitabda yazılmış əhd alınmamışdımı? Halbuki onlar Kitabda olanları oxuyub öyrənmişdilər. Allahdan qorxanlar üçün axirət yurdu daha xeyirlidir. Hələ də anlamırsınız? (Əraf surəsi, 169)**

Belə olduqda, bir insanın və ya bir qrupun mömin olub olmadığını anlamaq bir qədər daha diqqətli bir müşahidə tələb edir. Çünki bir insanın ağzından (yuxarıdakı ayədən də açıq şəkildə görüldüyü kimi) İslami sözlərin çıxması, o insanın dini sözlərlə danışması onun həqiqi mənada müsəlman, mömin olduğunu göstərməyə bilər. Yuxarıdakı ayədə izah edilən insanların bir istisna olduğu zənn edilə bilər. Ancaq Quran ayələri bunun belə olmadığını göstərir. Bir çox ayədə, mömin olduğunu irəli sürdüyü halda, əslində mömin olmayan, hələ bir də, olduqca pis bir mövqedə olan insanlardan bəhs edilir:

**İnsanlar arasında elələri də vardır ki, inanmadıqları halda: "Allaha və Axirət gününə inanırıq" deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki, yalnız özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər. (Bəqərə surəsi, 8-10)**

Başqa ayələrdə, haqqında danışılan "saxta dindar"ların, özlərinə verilən suallara belə cavablar verdikləri bildirilir:

**De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda siz yenə də Allahdan qorxub çəkinməyəcəksiniz?" O sizin Haqq Rəbbiniz olan Allahdır. Haqdan sonra zəlalətdən başqa nə ola bilər? Bəs hələ necə də haqdan döndərilirsiniz! (Yunis surəsi, 31-32)**

**Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: "Allah!" deyərlər. Onda necə olur da haqdan döndərilirlər!. (Zuxruf surəsi, 87)**

Yuxarıdakı ayələr, bir insanın əsl mömin ola bilməsi üçün tələb olunan meyarların, cahiliyyət cəmiyyətindəki saxta "dindar" meyarlarından fərqli olduğunu göstərir. Allah Quranda əsl möminlərin hansı xüsusiyyətlərə sahib olduğunu təfərrüatlı şəkildə bildirmişdir. İndi bu xüsusiyyətləri araşdırmaqda fayda var.

# QURANDA TƏSVİR EDİLƏN MÖMİN

*Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar və yalnız öz Rəbbinə təvəkkül edərlər. (Ənfal surəsi, 2)*

*...O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. ...Allah həm əvvəl nazil etdiyi kitablarda, həm də bu Kitabda sizi müsəlman olaraq adlandırdı. (Həcc surəsi, 78)*

*İnsanları Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!" deyən kəsdən daha gözəl söz deyən kim ola bilər? (Fussilət surəsi, 33)*

Müsəlman olmağın ilk şərti tək İlah olan Allaha qulluq etməkdir. İslam, əslində bu şərtin müxtəlif formalarda həyata keçirilməsidir. Bu qanuna əsaslanmayan hər şey İslamdan kənardır, "cahilliyət" aiddir. Amma bu tək cümləylə ifadə edilən həqiqət, insanların zənn etdiyindən olduqca dərin mənalar daşıyır. Çünki "cahiliyyət cəmiyyət"inin nümayəndəsi olan, lakin özünü mömin hesab edən kəslərin heç biri, Allahdan başqasına qulluq etdikləri düşüncəsinə sahib deyillər. Əlbəttə ki, heç biri namaz qılarkən qarşılarına bir heykəl qoyub da ona tapınmırlar. Belə bir şey etmədikləri üçün də Allaha qulluq etdiklərini iddia edərlər.

Amma həqiqət heç də elə göründüyü kimi deyil. Bu ziddiyyət, "qulluq etmə" ifadəsinin, yalnız "bir varlığın qarşısında səcdə etmə" olaraq başa düşülməsindən qaynaqlanır. "Qulluq etmə" ifadəsinin mənasını, "cahiliyyət cəmiyyəti"nin ona verdiyi yanlış və qısa tərifdə deyil, Quran ayələrində axtarmaq lazımdır:

**Mən, cinləri və insanları yalnız Mənə qulluq etsinlər deyə yaratdım. (Zəriyət surəsi, 56)**

Yuxarıdakı ayədə, Allahın cinləri və insanları "yalnız Özünə qulluq etmələri üçün" yaratdığı bildirilir. Mömin, əlbəttə ki, bu təsvirə uyğun gələn, yəni Allahın yaratmasına uyğun olaraq "Ona qulluq edən" və ayənin ifadəsinə görə, Ona qulluq etməkdən başqa

bir şey etməyən insandır.

Allaha qul olmağın nə demək olduğu, Allaha necə qul olunduğu aşağıdakı ayədə izah olunur:

**De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!. (Ənam surəsi, 162)**

Ayədə bildirildiyi kimi, Allaha qulluq etmək, insanın yalnız 5 vaxt namazını və ya digər ibadətlərini deyil, bütün həyatını hətta ölümünü belə əhatə edir. Mömin, bütün həyatını Allaha qulluq etməklə keçirən insandır. Bunun qarşılığında Allahın razılığını, rəhmətini və sonsuz cənnətini qazanacaq.

Həyatını Allah rizası xaricindəki məqsədlərə yönəltmək isə Allahın Quranda bildirdiyi kimi "şirk"dir, yəni Allaha şərik qoşmaqdır. Peyğəmbərlər tarix boyu insanları Allaha şərik qoşmaqdan imtina etməyə çağırmışlar. Quranda bildirildiyinə görə bütün "cahiliyyət" cəmiyyətləri Uca Allaha şərik qoşan cəmiyyətlərdir. Buna görə də hal-hazırda dünyanın böyük bir hissəsi də şirkə əsaslanan bir dinə mənsubdur. Bu dünyada ancaq mömin birlikləri təkcə Allaha qul edərək haqq dini yaşayarlar. Ayədə bildirildiyi kimi möminlər yalnız bunu söyləyər:

**De: "Ey insanlar! Dinimə şəkk edirsinizsə, bilin ki, mən Allahdan başqa tapındıqlarınıza deyil, canınızı alacaq Allaha ibadət edirəm. Mənə möminlərdən olmaq əmr edilmişdir". (Yunis surəsi, 104)**

Yaxşı, bəs onda insan Allaha necə qulluq edər? Yalnız bu müqəddəs işi görməkdən ibarət olan həyatını necə keçirər? Cahiliyyət cəmiyyətlərində zənn edildiyi kimi, bütün günlərini "əziyyət" içindəmi keçirər? Hərəkətsiz, sabit, içinə qapalı bir insan modelinimi yaşayar?

Tam əksinə səmimi bir mömin Allaha qəlbən təslim olmağın verdiyi əmin-amanlıq, hüzur və rahatlığın sevincini yaşayar. Sahib olduğu və gördüyü hər şeyin Allahın lütfü olduğunu bilər, bu nemətlərin verdiyi sevinc və həyəcanı yaşıyar. Bir sözlə, mömin şən, gülərüzlü, qayğısız, əzmkar, keyfiyyətli bir insandır. Yalnız Allah üçün yaşayar, Allah üçün çalışar, Allahı razı salmaq üçün özünə verilən bütün imkanlardan istifadə edər.

Bilinməlidir ki, həqiqi İslam dinini tanımayanların zənn etdiyinin əksinə, insanı

çətinliyə salan əsl şey din əxlaqından, Allah sevgisindən və Allah qorxusundan uzaq yaşamaqdır. Yalnız Allaha qul olan adam isə mümkün qədər sərbəst, rahat, şən və xoşbəxtdir. Onu zəncirləyən "saxta ilah"ların boyunduruğundan xilas olmuşdur. "İnsanlar haqqımda nə düşünər?", "filankəs məni sevməsə nə edərəm?", "işdən atılsam nə olar?" kimi milyonlarla qorxu ondan uzaqlaşmışdır. Aciz, zalım, ağılsız və heç bir şeyə gücü çatmayan milyonlarla xəyali ilaha qulluq etmənin təzyiqindən xilas olub, hər şeyə gücü çatan, sonsuz ağıl və gözəllik sahibi, hər şeyi idarəsi altında saxlayan, sonsuz şəfqət və ədalət sahibi olan Allaha bağlanmışdır. O, Quranda bildirildiyi kimi "ən möhkəm dəstəkdən yapışmışdır. Ayədə belə buyurulur:

**Dində məcburiyyət yoxdur. Şübhəsiz, doğru yol azğınlıqdan aydın fərqlənir. Artıq kim tağutu inkar edib Allaha iman gətirərsə, o, heç vaxt qırılmayan ən möhkəm bir dəstəkdən yapışmışdır; bunun qopması yoxdur. Allah, eşidəndir, biləndir. (Bəqərə surəsi, 256)**

Necə ki, Quranda yalnız Allaha qulluq etməyə dəvət edən peyğəmbərlərin sərbəstləşdirici və "zəncirlərdən xilasedici" xüsusiyyəti belə bildirilmişdir:

**O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri, xəbər gətirən və yazıb-oxumaq bilməyən elçinin ardınca gedərlər. O onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır". (Əraf surəsi, 157)**

Digər bir ayədə isə Allah, möminlərin xüsusiyyətlərini belə bildirir:

**Şübhəsiz, Müsəlman kişilər və Müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, qəlbən (Allaha) itaət edən kişilər və qəlbən (Allaha) itaət edən qadınlar, sadiq kişilər və sadiq qadınlar, səbr edən kişilər və səbr edən qadınlar, hörmətlə (Allahdan) qorxan kişilər və hörmətlə (Allahdan) qorxan qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və ismətlərini qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və Allahı çox zikr edən qadınlar; (məhz) bunlar üçün Allah bir bağışlanma və böyük bir mükafat hazırlamışdır.**

**(Əhzab surəsi, 35)**

Möminin Allahla səmimi və yaxın bir əlaqəsi vardır. Allah onun tək dostu, tək yardımçısıdır. Quranda hz. İbrahim (ə.s)-ın Allahla olan yaxın əlaqəsi müsəlmanlara nümunə olması üçün belə xəbər verilir:

**O (İbrahim) dedi: "Siz nəyə ibadət etdiyinizi gördünüzmü - həm siz, həm də ulu babalarınız? Aləmlərin Rəbbindən başqa, onların hamısı mənim düşmənimdir. O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir; O Rəbb ki, məni yedirdir və içirdir; O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir; O Rəbb ki, məni öldürəcək, sonra dirildəcəkdir; O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram. Ey Rəbbim! Mənə hökm və hikmət ver və məni əməlisalehlərə qovuşdur! Məni, sonrakı nəsillər üçün yaxşı bir nümunə et! Məni nemətlərlə dolu cənnətin varislərindən et! Atamı bağışla! Çünki o, azanlardandır. Onların (insanların) dirildiləcəyi gün məni rüsvay etmə! O gün ki, nə var-dövlət, nə də oğul-uşaq bir fayda verməyəcək. (Şuəra surəsi, 75-88)**

Quranda yalnız Allaha qulluq etmənin rahatlığını yaşayan mömin ilə, Allaha saysız şəriklər qoşan, saysız saxta ilaha qulluq edən adamın nümunəsi isə belə verilmişdir:

**Allah (özünə şərik qoşanlar üçün) bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur, lakin onların əksəriyyəti bilmir. (Zumər surəsi, 29)**

Möminin ən böyük xüsusiyyətlərindən biri də qürurdan, özündən razılıqdan, digər bir sözlə, sanki özünü ilahlaşdırmaqdan xilas olmuş olmasıdır. Allaha qəlbən təslim olub, Ona sığınan bir mömin heç vaxt özündən razı qalaraq öz içində sıxışıb qalmaz və özünü daim inkişaf etdirər. Quranda bildirilən mömin xüsusiyyətlərini hər keçən gün daha çox yaşamağa səy göstərər. Təvazökarlığı bütün hərəkətlərində əks olunar. Allah təvazökar qullarını bir ayəsində belə nümunə verir:

**Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara xoşagəlməz bir söz dedikdə: "Salam!" deyərlər. (Furqan surəsi, 63)**

Allaha tabe olmayanların ən böyük səhvi isə öz ağlını bəyənmək, qürurlanmaq, sanki özünü ilahlaşdırmaqdır. (Allahı tənzih edərik.) Quranda, vicdanı, həqiqətləri gördüyü və qəbul etdiyi halda qürurundan ötrü təkəbbürlənən və həqiqətlərdən qaçan insanlardan belə bəhs edilmişdir:

**Vicdanları qəbul etdiyi halda, zülm və qürurlanmadan ötrü bunları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu! (Nəml surəsi, 14)**

Qürurlu insanların inkar etmələri və doğru yoldan sapmalarının əksinə, möminin həyatı Allahın özünə bildirdiyi məsuliyyəti yerinə yetirmək səyi ilə keçər. Möminin daim mübarizə halında olacağı əsl ünsür isə öz nəfsidir. Quranda nəfsin pis əməllərə çağıran cəhəti belə xəbər verilmişdir:

**Mən nəfsimi təmizə çıxara bilmərəm. Çünki həqiqətən nəfs, (Rəbbimin qoruduğu kimsədən başqa) var gücüylə pisliyi əmr edər. Şübhəsiz, mənim Rəbbim, bağışlayandır, qoruyandır. (Yusuf surəsi, 53)**

Mömin həyatının hər anında nəfsinə qarşı diqqətli olar və hər vaxt, hər şərtdə vicdanının səsinə qulaq asar. Daim Allahın rizasına uyğun olan şeyi edər. Onu, qorxu, bezginlik, ümidsizlik, zəiflik kimi müxtəlif maneələrdən istifadə edərək yolundan döndərməyə çalışan nəfsini, şövqlə, əzmlə, cəsarətlə, səbirlə məğlub edər. Heç vaxt yolundan dönməz, çünki bu yol onun tək dostu, tək yardımçısı və tək dayağı olan Allahın yoludur. Əlbəttə ki, möminin mübarizəsi öz nəfsi ilə məhdudlaşmaz. Quranda Rəbbimizin möminlərə bildirdiyi bir məsuliyyət daha vardır: Yaxşılığı əmr etmək və pislikdən çəkindirmək.

Mömin Quran ayələrində də bildirildiyi kimi, Allahın yer üzündəki xəlifəsidir. İnsanların Allahın yoluyla getmələrinə mane olanlara, onlara təzyiq və zülm göstərənlərə qarşı böyük bir fikri mübarizə aparar, çünki bu, ona Quranda xəbər verilən bir məsuliyyətdir.

Ancaq, Quran əxlaqına bağlı insanların istiqamət verdiyi bir cəmiyyət həqiqi ədaləti və doğruluğu yaşaya bilər. Mömin, Allah rizasını qazanmaq üçün yaşayan, insanlar arasında ədaləti qoruyan, onları doğruya yönəldən adamdır. Möminlər, boynuna götürdükləri məsuliyyət nə qədər böyük olursa olsun Allahın öyrətdiyi əxlaqdan heç vaxt güzəştə getməzlər. Onların bu xüsusiyyətləri Quranda belə bildirilir:

**Əgər onları yer üzündə yerləşdirib hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir. (Həcc surəsi, 41)**

Allahdan qorxmayan insanlar isə nə vəzifəyə gəlirlərsə gəlsinlər şəxsi mənfəətləri arxasınca qaçar, mövqe, şöhrət, mal, mülk əldə etmə yarışına girərlər. Buna görə də, belə insanların söz sahibi olduğu bir cəmiyyət həyatında heç vaxt əsl mənada hüzur və xoşbəxtlik yaşanmaz.

Möminlər isə hər şərtdə insanları pis əməllərdən çəkindirmək, onları gözəl davranışlara təşviq etmək, onlara nümunə olmaq və yaxşılığı "əmr etmək" üçün böyük bir səy göstərərlər. Bu səylərində əsla zəiflik göstərməzlər. Quranda, möminlərin sarsılmaz xarakteri belə izah edilir:

**Neçə-neçə peyğəmbərlə birlikdə bir çox Rəbbanilər (Rəbbani alimlər) də vuruşmuş və Onlar Allah yolunda başlarına gələnlərə görə nə zəifləmiş, nə də düşmənə boyun əymişlər. Allah səbir edənləri sevir.Onların dedikləri ancaq: "Ey Rəbbimiz! Günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla; qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" olmuşdur. Beləliklə Allah onlara həm dünya mükafatını, həm də gözəl axirət mükafatını verdi. Allah yaxşı iş görənləri sevir. (Ali İmran surəsi, 146-148)**

Səmimi mömini saxta dindarlardan fərqləndirən ən diqqətə çarpan xüsusiyyətlərindən biri də, dini izah edərkən insanlardan heç bir mənfəət güdməməsidir. Hədəfi pul, mal, mövqe və ya insanların rəğbətini qazanmaq deyil, yalnız Allahın məmnuniyyətini qazanmaqdır. O "əcrini" (mükafatını) yalnız Allah Qatında axtarar. Quranda bu mövzuda peyğəmbərlərin nümunəvi əxlaqından nümunələr verən bir çox ayə vardır. Bunlardan bir neçəsi belədir:

**Əgər üz çevirsəniz, bilin ki, mən sizdən heç bir mükafat istəmədim. Mənim mükafatım ancaq Allahdadır. Mənə müsəlmanlardan olmaq əmr edilmişdir". (Yunis surəsi, 72)**

**Bunlar Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl.**

**De: "Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Bu Kitab aləmlər üçün yalnız bir öyüd-nəsihət və xatırlatmadır". (Ənam surəsi, 90)**

Müsəlman həmçinin üstün bir əxlaq sahibidir. Dünyəvi, kiçik macəraların arxasınca qaçmadığı üçün, anlayışlı, mərhəmətli və bağışlayıcıdır. Hissləriylə deyil, ağlıyla hərəkət edər, qəzəblənməz. Fədakar, köməksevər və incə düşüncəlidir. Möminlərin bu gözəl xüsusiyyətləri Quranda belə bildirilir:

**O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Bu yurdun (dünyanın) gözəl nəticəsi (axirət xoşbəxtliyi) onlar üçündür. (Rad surəsi, 22)**

**Onlar, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyənlər, qəzəblərini boğanlar və insanlardakı haqlarından bağışlamaq yolu ilə vaz keçənlərdir. Allah yaxşı iş görənləri sevir. (Ali İmran surəsi, 134)**

**Sən bağışlama yolunu tut, (İslam dininə) uyğun olanı əmr et və cahillərdən üz döndər. (Əraf surəsi, 199)**

**Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və islah etsə, onun mükafatı Allaha aid olar. Həqiqətən, O, zalımları sevmir. (Şura surəsi, 40)**

**Onlar yalandan şahidlik etməz, boş və faydasız şeylərə rast gəldikdə oradan ləyaqətlə ötüb keçərlər. (Furqan surəsi, 72)**

**Ona qarşı duyduqları sevgiyə baxmayaraq, yeməyi yoxsula, yetimə və əsirə də yedirdərlər. (İnsan surəsi, 8)**

Ancaq bunu da ifadə etmək lazımdır ki, əlbəttə, möminin səhvləri də olacaq. Bu, onun insan və dolayısilə bir qul olmasının tələbidir. Amma saleh müsəlman dərhal etdiyi səhvlər üçün Allahdan bağışlanma diləyər və onları tamamilə düzəldər. Heç bir səhv onu ümidsizliyə salmaz, çünki o Allahın sonsuz rəhmətinə sığınmışdır. Quranda

bu mövzu belə xəbər verilir:

**Onlar, pis bir iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb dərhal günahlarından ötrü bağışlanma diləyənlərdir. Günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar bilə-bilə etdikləri şeylərə (pis əməllərə) görə israr etməzlər. (Ali İmran surəsi, 135)**

Möminin dostu Allah və Allaha dost olan digər möminlərdir. Əgər Allaha düşmən isə, ən yaxını belə artıq onun üçün dost deyil. Allaha bağlanmış bir mömin də, aralarında imandan başqa heç bir ortaq xüsusiyyət (nəsil, sosial status, maddi imkanlar kimi) olmasa belə onun qardaşıdır. Allah üçün sevmənin verdiyi üstünlüyə nail olmuşdur; Allahın razı olduğu insanları sevər.

Müsəlmanın ağlı da açıqdır. Allaha güvəndiyi və özünü Ona təslim etdiyi üçün beynini qurcalayan lüzumsuz qorxular, narahatlıqlar, kədərlər yoxdur. "Sağlam düşüncə" sahibidir. Bu səbəblə də böyük və geniş düşünə bilər, hadisələrin incəliklərini, dolaşıq tərəflərini dərk edər. Məlumat, hikmət və ağıl sahibidir.

Dünyada müvəqqəti olaraq yaşayır. Təlimdən keçəcək, ruhu hər keçən gün daha da nəcibləşəcək, əsl yurduna, axirətə hazırlanacaq. Burada özünə yazılan tarix isə Allahın saleh qullarına yaraşacaq şəkildə şan və şərəflə doludur.

# ÖZÜMÜZÜ SORĞU-SUAL ETMƏK

*Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır.*

*Allahı unudan, buna görə də Allahın onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar fasiqlərdir. (Həşr surəsi, 18-19)*

Quranda möminlərin xüsusiyyətləri, əvvəlki səhifələrdə izah etdiyimiz şəkildə bildirilir. Allahın, özlərindən razı olduğunu və onları cənnətinə yerləşdirəcəyini bildirdiyi insanlar bəhs etdiyimiz xüsusiyyətlərə malikdir. Yaxşı, bəs görəsən özümüzdən onlara nə qədər bənzədiyimiz soruşduqmu?

Quranda bildirilən mömin xüsusiyyətləri açıq şəkildə, soruşulduğunda "əlhamdülillah müsəlmanam" deməyin və hərdənbir bəzi ibadətləri yerinə yetirməyin Allah Qatında kifayət etməyəcəyini göstərir. Mömin gücü çatdığı qədər Quranda bildirilən bütün xüsusiyyətlərə sahib olmaq üçün səy göstərməlidir. Əks halda etdiyi şey, "bir ucundan ibadət" etmək mənasına gələ bilər və Quranda "Allaha şübhə ilə ibadət edənlər"in vəziyyəti belə izah edilər:

**İnsanlardan eləsi də vardır ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib küfrə qayıdar. O adam dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur. (Həcc surəsi, 11)**

Özündən razı qalan insanların yanıldıqları digər bir mövzu da, bəzi vaxtlarda bəzi kəslərə yaxşılıq etmələri və ya kasıblara kömək etmiş olmalarını yetərli görmələridir. Halbuki, Quranda Allah Qatında nələrin qiymətli, nələrin həqiqi yaxşılıq olduğu belə xəbər verilir:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə**

**yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır. (Bəqərə surəsi, 177)**

Quranda mömin xüsusiyyətləri açıq şəkildə bildirildiyi halda, "mənim qəlbim təmizdir, heç kimə pislik etməmişəm, Allah, əlbəttə ki, məni sevir" kimi düşüncələrlə özünü aldatmağın heç bir mənası yoxdur. Allah insanlardan Özünə qulluq etmələrini istəyir, təkcə "heç kimə zərər verməyən qəlbi təmiz insan" olmalarını deyil. Əlbəttə ki, hər insan təmiz qəlbli olmaq və heç kimə zərər verməməklə mükəlləfdir, ancaq bu təkbaşına kifayət etməz. Üstəlik, Allaha qulluq etməyən, imansız bir insanın qəlbi tam mənasıyla "təmiz" ola bilməz. Qəlbin təmiz olması, ancaq Allahın Quranda bildirdiyi bütün hökmləri yerinə yetirmək, Allahın qoyduğu sərhədləri qorumaqla mümkün ola bilər.

# DİN ƏXLAQINI YAŞAMAYAN İNSAN MODELİNİN ZƏRƏRLƏRİ

*Onlar dedilər: "Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq sonu olmayan zamandır". Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar. (Casiyə surəsi, 24)*

*İnsanlar içərisində eləsi də vardır ki, heç bir biliyi, doğru yol göstəricisi və nur saçan bir kitabı olmadan Allah haqqında mübahisə edir. (Həcc surəsi, 8)*

Möminlərin bura qədər bəhs etdiyimiz bütün bu müsbət xüsusiyyətlərinə baxmayaraq, bir kimsənin din əxlaqından uzaq qalmasının altında yatan səbəbləri başa düşə bilmək üçün bu adamın İslam dini və müsəlmanlar barəsində o günə qədər sahib olduğu təəssüratlara, ön mühakimələrə nəzər salmaq lazımdır.

"Din əxlaqından uzaq" yaşayan insanların ən əhəmiyyətli xüsusiyyəti, başda da ifadə etdiyimiz kimi cəmiyyətin təlqinləri istiqamətində hərəkət etmələridir. Bu insanlar demək olar ki, bütün davranışlarını çoxluğa tabe olma psixologiyası əsasında müəyyənləşdirərlər. Şübhəsiz ki, bu psixologiya onların dinə qarşı olan dünyagörüşlərini də formalaşdırır.

Din haqqındakı bütün fikirləri, ona ətrafındakı insanlar tərəfindən aşılanmışdır. Quranı həyatında bir dəfə belə oxumadığından və onu bilmədiyindən ötrü, uşaqlıq yaşlarından etibarən əldə etdiyi qulaqdan dolma məlumatlara əsaslanan bir din anlayışına sahibdir. Din adına özünə izah edilən hər şeyin dində həqiqətən mövcud olduğu düşüncəsinə qapılar. Quranı oxuyub həqiqi din əxlaqını öyrənməkdən isə şiddətlə çəkinər, ətrafındakı insanlara da eyni təlqinləri verərək, çox vaxt onların da din əxlaqından uzaq dayanmalarına vəsilə olar. Bu səhv münasibət və anlayışa sahib insanlar Quranda belə bildirilir:

**Onlar həm insanları ondan uzaqlaşdırır, həm də özləri ondan uzaqlaşarlar. Onlar ancaq özlərini həlak edir və bunu hiss etmirlər. (Ənam surəsi, 26)**

Bu əxlaqa sahib kəslərin cahilliklərindən ötrü cəmiyyətin böyük bir hissəsinin din əxlaqını yaşamaması, ondan uzaq dayanması, onların da eyni rəftarı göstərməsinin ən

böyük dayağı olacaq. Cəhalətləri, tanınmış və cəmiyyətdəki öndə gələn insanların din əxlaqından uzaq həyatlarının özlərinə daha da mənfi təsir etməsinə səbəb olar. Din əxlaqından uzaq qalaraq öz ağlınca "müasir dövrə ayaq uydurduğunu" və "öndə gələn insanların davrandığı kimi davrandığını" düşünər. Bu birlik psixologiyasından ötrü dindən uzaq dayanmağın axirətdəki nəticəsini də unudar.

Halbuki, öldüyü andan etibarən hər insan təkbaşına qalacaq. "Öndə gələnlər"in özünə heç bir faydası toxunmayacaq. Ayələrdə axirətdəki vəziyyət belə bildirilir:

**Axirət günü hamı Allahın hüzuruna çıxarıldı və zəiflər təkəbbürlük göstərənlərə belə dedilər: “Biz sizə tabe idik. İndi siz, Allahın əzabını, qismən də olsa, bizdən sovuşdura bilərsinizmi?” Onlar dedilər: “Əgər Allah bizi doğru yola yönəltsəydi, biz də sizə doğru yolu göstərərdik. İndi qəm çəksək də, səbir etsək də bizim üçün eynidir. Çünki bizim üçün qurtuluş yeri yoxdur”. (İbrahim surəsi, 21)**

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz. Öz aranızda Allaha şərik saydığınız şəfaətçilərinizi də yanınızda görmürük. Artıq aranızda əlaqə qırılmış, haqqlarında zənnə qapıldığınız məbudlar isə sizdən uzaqlaşmışdır. (Ənam surəsi, 94)**

Adam "xüsusilik" anlayışını səhv qiymətləndirdiyi üçün özünə də səhv insanları nümunə götürər. "Cahiliyyət" cəmiyyətinin anlayışına görə "xüsusilik", pul, şöhrət kimi dəyərlərlə əldə olunar. Həqiqətdə isə, "xüsusilik" yalnız Allaha olan səmimi yaxınlıqla əldə edilər:

**Güc və bəsirət sahibi olan qullarımız İbrahimi, İshaqı və Yəqubu da xatırla. Həqiqətən Biz onları, ancaq (axirətdəki əsl) yurdu düşünüb anan ixlas sahibləri etdik və həqiqətən onlar Bizim Qatımızda seçilmişlərdən və xeyirli olanlardandır. (Sad surəsi, 45-47)**

Din əxlaqının yaşanmadığı cəmiyyət insana yanlış vərdişlər qazandırar. Hər şeydən əvvəl belə bir adam, hər mühitdə müəyyən bir "status" qazanmasının lazım olduğunu düşünər. Əks halda ətrafındakı insanların nə düşünəcəyi zehnini çox məşğul edər. Artıq bir cəmiyyət içində olarkən ağlına təkcə; "hal-hazırda ətrafımdakılar haqqımda nə düşünür?" sualı gələr. Allahın razılığını axtarmağın nə demək olduğunu

belə bilmir. O yalnız insanların razılığını axtarır.

Din əxlaqından uzaq cəmiyyət, ona əks cinslə olan əlaqələri mövzusunda da olduqca yanlış bir təhsil vermişdir. Ən böyük şüarlarından biri; "qadına hörmət və qadın haqqlarının müdafiəsi" olan bu dindən uzaq cəmiyyətdə, qadın əslində tam bir istismar vasitəsi kimi istifadə edilər.

"Qızla çıxıram" məntiqi cəmiyyətdəki sosial problemlərin sanki yeganə açarıymış kimi xalqa zorla mənimsədilərək, "eşqbazlıq", "boy friend", "girl friend" kimi bəzəkli terminlərlə guya modernləşdirilir. Namus, iffət kimi dində diqqətlə əhəmiyyət verilən mövzular, bir qisim media tərəfindən xüsusilə ələ alınaraq, insanların şüuraltına yavaş-yavaş əks istiqamətdə təlqinlər yeridilir. Namuslu qalmaq istəyən insanlar kütlə psixologiyası yaradılaraq ya namussuz olar ya da cəmiyyətdən təcrid olunarlar. Beləliklə də, insanlar üzərində ictimai bir təzyiq meydana gələr. Həmçinin onların, istənilən istiqamətdə hərəkət etmədikləri təqdirdə, sanki özlərindən şübhə edəcəkləri, özlərinə olan inamlarını itirəcəkləri bir ictimaiyyət meydana gətirilər.

Bəhs olunan din əxlaqının yaşanmadığı bəzi cəmiyyətlərdə, bütün bu yanlış ictimai təlqinlərin təsiriylə fahişəliyi qanuni görməyə başlayan gənc, bu dəfə də homoseksuallığın normal qarşılanmasının lazım olduğu, bu pozğunluğun yalnız o insanı maraqlandıracaq bir "seçim" məsələsi olduğu istiqamətində yalan təbliğatla üz-üzə gələr. Homoseksuallıq - tolerantlıq, igidlik, böyük insan olmaq kimi təqdim edilir. Əxlaqsızlıq da aşması lazım olan yeni bir şey kimi qarşısına çıxardılar.

Digər tərəfdən İslamda Allahın qarşılıqlı sevgi və hörməti, hər hansı bir mənfəət güdmədən ən güclü şəkildə yaşamaq üçün qanuni etdiyi evlilik təşkilatı, bu sistemin ümumi fəlsəfəsinin tələb etdiyi şəkildə, qarşılıqlı bir istismar vasitəsi kimi istifadə edilər. Bu təhrif olunmuş sistemdə kişi üçün evləndiyi qadın, həyatının geridə qalan hissəsində özünə baxacaq, paltarını yuyub yeməyini hazırlayacaq və cinsi arzusunu təmin edəcək bir mal mövqeyindədir. "Ər qapma" təlqinləriylə böyüdülən qadın isə ərini, tezliklə uşaq sahibi olaraq özünə bağlayacağı və bu yolla gələcəyini zəmanət altına alacağı, özünə lazım olan həyat standartını təmin edəcək bir vasitə kimi görər. Özünü bunlarla təmin edən kişinin təsiri altına daxil olar və ərini itirməmək üçün hər cür yola müraciət edər. Bu cür bir evlilik əslində bir fahişəylə maddi mənfəət qarşılığında bir neçə saatlığına bağlanılan müqavilənin daha uzun, ömür boyu sürən bir bənzərindən elə də fərqi yoxdur. Hərçənd ki, bunu iki tərəf də açıq şəkildə qəbul etmək istəməz, lakin yeri gəldikdə bunun həyatın bir həqiqəti olduğunu ifadə etməkdən də çəkinməzlər. Məntiq evliliyi etmələriylə öyünənlər vardır. Aydın olduğu kimi, belə bir evlilikdə ortaq paylaşılan şey sevgi deyil, pul, qarşılıqlı mənfəət və cinsəllikdir.

Bir mənfəət əlaqəsi halına çevrilən bu evlilikdə sədaqət, vəfa kimi anlayışların da

heç bir məna ifadə etmədiyi ortadadır. Evliliklərində yuxarıda saydığımız mənfəətləri təmin etdikdən sonra bir-birini aldadan, xəyanət edən yoldaşların saylarının gündən-günə artması bunun normal bir nəticəsidir. Bu xəyanətlərə yoldaşından gizli və ya qarşılıqlı razılaşma ilə davam edənlər də çoxalır. Nəticədə guya müasir evlilik sisteminin özü, dində bəhs edilən evlilik modelindən uzaqlaşdırılıb, cəmiyyətdə müəyyən ətraflar tərəfindən yaradılmağa çalışılan "sərbəst cinsəllik" mühitinə açılan bir qapı halına gətirilmişdir.

Guya müasirlik adı altında önə sürülən və din əxlaqına uyğun olmayan həyat tərzi əslində müstəqil bir dünyagörüşü deyil. İnsanları din əxlaqından tamamilə uzaqlaşdırıb tam əksi bir quruluş hakim etməyə, Allahın qoyduğu hüdudların qorunmasına maneə törətməyə çalışan batil bir sistemdir. Bu batil sistemin öz təsiri altına aldığı mövzular təkcə cinsəllik və evliliklə məhdudlaşmayıb hər cür dəyər mühakiməsinə qədər gedib çıxar. İslam əxlaqının tələbi olan üstün əxlaqi dəyərlərin bir qismini (iffət, namus kimi) tamamilə yox etməyə çalışarkən, bir qismini də öz batil sisteminə uyğunlaşdıraraq, əsl hədəfindən döndərməyə çalışar. Məsələn, Allah yolunda göstərilən dürüstlük, cəsarət, qorxmazlıq, mübarizlik kimi xüsusiyyətlər Quranda təriflənmişdir. Haqsızlıqla, ədalətsizliklə fikri mübarizə aparmaq, yaxşını, doğrunu izah etmək üçün heç bir fədakarlıqdan güzəştə getməmək, cəsarətini Allaha olan etibarından almaq, Allahdan başqasından qorxmayıb lazım gəldikdə canını ortaya qoymaq möminlərin ən əhəmiyyətli xüsusiyyətlərindəndir. Ancaq haqqında danışdığımız batil düşüncə sistemi, cəsarəti; ən ağlasığmaz pozğunluqları sınaqdan keçirmək, dürüstlüyü; əxlaqsızlıqları açıq-aydın və çəkinmədən etmək, mübarizəni də bunları ölənə qədər müdafiə edib, hər kəsə yaymaq kimi olduqca yanlış bir şəkildə xarakterizə etmişlər.

Bu batil sistemdə gənc yaşdakı kişilər hədəf alındıqda, "cəsarət" və "qorxmazlıq" anlayışları, kobudluq, zorbazorluq, sərhəd tanımamaq, insanların haqqlarına təcavüz etmək, fürsətçilik, insanlardan öz mənfəəti üçün istifadə etmək, təcavüzkarlıq, davakarlıq, qürur və təkəbbür kimi xarakter pozuqluqları ilə bir tutulmuş, bu dəyanətsiz və yanlış psixologiya "cavanlıq" adı altında sanki qibtə ediləcək bir hala gətirilməyə çalışılmışdır. Düşüncəsizlik, nadanlıq, söyüşkənlik, boşboğazlıq kimi şeylər "mərdlik" kimi təriflənmişdir.

Allah bunlara bənzər digər mənfi xüsusiyyətləri üzərində daşıyan insanların etibarsızlıqlarını belə bildirir:

**İtaət etmə hər tez-tez and içənə, alçağa, eyibləyib pisləyənə, dedi-qodu yayana, xeyirə maneə olmağa davam edənə, təcavüzkara, hədsiz dərəcədə günahkar, zalım-hörmətsiz və cinayətkara; O mal-dövlət və uşaq sahibi oldu deyə, ayələrimiz ona**

**oxunduqda, "bu keçmişdəkilərin əsatirlərindədir" deyər. (Qələm surəsi, 10-15)**

Bütün bu yanlış məntiqlər nəticəsində "sevgi" anlayışının da mənası dəyişmişdir. Sevgi, qarşıdakı adamın özünə təmin edəcəyi öyünmək dərəcəsi və ya maddi mənfəət ilə mütənasibdir. Bununla yanaşı din əxlaqının yaşanmadığı sistemin digər bir xüsusiyyəti də sevgini müxtəlif görünüş və imiclərə istinad etdirməsidir. Əlbəttə ki, bu əsl sevgi deyil. Bu cahiliyyət mühitində bir çox gənc qız, son model bir avtomobili, dəbdəbəli bir evi, yaxşı bir görünüşü olan insana guya ilk baxışda "aşiq" olar. Hər hansı bir xəstəlik və ya acizlikdən ötrü bu dünyəvi xüsusiyyətlər aradan qalxdıqda isə, eşqi də sona çatar.

Yaşadığı cəmiyyət, meyarlarını və dəyər mühakimələrini, duyğu və düşüncələrinin hüdudlarını müəyyənləşdirərkən, Onu, Allah, din və yaranma məqsədi haqqında heç bir şey düşünməyən bir insan halına gətirmişdir. Çünki, özünü proqramlaşdıran cahiliyyət cəmiyyəti, ona saysız vəzifələr yükləmişdir. Hər şeydən əvvəl cahiliyyət cəmiyyətinin deyimiylə; "gəmisini xilas etməli", sonra da bu cəmiyyətdə müəyyən bir "status" qazanmalıdır. Bunun üçün digər insanlardan istifadə edəcək, lazım gəlsə onları tapdalayacaq, sonra isə bir kənara atacaqdır.

Çünki bu cahil anlayışa görə "həyat bir mübarizədir" və yenə eyni yanlış anlayışa görə; "böyük balıq kiçik balığı udmalıdır". Zəif, düşkün insanların aradan götürülməsi isə sanki bir təbiət qanunu kimi görülər. Başqalarının, özünə zərərləri toxunmadığı müddətcə eyni zehniyyəti daşımalarının da bir zərəri yoxdur, çünki "ona toxunmayan ilanlar istədikləri qədər yaşaya bilərlər".

Lakin işlər gözlədiyi kimi getməyib lazımi müvəffəqiyyəti qazana bilmədiyi, xəyal etdiyi sosial statusu qazana bilmədiyi təqdirdə, eyni dünyagörüşü bu dəfə öz əleyhində işləməyə başlayar. Bir də görər ki, din əxlaqından uzaq yaşayan bu cəmiyyət tərəfindən xor görülən, tapdalanan, alçaldılan və bir kənara atılan insanların cərgəsinə özü də qoşulmuşdur. Daha əvvəl özünü ucaldacağını gözlədiyi qanunlar, indi özünü hədəf almışdır. Ətrafındakı dostları birdən yox olmuş, bədbəxt və təkbaşına qalmışdır.

Bunlar bəs etmirmiş kimi ətrafında özündən böyük balıqların gəzməyə başladığını da görər. Güvənəcək insan, yapışacaq budaq və bir yardım əli axtarsa da tapa bilməz. Quranda dindən uzaq insanların çarəsiz qaldıqlarında Allaha üz tutduqları belə xəbər verilir:

**Sizi quruda və dənizdə hərəkət etdirən Odur. Siz gəmilərdə olduğunuz, gəmilər də içindəkiləri xoş bir küləklə apardığı və onlar buna sevindikləri zaman birdən fırtına qopar və dalğalar hər yandan onların üstünə gələr. Dalğaların onları bürüyəcəyini yəqin**

**etdikdə isə Allaha – dini məhz Ona aid edərək yalvarıb deyərlər: "Əgər bizi bundan xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq". (Yunis surəsi, 22)**

Ancaq bu insan, Allah duasına cavab verib də özünü içində olduğu çətinlikdən xilas etdikdə, sanki daha əvvəl Allaha yalvaran özü deyilmiş kimi əvvəlki zehniyyətindən imtina etməz:

**Allah onları xilas etdikdə isə dərhal haqsız olaraq yer üzündə azğınlıq edərlər. Ey insanlar! Azğınlığınız yalnız sizin öz əleyhinizədir. Bunlar dünya həyatının keçici zövqləridir. Sonra isə dönüşünüz Bizə olacaq, Biz də nə etdikləriniz barədə sizə xəbər verəcəyik. (Yunis surəsi, 23)**

Bu cür insanların yanlış zehniyyətinə görə; "hər şeyi metafizik olaraq şərh etməmək, real olmaq" lazımdır. Əhəmiyyətli bir təcrübədən keçmiş və öz səyiylə xilas olmuşdur. "Həyatın həqiqətlərini" öyrənmişdir. Pis günlər keçirmişdir, lakin artıq bunlar geridə qalmışdır. O indi daha təcrübəli, daha yetkindir. Şübhəsiz ki, bu ağılsız və məntiqsiz bir yanaşmadır. İnkarçı insanların çirkin psixologiyası da Quranda xəbər verilmişdir:

**Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan onu geri alsaq, o, naümid və nankor olar.Əgər başına gələn müsibətdən sonra, ona firavanlıq daddırsaq: "Bəlalar məndən sovuşdu!" deyər və sevinib lovğalıq edər. (Hud surəsi, 9-10)**

Belə nankorluq edən insanın, həyatının geridə qalan hissəsində də başına buna bənzər bəlalar gəlir. Bəlkə Allah (tövbə edib, Özünə yalvardığı təqdirdə) hər dəfə bu adamın duasına cavab verəcək, lakin o isə, özünə verilən neməti lazım olduğu kimi qiymətləndirməyəcək, bu ağılsızlığından ötrü həm dünyada, həm də axirətdə çətinlik və acı dolu bir həyat yaşayacaq.

İnkarından dönməyən bu adam ölümlə üz-üzə gəldiyi vaxt, artıq tövbə etmə imkanı olmayacaq, özünə yeni bir fürsət verilməyəcək. Çünki o həyatı boyu necə bir insan olduğunu göstərmişdir. Allah bu insanın həqiqətlə üzləşdiyi vaxt keçirəcəyi peşmanlıq hissini Quranın bir çox ayəsində xəbər vermişdir:

**Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq" dediklərini görəydin! Xeyr! Əvvəllər gizlətdikləri şeylər onlara aşkar oldu. Əgər onlar geri qaytarılsaydılar, yenə də özlərinə qadağan olunmuş şeylərə qayıdardılar. Şübhəsiz ki, onlar yalançıdırlar. (Ənam surəsi, 27-28)**

Buna görədir ki, ağıl və vicdan sahibi kimsələrin dünyada olarkən bütün bu səhv rəftarlarını düzəltmələri, əxlaqlarını tamamilə dəyişdirib gözəlləşdirmələri böyük əhəmiyyət daşıyır. Ayələrdə belə buyurulur:

**Allah kimi azğınlığa salsa, bundan sonra onun heç bir himayəçisi olmaz. Sən zalımları əzabı gördükləri zaman: "Qayıtmağa bir yol yoxdurmu?" deyən görəcəksən. Cəhənnəm qarşısına gətirildikləri zaman sən onların zəlillikdən başlarını aşağı salıb gözucu gizlin-gizlin baxdıqlarını görəcəksən. İman gətirənlər deyəcəklər: "Şübhəsiz ki, ziyana uğrayanlar Qiyamət günü həm özlərini, həm də qohumlarını (tərəfdarlarını) ziyana uğratmışdırlar". Həqiqətən, zalımlar daimi əzab içində olacaqlar. Onlara Allahdan başqa kömək edəcək dostlar olmayacaqdır. Allah kimi azğınlığa salsa, onun üçün heç bir qurtuluş yolu olmaz. Allah tərəfindən qarşısıalınmaz gün gəlməmişdən əvvəl Rəbbinizin çağırışına cavab verin! O gün sizin üçün heç bir sığınacaq olmayacaq və siz günahlarınızı inkar edə bilməyəcəksiniz. (Şura surəsi, 44-47)**

# DİN ƏXLAQINDAN UZAQ CƏMİYYƏTDƏN QURAN ƏXLAQINA KEÇİD

*Ancaq kim haqsızlıq edib sonra da pisliyin əvəzinə yaxşılıq edərsə, bilsin ki, Mən Bağışlayanam, Rəhmliyəm! (Nəml surəsi, 11)*

*...Sən kitab nədir, iman nədir bilmirdin. Lakin Biz onu, qullarımızdan istədiyimizi doğru yola yönəltmək üçün, bir nur etdik... (Şura surəsi, 52)*

*Onlar gözəl kəlamlar öyrənməyə nail olmuş və Tərifəlayiq Allahın yoluna yönəldilmişlər. (Həcc surəsi, 24)*

Hər insanın yaşadığı müddətcə "cahiliyyət" cəmiyyətinin batil təlqinlərindən xilas olub, imana yönəlmə imkanı vardır. Peyğəmbərimiz (s.ə.v) də bir hədisində Qurana və sünnəyə tabe olmaqla əlaqədar olaraq belə buyurmuşdur:

*Şübhəsiz ki, ən gözəl söz Allahın kitabıdır. Ən gözəl yol da Məhəmməd (əleyhissalatu vəssəlləm)in yoludur. İşin ən pisi də dinə zidd olaraq sonradan uydurulan şeylərdir. (3. Buhârî, I'tisam 2, Edeb 70)*

Uca Rəbbimiz Allah hər cəmiyyətin xəbərdar ediləcəyini bir ayəsində belə bildirmişdir:

**Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Heç bir günahkar başqasının günahını daşımaz. Biz elçi göndərməmiş heç kəsə əzab vermərik. (İsra surəsi, 15)**

Dəvət olunan insanlar müxtəlif cavablar verərlər. Quranda bu cavablar ən incə nöqtəsinə qədər izah edilər. Bu cavabların ən gözəli isə, həqiqi bir möminin verəcəyi; "eşitdik və itaət etdik" ifadəsidir. Ayədə belə bildirilir:

**Aralarında hökm vermək üçün Allahın və Onun Elçisinin yanına çağırıldıqda möminlərin sözü ancaq: “Eşidirik və itaət edirik!” deməleridir. Nicat tapanlar da məhz onlardır. (Nur surəsi, 51)**

Quranda din əxlaqına dəvət edildiyi vaxt təkkəbbürlənərək üsyan edənlərdən, hətta düşmənlik bəsləyənlərdən bəhs edilir:

**Həqiqəti oyana-buyana çevirən, günaha düşkün hər kəsin vay halına! O, Allahın ona oxunan ayələrini eşidir və sonra da, sanki onları eşitməmiş kimi təkəbbür göstərərək inadkarlıq edir. Beləsini ağrılı-acılı bir əzabla müjdələ. O, ayələrimizdən bir şey öyrəndiyi zaman ona lağ edir. Məhz beləlıəri üçün alçaldıcı bir əzab vardır. (Casiyə surəsi, 7-9)**

Bəzilərinin verdikləri reaksiya isə daha fərqlidir. Vicdanı ona doğrunu göstərər, amma içindəki digər bir səs ona daim cahiliyyət cəmiyyətinin batil sistemindən imtina etməməsini təlqin edər. Bu vicdanına zidd təlqinləri də bəzi müdafiə mexanizmlərindən istifadə edərək öz aləmində qanuniləşdirməyə çalışar. Həqiqətdən qaçmaq üçün müxtəlif yolları sınayar. "Onlar mənə həqiqəti söyləyirlər, amma mən iradəsizliyim və ya qürurumdan ötrü tətbiq etmirəm" deyə, içində olduğu vəziyyəti açıq şəkildə ifadə edə bilmədiyi üçün öz zəif ağlına görə ya özünə izah edilən həqiqətlər ya da bunları izah edən möminlər barəsində araşdırmalar aparar.

Ancaq bunu da mütləq söyləmək lazımdır ki, bu səhv yanaşmalar tarix boyu bütün cahiliyyət cəmiyyətlərində eyni şəkildə müşahidə olunmuşdur. Hətta belə ki, tarix boyu bütün cəmiyyətlərdə haqq dini təbliğ edən elçilərə və saleh möminlərə eyni böhtanlar atılmış və bənzər ittihamlara məruz qalmışlar. Ayələrdə belə bildirilmişdir:

**Qövmünün kafir zadəganları dedilər: “O da sizin kimi sadəcə bir insandır. Sizə böyüklük etmək istəyir. Əgər Allah elçi göndərmək istəsəydi, mələklər göndərərdi. Biz bunu ulu babalarımızdan eşitməmişik. (Muminun surəsi, 24)**

**...Doğrudanmı atalarımızın ibadət etdiyinə ibadət etməyi bizə qadağan edirsən? Doğrusu, biz sənin bizləri dəvət etdiyin əqidə barəsində şübhə doğuran şəkk içindəyik”. (Hud surəsi, 62)**

Belə bir insan birdən-birə, həmin ana qədər çöldə görüb də qınadığı yanlış və təhrif olunmuş din anlayışının qızğın müdafiəçisinə çevrilər. "Hamı səhv edir də, təkcə sizmi doğru yoldasınız" kimi qəlibləşmiş məntiqlər irəli sürər. Ancaq bilməlidir ki, bu məntiq tamamilə Qurandan kənardır. Çünki Quranda bildirildiyinə görə, doğru, onu

qəbul edən insanların sayı ilə müəyyənləşdirilməz. Onsuz da "insanların əksəriyyəti"nin səhv yolda olacaqları Quranda bildirilmişdir:

**Əlif. Ləm. Mim. Ra. Bunlar Kitabın ayələridir. Rəbbindən sənə nazil edilən həqiqətdir. Ancaq insanların əksəriyyəti iman etməz. (Rad surəsi, 1)**

Tarix boyu bütün peyğəmbərlər vəzifələrini əskiksiz şəkildə tamamlamış və Allahın özlərinə bildirdiyi din əxlaqını insanlara təbliğ etmişdirlər. Allahın yerinə yetirmələrini istədiyi məsuliyyəti tam olaraq yerinə yetirmiş, mükafatlarını da Allah Qatında almışlar.

# İnkarçıların irəli sürdükləri bəhanələr etibarsızdır

Cahiliyyət əxlaqının təsirindən xilas olmaq istəməyən bir adam haqq din özünə təbliğ edildiyi vaxt, səmimi olaraq izah edilənləri dinləmək və vicdanının səsinə qulaq asmaq əvəzinə öz ağlınca izah edilənlərdə müəyyən səhvlər tapmağa çalışar. Heç bir şey bilmədiyi halda, öz başından müxtəlif nümunələr verərək həqiqətləri eşitməmək üçün qulaqlarını tıxayar. Allahın Quranda "məsəl" olaraq qeyd etdiyi inkarçılara aid bu nümunələr, heç bir əsası olmayan yanlış şərhlərdir:

**Gör sənə aid hansı məsəlləri çəkdilər! Onlar haqq yoldan azdılar və bir daha o yolu tapa bilməyəcəklər!. (Furqan surəsi, 9)**

Bu məsəllərin ən bilinənlərinin sayı 4-5-i keçməz. Məsələn, "donuz əti niyə haramdır?" tez-tez rast gəlinilən suallardan biridir. Donuzun özü murdar bir heyvandır və trixin xəstəliyinin yaranmasına səbəb olar. Bu sualı verən kəslər də ümumiyyətlə donuz ətinin insan sağlamlığına nə qədər zərərli olduğunu bilirlər. Onsuz da səmimi surətdə öyrənmək məqsədiylə bu sualı verməzlər. Öz aləmlərində möminlərə çətinlik çıxartmağa çalışarlar. Ancaq bu insanlar müvəffəqiyyət qazana bilməzlər. Bu həqiqət Quranda belə bildirilir:

**Ayələrimizi qüvvədən salmağa cəhd göstərənlər isə Cəhənnəm sakinləridirlər.**

**(Həcc surəsi, 51)**

**Onlar, insanları Allah yolundan sapdıranlar, onda əyrilik axtaranlar və axirəti inkar edənlərdir. (Hud surəsi, 19)**

Bu cür insanlar, göstərdikləri bir misalın etibarsızlığı özlərinə izah edilsə belə, (məqsədləri səmimi surətdə məlumatlanmaq, şübhələrini aradan qaldırmaq olmadığı üçün) onun cavabını alan kimi yeni misallar göstərərlər. Verilən cavablar və nəsihətlər üzərində dürüst şəkildə düşündüyü təqdirdə, bunlar özünə məqbul, məntiqli gələcəkdir. Amma cahiliyyət cəmiyyətinin təlqinləriylə düşündüyü üçün həqiqətləri qavraya bilməz. Bununla da Allahın Quranda bildirdiyi kimi; "qulaqlarını tıxayar" və o mühitdən bir qaçış yolu axtarmağa başlayar. Quranda cahiliyyət cəmiyyətinin bu çirkin rəftarı belə bildirilmişdir:

**Sən onları bağışlayasan deyə mən hər dəfə onları dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, küfrlərində israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər. (Nuh surəsi, 7)**

Öyüd-nəsihətdən qaçan bu cür insanların vəziyyəti vəhşi uzunqulaqlara bənzədilər:

**Onlara nə olub ki, nəsihətdən üz döndərirlər? Sanki ürküdülmüş vəhşi uzunqulaqlardır ki, aslandan qaçırlar. (Muddəssir surəsi, 49-51)**

İslama dəvət edildiyi halda, bu cür sadə rəftarlarla özünü haqlı çıxartmağa çalışan adamın "olduqca zalım bir insan" olduğunu isə yenə Qurandan öyrənirik:

**İslama dəvət edildiyi halda, Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər? Allah zalım adamları doğru yola yönəltməz. (Saff surəsi, 7)**

Haqında danışdığımız inkarçı, hamının özü kimi olduğunu zənn etdiyindən, möminlərin sırf Allah rizasına əsaslanan birlik və həmrəyliyinə də "cahiliyyət"

standartlarına görə bir izah tapmağa çalışar. "Bu işin içində bir iş var", "bu dövrdə heç kim heç kimə qara qaşına, qara gözünə görə gəlməz" kimi cahiliyyət cəmiyyətinin bütün çirkinliklərini ifadə edən məntiqsiz açıqlamalarla öz ağlınca hiyləgərliyini ön plana çıxartmağı sınayar. Bəzən də yuxarıdan aşağı baxan lağlağı rəftarlar nümayiş etdirərək çirkin əxlaqını göstərər. Bu mövzuda ən böyük dəstəyi yenə, özüylə eyni qaranlıq ruh halına sahib yaxın ətrafından alar. Quranda bu cür bir adamın möminlərə olan münasibəti və insanları doğru yoldan azdıran yaxın ətrafı ilə olan əlaqəsi belə ifadə edilir:

**Onlar iman edənlərlə rastlaşdıqda: "Biz iman gətirdik!" deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz onlara ancaq istehza edirik!" deyirlər. Allah da onlara istehza edər və azğınlıqlarını o qədər artırar ki, sərgərdan gəzərlər. (Bəqərə surəsi, 14-15)**

Əslində Qurana qarşı misal gətirmə, möminlərə qarşı səmimiyyətsiz, qərəzli və pis niyyətli yaxınlaşma tərzi, lağlağı rəftarlar nümayiş etdirmə yalnız bu kimi kəslərə məxsus davranış pozuqluqları deyil. Özündən xeyli əvvəlki dövrlərdə yaşamış və din əxlaqına qarşı çıxmış insanlar da əsrlərdir ki, eyni ağılsız üsullara müraciət etmişlər. Dövrlərin dəyişməsinə baxmayaraq zehniyyət, tətbiq edilən üsul, verilən misallar eynilə davam edir. Həqiqətləri bilə-bilə ört-basdır etmək üçün bu üsula müraciət edənlərin zehniyyəti tarix boyu heç dəyişmədən bu günə qədər davam etmişdir:

**Xeyr, onlar da əvvəlki ümmətlərin dedikləri kimi dedilər. (Muminun surəsi, 81)**

Bunlarla yanaşı bir qrup da dini öz mənfəətləri istiqamətində təhrif etməyə çalışar. Dini bu şəkildə təhrif etməyə çalışan kimsələr haqqında Quranda bu hökm yer alır:

**Sizə nə olub, necə hökm verirsiniz?**

**Yoxsa sizin elə bir kitabınız vardır ki, onda bəyəndiyiniz hər bir şeyin sizin olacağı yazılmışdır?**

**Yaxud Bizimlə Qiyamət gününədək əhd bağlamısınız ki, istədiyiniz hər şey sizin olacaqdır?. (Qələm surəsi, 36-39)**

Qurana tabe olan səmimi bir mömin gördüyü vaxt, yaşadığı günahkarlıq və alçaqlıq duyğusunu gizlətmək üçün özünü təmizə çıxartmağa çalışmaq da, cahiliyyət cəmiyyətlərində tez-tez müraciət olunan üsullardandır. Bu cür insanlar bunu edərkən adətən həmişə eyni qəliblərdən istifadə edərlər. "Əlhamdülillah biz də müsəlmanıq", "mənim atam hacıdır", "nənəm də başını örtərdi", "ailəm çox dindardır", "mən onsuz da bayram namazlarını daim qılıram" kimi sözlərlə bu ruh hallarını ifadə edərlər. Özlərinə din mövzusunda öyüd verilməsindən, xəbərdarlıq edilməsindən, ağıl verilməsindən, doğru olanın tövsiyə edilməsindən xoşlanmazlar.

Bir də; "mən hamınızdan daha dindaram, daha namusluyam, kimin kimdən daha üstün olduğunu təkcə Allah bilər" kimi ifadələrlə özünü üstün görməyə çalışanlar vardır. Əlbəttə ki, kimin üstün olduğunu ən doğru Allah bilər. Lakin Allah üstünlüyün yalnız Özünə bağlı olmaqla, Quranda ifadə edilən mömin xüsusiyyətlərini daşımaqla təmin ediləcəyini də açıq şəkildə bildirmişdir. Quranda bildirilən meyarlar çox açıq və aydın olduğundan, Qurandan xəbəri belə olmayan bir insanın, saxtakarlıqla üstünlük eyhamları etməsinin onu aciz və sadə bir insan mövqeyinə saldığı aydındır.

Bu cür bir rəftar nümayiş etdirən adamın ən böyük səhvlərindən biri də, möminləri aldatdığını zənn etməsidir. Möminlər, Allahın verdiyi qavrama gücü və Quranda bildirdiyi meyarlar sayəsində, qarşı tərəfin ruh halını çox yaxşı şəkildə müəyyənləşdirmə gücünə sahibdirlər. Üstəlik, **"kökslərdə olanı bilən"** (Ali İmran surəsi, 119) Allah, onsuz da o adamı özündən də yaxşı tanıyır. Haqqında danışılan insan, etdiyi hiyləgərliklərlə digər insanları və öz vicdanını aldatsa belə, Allah Qatında bəhanələrinin heç bir etibarlılığı olmayacaq.

# DÜNYA VƏ AXİRƏT HƏYATI

*Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır.*

*De: "Sizə bunlardan daha yaxşısı barədə xəbər verimmi? Allahdan qorxanlar üçün Rəbbi yanında ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları, pak zövcələr və Allahın rizası vardır". Allah qullarını görür (Ali İmran surəsi, 14-15)*

Əslində indiyə qədər izah edilən bütün pozulmalar, insanın axirət həqiqətini qavraya bilməməsindən qaynaqlanır. Quranda bildirildiyi kimi, Allah dünyanı insanlar üçün müvəqqəti bir yurd kimi yaratmışdır. Bu möminlərin imtahan olunaraq mənfi xüsusiyyətlərindən xilas olması və cənnətə layiq bir xarakter qazanması, inkarçıların da mənfi xüsusiyyətlərinin ortaya çıxması üçündür.

Amma "cahiliyyət" cəmiyyətinin ən böyük xüsusiyyətlərindən biri bu həqiqəti görməzlikdən gəlmələri və heç yox olmayacaqmış kimi dünya həyatına bağlanmalarıdır. Bu azğın zehniyyət "cahiliyyət" əxlaqı meydana gətirər. "İnsan dünyaya bir dəfə gəlir" cümləsiylə yekunlaşdırılan bu batil dünyagörüşünə görə ölüm bir sondur. Elə isə hələ də həyatdaykən "həyatın dadı" çıxarılmalıdır. Bunun üçün də hər cür üsul sınaqdan keçirilə bilər. Çünki "cahiliyyət" cəmiyyətində insana mənfəət təmin edəcək hər şey qanuni elan edilmişdir. Halbuki, həqiqətlər heç də belə deyil.

Cahiliyyət cəmiyyətinin nümayəndələri az da olsa ağıllarından istifadə etməzlər. Ölümün hər kəs üçün qaçınılmaz bir son olduğu bəllidir. Amma yenə də bu mövzunu mümkün qədər gündəmdən kənarda saxlayarlar. Ölümdən bəhs etmək "xeyir söyləməzlik" kimi xarakterizə olunar. Bir çox insan sanki heç ölməyəcəkmiş kimi bir zehniyyətlə yaşayar. Halbuki, belə edənlərin çox böyük bir hissəsi Allahın varlığını qəbul edir. Buna görə də axirətin də varlığını qəbul etdiklərini iddia edərlər. Amma hadisəyə bir qədər diqqətlə yaxınlaşıldığında ortada həqiqi bir axirət inancı olmadığı aydın olar. Qeyd olunan psixologiya ayələrdə belə vurğulanar:

**Əsl həqiqətdə, bunlar ötəri dünyanı sevərək qarşılarındakı ağır günü görməməzliyə vururlar. (İnsan surəsi, 27)**

**...Onlardan hər biri min il ömür sürməsini istər. Halbuki uzun ömür belə onu əzabdan uzaqlaşdıra bilməz. Allah onların nə etdiklərini görür. (Bəqərə surəsi, 96)**

**Diqqətli olun; doğrudan da, onlar öz Rəbbi ilə qarşılaşacaqlarına şübhə edirlər. Diqqətli olun; həqiqətən, O, hər şeyi əhatə edir. (Fussilət surəsi, 54)**

Axirəti düşünməməyin səbəb olduğu sonsuzadək yaşamaq istəyi, "cahiliyyət" mədəniyyətində çox böyük bir təsirə malikdir. Əksər insan öldükdən sonra dünyada "adını davam etdirəcək" bir "əsər" qoyub getmək istəyir. Bunun özünə heç bir faydası olmayacaq, amma məqsədi; "unudulmamaq" kimi qəribə bir psixologiyadan ötrü geridə böyük bir sərvət və ya bir əsər qoyub getməkdir. Əlbəttə ki, bir adamın insanlara faydası olacaq gözəl əsərlər qoyub getməsi yaxşı bir davranışdır, ancaq burada tənqid olunan xüsus bunun tam fərqli bir məqsədə xidmət etməsi və hərisliklə edilməsidir. Quranda din əxlaqından uzaq insanların sahib olduqları bu yanlış məntiq də belə izah edilir:

**O vaxt qardaşları Hud onlara dedi: “Məgər qorxmursunuz? Həqiqətən, mən sizin üçün göndərilmiş etibarlı bir elçiyəm. Artıq Allahdan qorxun və mənə itaət edin! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. Siz hər uca təpədə bir abidə inşa edib (faydasız bir şeylə məşğul olaraq) əylənirsinizmi?. Əbədi yaşamaq ümidiylə sənət əsərləri mi inşa edirsiniz? (Şuəra surəsi, 124-129)**

**O şəxs ki, mal-dövlət toplayıb onu təkrar-təkrar sayır və elə güman edir ki, var-dövləti onu əbədi saxlayacaqdır. (Hüməzə surəsi, 2-3)**

Cahiliyyət cəmiyyətində olduqca azğın bir axirət inancı da vardır. Cahiliyyət cəmiyyətinin nümayəndələri axirətə qəti bir məlumatla inanmazlar. Ən inanclı kimi görünənləri də, "ya varsa" şəklindəki çirkin məntiqdən kənara çıxa bilməzlər. Üstəlik, axirət haqqında bu kimi cahil məntiqlər yürüdənlər, özlərinin cənnətlik olduqlarına da adları kimi əmindirlər. Kəhf surəsindəki bir hekayədə izah edilən adam, "cahiliyyət" cəmiyyətinin ümumi dünyagörüşünü simvolizə edər:

**Onlara iki kişinin əhvalatını misal çək. Bunların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq.**

**Hər iki bağ öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir çay axıtdıq.**

**Onun başqa məhsul verən torpaq sahəsi də var idi. O öz yoldaşı ilə söhbət edərkən ona: "Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!" dedi.**

**O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm.**

**Qiyamət saatının gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!"**

**Onunla söhbət edən yoldaşı isə dedi: "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni normal (əli ayağı tutan, gücü-qüvvəti yerində olan) bir insan qiyafəsinə salmış Allahın varlığını mı inkar etdin?**

**Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram!**

**Bağına girdiyin zaman: "Maşallah. Qüvvət yalnız Allaha məxsusdur!" deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa,**

**Ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin, sənin bağına isə göydən bir bəla göndərsin və o, hamar bir yerə dönsün.**

**Yaxud suyu çəkilib getsin və bir də onu axtarıb tapa bilməyəsən!". Beləcə, onun bağının məhsulu bir anda məhv edildi. O, bağını belə görüb ora qoyduğu xərcə görə peşmançılıq çəkməyə və əllərini bir-birinə vurmağa başladı. Bağın talvarları belə darmadağın olub yerə yıxılmışdı. O dedi: "Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!".**

**Allahdan başqa ona yardım edə biləcək kəslər yox idi və o da öz-özünə kömək edə bilməzdi.**

**Belə hallarda kömək etmək ancaq Haqq olan Allaha məxsusdur. Ən yaxşı mükafat verən və ən gözəl aqibət nəsib edən Odur. (Kəhf surəsi, 32-44)**

Digər bir surədə; "ya varsa" yanlış məntiqini irəli sürən, sonra da özünü cənnətlik elan edən bu cahil zehniyyət belə izah edilir:

**Başına gələn bəladan sonra Özümüzdən ona bir mərhəmət daddırsaq, mütləq deyər: "Bu mənim haqqımdır və Mən Qiyamət saatının gələcəyini güman etmirəm.**

**Rəbbimə qaytarılsam belə, Onun yanında mənim üçün ən gözəl nemət hazırlanar!". Biz kafirlərə nə etdiklərini mütləq xəbər verəcək və onlara hökmən ağır bir əzab daddıracağıq. (Fussilət Surəsi, 50)**

Diqqət yetirilsə yuxarıdakı ayədə Allahın, bunu söyləyən adamın inkarçı olduğunu xəbər verdiyi görülər.

Allahın varlığını qəbul edən insan üçün axirətin varlığından əmin olmamaq qeyri-mümkündür. İnsanı Allah yaradar, bəsləyər, yaşadar, ona saysız nemət verib böyük bir şəfqət və mərhəmət göstərər. Həm də, əlbəttə ki, bütün bunlar üçün şükr edib yaxşı əməllər edənlərlə nankorluq edənlər bir tutulmayacaqdır. Çünki Allah qullarına qarşı sonsuz şəfqət və mərhəmət sahibi olandır.

**"Hər kəs ölümü dadacaqdır"** (Ənbiya surəsi, 35), ayəsinin tələbinə görə hər kəs qısa bir müddət qaldığı bu dünyanı mütləq tərk edər. Allah insanı müəyyən bir müddət yaşatdıqdan sonra öldürər. Bu müddət; **"öyüd ala biləcək kimsənin öyüd ala biləcəyi qədər ömür vermədikmi?"** (Fatir surəsi, 37) ayəsiylə təsvir edilir.

İnsan ölümlə birlikdə yox olmağa deyil, əksinə əsl həyatına addım atar. Onsuz da bu dünyanın müvəqqəti olduğu və əsl həyatın bir nümunəsi kimi yaradıldığı, düşünən insan üçün açıq bir həqiqətdir. Dünyadakı bütün gözəlliklər müvəqqətidir və bununla yanaşı bir çox qüsurla birlikdə yaradılmışdır. Dünyanın ən gözəl insanı, bu gözəlliyini ən çox bir neçə on il qoruya bilər. Yaşlandıqca dərisi qırışmağa, bədəni deformasiyaya uğramağa başlayar. Yaşlanmasına da ehtiyac yoxdur, ən böyük çirkinliklər ən gözəl insanın tam yanındadır. İnsanın bədəninə onun acizliyini göstərəcək çox qəribə mexanizmlər yerləşdirilmişdir. Bir neçə gün yuyunmasa bədənində pis qoxular meydana gəlməyə başlayar. Nə qədər cəlbedici və füsunkar olsa da ən böyük acizliyi yaşayacaq, hər kəs kimi tualetə gedəcək.

İnsanların böyük bir hissəsi bunlara alışdıqları üçün, adətən bu acizliklərdə bir "hikmət" olduğunu görə bilməzlər. Halbuki, Uca Allah qüsursuz şəkildə yaradandır. Allah istəsə insan heç bir şəkildə xəstələnməz, heç bir şəkildə ondan pis iy yayılmaz və ya heç vaxt gücsüz olmaz. Bütün bu çatışmazlıqlar insana, Uca Allaha möhtac olduğunu xatırlatmaq üçündür. Bir də yaşadığı dünya həyatının mükəmməl olmadığını, həqiqi həyatın xüsusi olaraq çatışmazlıqlarla birlikdə yaradılmış pis bir bənzəri olduğunu hiss etdirmək üçün. Dünya və axirətlə əlaqədar bir Quran ayəsi mövzunu ən gözəl şəkildə izah edir:

**Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında**

**öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. Kimisini axirətdə şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. (Hədid surəsi, 20)**

Yaxşı, bəs onda əsl həyat necədir? Bu həyatın möminlər üçün cənnət, inkarçılar üçün də cəhənnəm kimi iki yerə ayrıldığını hamı bilir. Amma "cahiliyyət" cəmiyyəti cənnət və cəhənnəm mövzusunda da, həqiqətlə uyğunlaşmayan bir çox dünyagörüşü və xurafat meydana gətirmişdir. Bu səbəblə də axirətdəki mühiti ancaq Quran ayələrindən lazım olduğu kimi öyrənərik.

# MÖMİNLƏRİN ƏSL YURDU: CƏNNƏT

*Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi göyün və yerin genişliyi qədər olan, Allaha və Onun Elçisinə iman gətirənlər üçün hazırlanmış Cənnətə qovuşmaq üçün səy göstərib bir-birinizlə yarışın. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah böyük lütf sahibidir. (Hədid surəsi, 21)*

*Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik hüzurumuzda bundan da artığı vardır. (Qaf surəsi, 35)*

Möminlərin əbədi yurdu cənnətdir. Allah, dünyada gördükləri işlərin qarşılığını onları cənnətində qonaq qəbul edərək verəcək. Cənnət, insan ruhunun istədiyi hər şeyi, hətta ayələrin bildirdiyinə görə daha da çoxunu özündə saxlayan gözəlliklər məkanıdır. Allahın Rəhim adının ən gözəl formalarıyla ortaya çıxdığı əbədi bir yurddur.

Peyğəmbərimiz (s.ə.v) də bir hədisində dünya həyatının yanında, cənnətin insan üçün necə böyük bir nemət olduğunu belə bir nümunə ilə açıqlamışdır:

*Cənnətdə yay qədər bir yer, Günəşin üstündə doğulduğu və ya batdığı şeydən (dünyadan) daha xeyirlidir. [Kütüb-i Sitte-14, səh.429/2]*

İnsan bu mövzuda heç bir məlumatı olmasa belə, dünya həyatının çatışmazlıqlarını və nəfsindəki nemətlərə qarşı duyduğu həsrəti azacıq düşündüyündə, bu həqiqəti asanlıqla anlaya biləcək. Çünki Allah, dünya həyatının əsl həyat olmadığının başa düşülməsi məqsədiylə insan üçün bir çox dəlil yaradır. İnsan demək olar ki, hər gün başda öz bədənində olmaqla, dünya həyatının əskiklikləriylə qarşılaşır. Yalnız həyatda qala bilmək üçün belə, çox sayda tədbir görmək məcburiyyətindədir. Azacıq biganə yanaşdığında xəstəliklərlə, yaralanma hallarıyla və hətta ölümlə üz-üzə gələ bilir. Ömrünün böyük hissəsini bədəninin acizliklərini aradan qaldırmağa ayırar. Ancaq bütün bu səyə baxmayaraq, illər keçdikcə bədəni xeyli korlanar. İnsan bədəni kimi, ən gözəl çiçəklər belə zamanla solar; ən gözəl rəngli, ən xoş qoxulu güllər, lalələr, bənövşələr çürüyüb xarab olar. Ən ləzzətli və ən təzə görünüşlü meyvələr, tərəvəzlər qısa müddət ərzində çürüyüb yeyilə bilməyəcək hala gələr. Ən ehtişamlı evlər, əşyalar, avtomobillər zamanla köhnələr, sıradan çıxar.

Bu sayılanlar insanın dünya həyatında üzləşdiyi milyonlarla əskiklikdən sadəcə bir neçəsidir. Lakin sadəcə bunlar belə, insanın həsrət duyacağı əsl yerin dünya olmadığını

anlaması üçün kifayətdir.

İnsan bütün bu çatışmazlıqlar qarşısında gizlində, daim mükəmməlliyi, bu çatışmazlıqların heç birinin olmadığı bir dünyada yaşamağı istəyər. Xəstəliklərin, ölümlərin, müharibələrin, döyüşlərin, pisliklərin, çatışmazlıqların, çətinliklərin heç yaşanmadığı bir dünyanın həsrətini çəkər. Bu məqsədlə də, heç bir problemin olmadığı xoşbəxt bir həyatı dünya şərtlərində meydana gətirə bilməyin yollarını axtarar. Halbuki, Allah, Quranda insanlara bu həyatı ancaq cənnətdə yaşaya biləcəklərini bildirmişdir. İnsanın bunun üçün etməsi lazım olan şey isə, olduqca asandır: Rəbbimizin rizasına uyğun bir ömür sürmək. Bundan sonra da (Allahın izniylə) öz istəklərindən və xəyal edə bildiyindən xeyli üstün, qüsursuz və sonsuz xoşbəxtliklə dolu bir həyatla qarşılaşacaq.

Dünya üzərindəki hər şey Allahın yaratmasıyla mövcud olmuşdur və Allah cənnətində də bunlardan istədiklərini yaradacaq. Allahın istəyi ilə cənnətdəki "köşklər" dünyanın ən "ultra-müasir" villasından olduqca üstün olacaq. Gözəllikləri təriflənən cənnət geyimləri, ən məşhur fransız və ya italyan moda evlərinkilərdən olduqca keyfiyyətli və estetik görünəcək. "Huri"lər də, mütləq ərəb hərəmxanalarından çıxmış qadınlar kimi deyil, dünyanın ən gözəl qadınlarından daha cazibədar olaraq yaradılacaq.

Allah cənnətdəki mühiti izah edərkən hər dövrün insanlarının başa düşə biləcəyi gözəllikləri sadalayır. Bununla yanaşı adətən bilinməyən bir cənnət xüsusiyyəti də vardır. Bu, Allahın; **"orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey vardır. Siz orada əbədi qalacaqsınız"** (Zuxruf surəsi, 71) ayəsiylə bildirdiyi həqiqətdir. Ayə, cənnətdə insanın istədiyi hər şeyin olduğunu xəbər verir. Başqa bir ayədə isə; **"orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik hüzurumuzda bundan da artığı vardır"** (Qaf surəsi, 35) ifadəsi yer alır. Bu ayələrdən insanı sevindirən, güldürən və əyləndirən şeylərin (dünyadakılara bənzər və ya fərqli formalarda) cənnətdə mövcud olacağı, insanın ağlına gələ biləcək bütün arzularının artıqlamasıyla təmin ediləcəyi aydın olur.

Cənnətdə mömin inanılmaz şəkildə qonaq qəbul ediləcək. Rəhman surəsində cənnətlə əlaqədar olaraq bunlar xəbər verilir:

**Rəbbinin məqamından qorxanları iki Cənnət gözləyir. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Növbənöv "incəliklərə və gözəlliklərə" (və ya hər növdəki sıx ağaclara) sahibdirlər. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**İkisində də iki axar bulaq vardır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**İkisində də hər meyvədən qoşa-qoşa vardır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Onlar orada astarları atlazdan olan döşəklərə dirsəklənəcəklər. Hər iki cənnətin meyvələri onlara yaxın olacaqdır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Orada gözlərini təkcə öz ərlərinə dikmiş, onlardan əvvəl özlərinə heç bir insan və cin toxunmamış qadınlar vardır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Onlar sanki yaqut və mərcandırlar. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Yaxşılığın əvəzi ancaq yaxşılıq deyildirmi? Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Bu ikisindən başqa daha iki Cənnət də vardır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Hər ikisi tünd yaşıldır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**İkisində də fəvvarə vuran iki bulaq vardır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**İkisində də cürbəcür meyvələr, bənzərsiz xurma və bənzərsiz nar vardır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Orada gözəl xasiyyətli, gözəl qızlar vardır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Otaqlar içində qorunmuş huri qadınlar vardır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Onlardan əvvəl özlərinə nə bir insan, nə də bir cin toxunmuşdur. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Onlar yaşıl yastıqlara və olduqca gözəl döşəklərə dirsəklənəcəklər. Elə isə Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?**

**Sənin əzəmət və kərəm sahibi olan Rəbbinin adı nə qədər mübarəkdir. (Rəhman surəsi, 46-78)**

Başqa ayələrdə də cənnətlə əlaqədar bu məlumatlar verilir:

**Cənnətdə hara baxsan nemət və böyük bir mülk görərsən. (İnsan surəsi, 20)**

**Onlar orada taxtlar üzərində dirsəklənmişlər. Orada nə günəş, nə də şaxta görəcəklər. (İnsan surəsi, 13)**

**Orada faydasız söz eşitməyəcəkdir. (Ğaşiyə surəsi, 11)**

**Yanlarında baxışlarını yalnız öz ərlərinə çevirmiş iri gözlü qadınlar vardır. Özü də qorunub saxlanılmış yumurta kimi (valehedici və mükəmməl) qadınlar. (Saffat surəsi, 48-49)**

**Onlar deyəcəklər: "Qəm-qüssəni bizdən uzaq edən Allaha həmd olsun! Həqiqətən, Rəbbimiz Bağışlayandır, şükürün əvəzini verəndir. Öz lütfü ilə bizi əbədi iqamətgahda yerləşdirən Odur. Orada bizə nə bir yorğunluq üz verəcək, nə də bir bezginlik toxunacaqdır!". (Fatır surəsi, 34-35)**

**Lakin Rəbbindən qorxanları üst-üstə tikilmiş, altından çaylar axan otaqlar gözləyir. Bu, Allahın vədidir. Allah vədinə xilaf çıxmaz. (Zumər surəsi, 20)**

Haqq-hesab çəkildikdən sonra Allahın saleh bəndələrinə belə səslənəcək:

**"Ey arxayın olan kəs! Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə tərəf dön! Mənim qullarımın cərgəsinə keç! Cənnətimə daxil ol! (Fəcr Surəsi, 27-30)**

# İNKARÇILARI GÖZLƏYƏN CƏHƏNNƏM

*Məni yalqız halda yaratdığım kimsə ilə tək burax;*
*Mən ona bolluca var-dövlət bağışladım,*
*Göz önündə olan övladlar verdim*
*və onu hər cür imkanlarla təmin etdim.*
*Bunlara baxmayaraq, o, yenə də əlavə etməyimi arzulayır.*
*Xeyr! Çünki o, ayələrimizi inadla inkar edir.*
*Mən onu sərt bir yoxuşa sürükləyəcəyəm.*
*Çünki o, fikirləşərək bir ölçü müəyyənləşdirdi.*
*Ona ölüm olsun! Necə bir ölçü müəyyənləşdirdi?*
*Sonra yenə ona ölüm olsun! Gör necə bir ölçü müəyyənləşdirdi?*
*Sonra o nəzər saldı.*
*Üz-gözünü turşudub qaşqabağını tökdü.*
*Sonra da arxasını çevirib təkəbbür göstərdi*
*və dedi: "Bu, sehrbazlardan eşidilib təkrarlanan sehrdən başqa bir şey deyildir!*
*Bu, adi insan kəlamıdır!*
*Mən onu Səqərə (Cəhənnəmə) salacağam.*
*Sən haradan biləsən ki, Səqər nədir?!*
*O, kimsəni sağ-salamat buraxmaz.*
*O insanın canına dəlicəsinə susamışdır. (Müddəssir surəsi, 11-29)*

Cənnət nə qədər gözəllik və nemətlə doludursa, cəhənnəm də bir o qədər çirkinlik və əzabla doludur. Möminlərlə inkar edənlər arasında hələ dünyada olarkən yaranmış uçurum, axirətdə ən yüksək nöqtəyə çatar. Özünü yaradan, yaşadan və dinini ona çatdıran Allahı inkar etmiş və ya Ona tabe olmamış kimsələr əbədi əzabla cəzalandırılar.

Allah Quranda cəhənnəmə layiq olanları belə izah edər:

**Hər kəs doğru yol ona bəlli olduqdan sonra Elçiyə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir. (Nisa surəsi, 115)**

**Dinlərini oyun və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri tərk et. Bununla (Quranla) xatırlat ki, heç kəs qazandıqlarına görə özünü məhvə məhkum etməsin. Allahdan başqa onun nə bir hamisi, nə də bir şəfaətçisi olacaqdır. O nə cür fidyə versə də, ondan qəbul olunmayacaq. Onlar qazandıqları günahlara görə məhvə məhkum olanlardır. Küfr etdiklərinə görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır. (Ənam surəsi, 70)**

**Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ.**

**O gün bu yığdıqları sərvətlər Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və onlara: "Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!" deyiləcəkdir. (Tövbə surəsi, 34-35)**

**Ona: "Allahdan qorx!" deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır!. (Bəqərə surəsi, 206)**

Cəhənnəmə girəcək kimsələrin ortaq xüsusiyyəti, din əxlaqına çağırıldıqlarında üz çevirmiş olmalarıdır:

**Sur üfürüldü və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öldü. Sonra bir daha ona üfürüldü və onlar o dəqiqə qalxıb baxdılar.**

**Yer öz Rəbbinin nuru ilə işıqlandı, əməllər yazılmış kitab hər kəsin qarşısına qoyuldu, peyğəmbərlər və şahidlər gətirildi. Onların arasında ədalətlə hökm verildi və onlara haqsızlıq edilmədi.**

**Hər kəsə öz əməlinin əvəzi tam verildi. Allah onların nə etdiklərini yaxşı bilir.**

**İnkarçılar dəstə-dəstə Cəhənnəmə gətirildilər. Nəhayət, ora çatdıqda onun qapıları açıldı və onun gözətçiləri onlara dedilər: "Məgər öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla xəbərdar edən elçilər gəlməmişdi?".**

**Onlar: "Əlbəttə, gəlmişdi!" dedilər. Lakin əzab Sözü kafirlər barəsində**

**gerçəkləşdi. Onlara: “İçində əbədi qalacağınız Cəhənnəmin qapılarına girin!” deyildi. Təkəbbürlülərin yeri necə də pisdir!. (Zumər surəsi, 68-72)**

**Odda olanlar Cəhənnəm gözətçilərinə dedilər: “Rəbbinizə yalvarın ki, heç olmasa, bircə gün əzabımızı yüngülləşdirsin!”.**

**(Gözətçilər) dedilər: “Məgər elçiləriniz açıq-aydın dəlillər gətirməmişdilər?” Onlar: “Əlbəttə gətirmişdilər!” dedilər. Gözətçilər də: “Elə isə özünüz yalvarın!” dedilər. Kafirlərin yalvarması isə boş şeydir. (Mömin surəsi, 49-50)**

Cəhənnəmə girəcək kimsələrin bir hissəsi, hələ dünyada olarkən Allahın əzabı barəsində düşünməyənlərdir. Cəhənnəmə girsələr belə; "bir az əzab çəkər, sonra çıxaram" kimi Qurandan kənar əsassız bir məntiq yürüdənlərdən Quranda belə bəhs edilir:

**Kitabdan özlərinə bir pay verilmiş kəsləri görmədinmi? Onlar, aralarında hökm versin deyə, Allahın Kitabına dəvət olunurlar, sonra da onlardan bir dəstə üz çevirir. Onlar məhz belə üz çevirənlərdir. Bu, onların: “Od bizə ancaq bir neçə gün toxunar!” demələrinə görədir. Onların bu iftiraları öz dinləri barəsində özlərini aldatdı. Bu, onların: “Od bizə ancaq bir neçə gün toxunar!” demələrinə görədir. Onları uydurduqları şeylər öz dinlərində aldadıb yoldan çıxartdı. Baş verəcəyinə şübhə edilməyən bir gündə onları topladığımız və hər kəsə qazandığının əvəzi ödəniləcəyi, özlərinə də heç bir haqsızlıq edilməyəcəyi zaman onların halı necə olacaq? (Ali İmran surəsi, 23-25)**

Cəhənnəmdəki mühitin qorxuncluğunu izah edən digər bəzi ayələr isə belədir:

**Onlar bir-birlərinə göstəriləcəklər. Günahkar o günün əzabından qurtarmaq üçün fidyə vermək istəyər - öz oğullarını, həyat yoldaşını və qardaşını, ona sığınacaq vermiş nəslini və yer üzündə olanların hamısını - təki bu onu xilas etsin. Xeyr! Bu, alovu şölələnən Oddur - başın dərisini sıyırıb çıxaran bir od. O od çağırır haqqa arxa çevirəni, ondan üz döndərəni və mal-dövlət yığıb saxlayanı. (Məaric surəsi, 11-18)**

**Orada sümükləri çatladan inildəmələr eşidiləcək. Onlar orada eşitməyəcəklər də.**

**(Ənbiya surəsi, 100)**

**Qabaqda onu Cəhənnəm gözləyir; orada ona irinli su içirdiləcək. O bunu qurtum-qurtum içəcək, amma onu uda bilməyəcəkdir. Ona hər yandan ölüm gələcək, lakin o, ölməyəcəkdir. Bunun ardınca da ağır bir əzab gələcəkdir. (İbrahim surəsi, 16-17)**

**O gün günahkarları zəncirlənmiş görəcəksən. Onların paltarları qatrandan olacaq, üzlərini də alov bürüyəcəkdir. (İbrahim surəsi, 49-50)**

**Həqiqətən, zəqqum ağacı günahkar adamın yeməyidir.**

**Əridilmiş yağın çöküntüsü kimi qarınlarda qaynayar – qaynar su qaynayan kimi. Onu tutub Cəhənnəmin ortasına sürüyün! Sonra əzab vermək üçün başına qaynar su tökün! Dad bu əzabı! Sən ki (öz aləmində) üstün və şərəfli idin. (Duxan surəsi, 43-49)**

Bütün bu ayələrdə izah edilən cənnət və cəhənnəm qəti həqiqətlərdir. Bu dünyanı və bu həyatı yaradan Allah, onları da yaradacağını xəbər verir. İnkarçı insan nə qədər bu qəti həqiqətləri görmək istəməsə də, bunlarla qarşılaşacaq. Böyük bir islam aliminin verdiyi nümunəyə görə, axirəti düşünməyən kəs dəvəquşuna bənzəyər. Başını quma quyladığında ətrafını görməz və beləliklə də, özünün də görülmədiyini zənn edər. Halbuki, Allah istisnasız surətdə dünyadakı hər insanın etdiyi bütün əməlləri görür və müəyyənləşdirir.

Din əxlaqını yaşamağa dəvət edilən, lakin bu dəvəti qəbul etməyib inkara sapanlar, artıq cəhənnəmə layiq kəslərə çevrilmişdirlər. Bu kəslərlə əlaqədar ayələrdə belə xəbər verilir:

**...“Məgər öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla xəbərdar edən elçilər gəlməmişdi?” (Zumər surəsi, 71)**

Dinə çağırıldığı halda, üz çevirənlər isə "əzaba düçar" olacaq:

**Lakin, O,  nə təsdiq etdi, nə də namaz qıldı. Ancaq O yalan saydı və üz döndərdi. Sonra da təkəbbürlənərək öz ailəsinin yanına getdi. Sən buna layiqsən, artığına**

**layiqsən! Yenə sən buna layiqsən, artığına da layiqsən! (Qiyamət surəsi, 31-35)**

**Bu kitabda edilən şey də, hər insana haqq-hesab günü ilə qarşılaşacağını Allahın ayələriylə xatırladıb onları xəbərdar etməkdir.**

# XƏBƏRDARLIQ

*Oxuyacağınız bu hissə, həyatın ÇOX ƏHƏMİYYƏTLİ bir sirrini ehtiva edir. Maddi dünyaya baxış bucağınızı kökdən dəyişdirəcək bu mövzunu, çox diqqətli bir şəkildə və dərk edərək oxumalısınız. Burada izah ediləcək şeylər yalnız bir baxış bucağı, fərqli bir yanaşma tərzi və ya hər hansı bir fəlsəfi düşüncə deyil; dinə inanıb-inanmayan hər kəsin qəbul edəcəyi, bugünkü gündə elmin də sübut etdiyi qəti bir həqiqətdir.*

# YENİ BİR ÖLÇÜ

## ƏHƏMİYYƏTLİ AÇIQLAMA
## MADDƏNİN ARDINDAKI SİRR MÖVZUSU VƏHDƏTİ-VÜCUD DEYİL

Maddənin ardındakı sirr mövzusu bəzi insanların etirazlarına səbəb olmuşdur. Həmin bu insanlar bu mövzunun təməlini səhv anladıqları üçün, bu mövzunun vəhdəti-vücud təlimi ilə eyni olduğunu iddia edirlər.

Əvvəla qeyd etmək lazımdır ki, bu əsərlərin müəllifi əhli-sünnə inancına çox bağlıdır və vəhdəti-vücud təliminin tərəfdarı deyil. Bundan əlavə, yaddan çıxartmaq olmaz ki, vəhdəti-vücud təlimi Muhyiddin ibn Ərəbi kimi böyük İslam alimləri tərəfindən müdafiə edilmişdir.

Vəhdəti-vücud düşüncəsini izah edən bir çox tanınmış İslam aliminin keçmişdə bu kitablarda verilən bəzi mövzuları düşünərək izah etdikləri doğrudur. Ancaq bu əsərlərdə bəhs edilənlər vəhdəti-vücud düşüncəsi ilə eyni deyil.

Vəhdəti-vücud düşüncəsinin tərəfdarlarından bir qismi yanlış fikirlərə qapılaraq Qurana və əhli-sünnə inancına zidd olan bəzi iddialar irəli sürmüşlər, məsələn, Allahın yaratdığı varlıqları tamamilə yox hesab etmişlər. Əslində isə, maddənin ardındakı sirr mövzusu izah edilərkən qətiyyən belə bir iddia irəli sürülmür. Bu mövzu Allahın bütün varlıqları yaratdığını, ancaq yaratdığı varlıqların əslini Allahın gördüyünü, insanların isə bu varlıqların beyinlərində əmələ gələn görüntülərini gördüklərini açıqlayır.

Gördüyümüz bütün varlıqlar, dağlar, düzənliklər, çiçəklər, insanlar, dənizlər, bir sözlə gördüyümüz hər şey Allahın Quranda var olduğunu, yoxdan yaratdığını bildirdiyi hər varlıq yaradılmışdır və vardır. Ancaq insanlar bu varlıqların əslini duyğu orqanlarının vasitəsiylə ilə görə, hiss edə və ya eşidə bilməzlər. Gördükləri və hiss etdikləri, bu varlıqların beyinlərindəki surətləridir. Bu, elmi həqiqətdir və bu gün başda tibb fakültələri olmaqla, bütün məktəblərdə öyrədilən elmi mövzudur. Hal-hazırda bu yazını oxuyan insan bu yazının əslini görə bilməz, bu yazının əsliylə təmasda ola bilməz. Bu yazının əslindən gələn işıq insanın gözündəki bəzi hüceyrələr tərəfindən elektrik siqnalına çevrilir. Bu elektrik siqnalı beynin arxasındakı görmə mərkəzinə ötürülərək onu xəbərdar edir və insan beyninin arxasında bu yazının görüntüsü əmələ gəlir. Yəni

siz bu dəqiqə gözünüzlə önünüzdəki yazını oxumursunuz. Bu yazı sizin beyninizin arxasındakı görmə mərkəzində əmələ gəlir. Sizin oxuduğunuz yazı beyninizin arxasındakı yazı surətidir. Bu yazının əslini isə Allah görür.

Beləliklə də, maddənin beynimizdə əmələ gələn xəyal olması onun yox olduğu demək deyil. Ancaq bizə insanın təmasda olduğu maddənin mahiyyəti haqqında məlumat verir ki, bu da maddənin əsli ilə heç bir insanın təmasda olmadığı həqiqətidir.

# Çöldə maddə vardır ancaq biz maddənin əsliylə təmasda ola bilmərik!

Xarici aləmdə maddə var, ancaq biz maddənin əsli ilə təmasda ola bilmərik!

Maddənin xəyal olduğunu demək, maddənin yox olduğu demək deyil. Əksinə, biz görsək də, görməsək də, maddi dünya mövcuddur. Ancaq biz bu dünyanı beynimizin içində bir surət, başqa bir sözlə, hisslərimizin ifadəsi kimi görürük. Ona görə də, maddə bizim üçün xəyaldır.

Xarici aləmdəki maddənin varlığını bizdən başqa görən varlıqlar da var. Allahın mələkləri, katib kimi təyin etdiyi elçiləri də bu dünyaya şahidlik edirlər.

**Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır. Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın. (Qaf surəsi, 17-18)**

Hər şeydən önəmlisi budur ki, Allah hər şeyi görür. Bu dünyanı hər cür incəlikləri ilə Allah yaratmışdır və Allah hər şeyi görür. Quran ayələrində belə xəbər verilir:

**...Allahdan qorxun və bilin ki, Allah sizin nə etdiklərinizi görür. (Bəqərə surəsi, 233)**

**De: "Mənimlə sizin aranızda Allahın şahid olması yetər. Həqiqətən, O, qullarından Xəbərdardır, nə etdiklərini Görəndir". (İsra surəsi, 96)**

Bundan əlavə, yaddan çıxartmaq olmaz ki, Allah bütün hadisələri "lövhi-məhfuz" adlı kitabda qeyd etmişdir. Biz görməsək də, bunların hamısı lövhi-məhfuzda mövcuddur. Hər şeyin Allah qatında lövhi-məhfuz adlandırılan ana kitabda qorunduğu belə bildirilir:

**Şübhəsiz ki, o, yanımızdakı Ana Kitabdandır. O, ucadır, hökm və hikmətlə doludur. (Zuxruf surəsi, 4)**

**...Bizdə hər şeyi qoruyan bir Kitab (Lövhi-məhfuz) vardır! (Qaf surəsi, 4)**

**Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın. (Nəml surəsi, 75)**

# MADDƏNİN ƏSLİ HƏQİQƏTİNİ BİLMƏK

Ağıl və vicdanla ətrafını seyr edən hər hansı bir şəxs kainatdakı canlı-cansız hər şeyin yaradıldığını dərk edər. Bəs, bütün bunlar kim tərəfindən yaradılmışdır?

Məlumdur ki, kainatın hər yerində özünü bəlli edən "yaradılış" kainatın özünün məhsulu ola bilməz. Məsələn, bir böcək öz-özünü yaratmamışdır. Günəş sistemi, bitkilər, insanlar, bakteriyalar, hemoqlobinlər, kəpənəklər öz-özlərini yaratmamışlar. Bütün bunların "təsadüfən" əmələ gəlməsi kimi ehtimal da qeyri-mümkündür.

Ona görə, bu nəticəyə gələ bilirik: Gözümüzlə gördüyümüz hər şey yaradılmışdır... Ancaq gözümüzlə gördüyümüz şeylərin heç biri "Yaradan" deyil. Deməli, Yaradan gözümüzlə gördüyümüz hər şeydən fərqli və üstün varlıqdır. Özü görünməyən, lakin yaratdığı hər şeyin Onun varlığını və vəsflərini göstərdiyi üstün gücdür.

Allahın varlığını qəbul etməyənlər də elə bu nöqtədə azırlar. Bu şəxslər öz qabaqlarına; Allahı gözləri ilə görmədikləri müddətcə, Onun varlığına iman gətirməməyi şərt kimi qoymuşlar. Ancaq bu təqdirdə kainatın hər yerində açıq-aşkar görünən **"yaradılış"** həqiqətini gizlətməyə, kainatın və canlıların yaradılmadığını iddia etməyə məcbur olurlar. Təkamül nəzəriyyəsi və materialist fəlsəfə bu mövzuda əl atılan yalanların və nəticəsiz çırpınışların ən bariz iki nümunəsidir.

İnkar edənlərin etdiyi bu xətanı əslində Allahın varlığını inkar etməyən, ancaq azğın Allah inancına malik olan bir çox şəxs də edir. Bəzi ölkələrdə cəmiyyətin əksəriyyətini təşkil edən bu şəxslər yaradılışı inkar etmirlər, ancaq Allahın "harada" olduğuna dair batil inancları var. Əksəriyyəti Allahın "göydə" olduğunu zənn edir. Onların şüur altındakı batil düşüncəyə əsasən, Allah çox uzaqlardakı bir planetin arxasındadır və çox nadir hallarda "dünyanın işlərinə" müdaxilə edir və ya heç etmir, kainatı yaratmış və nəzarətsiz qoymuşdur, insanlar öz talelərini özləri yazarlar...

Bəziləri də Quranın Allahın "hər yerdə" olduğuna dair bildirdiyi həqiqəti bilər, lakin bunun mənasını tam olaraq anlaya bilməzlər. Onların şüurunun altındakı batil düşüncəyə görə, Allah radio dalğaları və ya görünməz, hiss edilməz qaz kimi (Allahı tənzih edirik) maddələri əhatə etmişdir.

Lakin bu düşüncə və əvvəldən bəri sadaladığımız **"Allahın harada olduğunu"** tapa bilməyən (bəlkə də buna görə Onun açıq-aydın görünən varlığını ağılsız şəkildə inkar edən) düşüncələr ortaq xətadan qaynaqlanır: Heç bir əsası olmayan bir ön mühakiməni mənimsəyir, ondan sonra da Allahla bağlı zənnə qapılırlar.

Bu ön mühakimə nədir?

Bu ön mühakimə maddənin varlığı və xüsusiyyəti ilə bağlıdır. Bəzi insanlar maddənin gerçək mahiyyətiylə əlaqədar səhv düşüncələrə elə qapılmışdırlar ki, bəlkə də, bu mövzuda heç ətraflı düşünməmişdirlər. Halbuki, müasir elm maddənin mahiyyətiylə əlaqədar bu ön mühakiməni də məhv edərək, çox mühüm və diqqət çəkici bir həqiqəti üzə çıxarmışdır. Sonrakı səhifələrdə Quranda da işarə edilən bu böyük həqiqəti açıqlamağa çalışacağıq.

# Elektrik siqnallarından ibarət kainat

Yaşadığımız dünya ilə bağlı bütün məlumatlarımız bizə beş duyğu orqanımız vasitəsilə çatır. Yəni biz gözümüzün gördüyü, əlimizin toxunduğu, burnumuzun qoxuladığı, dilimizin daddığı, qulağımızın eşitdiyi dünyanı tanıyırıq. Anadan olduğumuzdan bəri bu hisslərə bağlı olduğumuz üçün, “xarici dünyanın” hisslərimizin bizə tanıtdığından fərqli olacağını heç düşünməmişik.

Halbuki bu gün bir çox elm sahəsində aparılan tədqiqatlar olduqca fərqli bir anlayış üzə çıxarmış, hisslərimiz və hiss etdiyimiz dünya ilə bağlı ciddi şübhələrin əmələ gəlməsinə səbəb olmuşdur.

Bu yeni anlayış isə buradan meydana gəlmişdir: Bizim “xarici dünya” kimi hiss etdiklərimiz sadəcə elektrik siqnallarının beyində əmələ gətirdiyi təsirlərdir. Almanın qırmızılığı, taxtanın bərkliyi, habelə ananız, atanız, malik olduğunuz bütün mallar, eviniz, işiniz və bu kitabın sətirləri ancaq və ancaq beyninizdəki elektrik siqnallarından ibarətdir. Yəni, biz heç vaxt xarici dünyadakı almanın əsl rəngini, taxtanın əsl quruluşunu, anamızın, atamızın, sevdiklərimizin əsl hallarını bilmərik. Allah bunların hamısını xarici dünyada yaratmış və onlar mövcuddurlar, amma biz həyatımız boyu yalnız beynimizdəki surətləriylə təmasda oluruq.

Mövzunu tam şəkildə açıqlamaq üçün ilk olaraq xarici dünya haqqında bizə məlumat verən duyğularımızdan danışaq.

# Necə görürük, eşidirik, dadırıq?

Görmə hadisəsi çox mərhələli şəkildə baş verir. Görmə əsnasında hər hansı bir cisimdən gələn işıq şüaları (fotonlar) gözün önündəki göz büllurunun içindən sınaraq keçir və gözün arxa tərəfindəki torlu qişaya tərs halda düşür. Buradakı hüceyrələr tərəfindən elektrik siqnalına çevrilən görmə siqnalları sinirlər vasitəsilə beynin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik bölgəyə çatır. Bu elektrik siqnalı bir sıra

ardıcıl prosesdən sonra beyindəki bu mərkəzdə görüntü kimi qavranılır. Yəni görmə hadisəsi əslində beynin arxasındakı kiçik, **işığın heç cür daxil ola bilmədiyi qapqaranlıq nöqtədə** baş verir.

İndi hər kəsə məlum olan bu məlumatı bir daha diqqətli təhlil edək: Biz "görürük" dediyimiz anda, əslində gözümüzə gələn xəbərdarlıqların elektrik siqnalına çevrilib beynimizdə əmələ gətirdiyi "təsiri" görürük. Yəni **"görürük" deyərkən əslində beynimizdəki elektrik siqnallarını seyr edirik.**

Həyatımız boyu gördüyümüz hər görüntü bir neçə $sm^3$-lik görmə mərkəzində əmələ gəlir. Oxuduğunuz bu sətirlər də, üfüqdə gördüyünüz ucsuz-bucaqsız mənzərə də bu kiçik yerdə meydana gəlir. Burada diqqət edilməli bir cəhət də var. Bir az əvvəl qeyd etdiyimiz kimi, kəllə sümüyü işığı içəri keçirmir, yəni beyinin içi qapqaranlıqdır. Ona görə də beynin xarici dünyadakı işıqla təmasda olması qətiyyən mümkün deyil.

Buradakı maraqlı vəziyyəti bir nümunə ilə izah edək: Qarşımızda bir şam olduğunu düşünək. Bu şamın qarşısında dayanıb onu uzun müddət seyr edə bilərik. Amma bu müddət boyu beynimiz şamdan gələn işığın əsli ilə heç vaxt təmasda ola bilməz. Şamın işığını gördüyümüz anda belə başımızın və beynimizin içi qapqaranlıqdır. Qapqaranlıq beynimizin içində aydın, parlaq və rəngli dünyanı seyr edirik.

R.L. Qreqori görmə hadisəsindəki möcüzəvi vəziyyəti belə ifadə edir:

*Görmə hadisəsinə o qədər öyrəşmişik ki, cavablandırılmalı suallar olduğunu anlamaq böyük təxəyyül gücü tələb edir. Lakin bunu nəzərə alın. Gözlərimizə kiçik başıaşağı görüntülər göndərilir və biz ətrafımızda bunları düzgün cisimlər kimi görürük. Torlu qişaların üzərində yaranan xəbərdarlıqlar nəticəsində cisimlər dünyasını hiss edirik və* ***bunun əslində bir möcüzədən fərqi yoxdur****. (R. L. Gregory, Eye and Brain: The Psychology of Seeing, Oxford University Press Inc. New York, 1990, səh. 9)*

Eyni vəziyyət digər hisslərə də aiddir. Səs, toxunma, dad və qoxu - hər biri elektrik siqnalı şəklində beynə ötürülür və burada əlaqədar mərkəzlərdə şərh olunur.

Eşitmə hadisəsi belə baş verir: Xarici qulaq ətrafdakı səs dalğalarını qulaq seyvanı vasitəsilə toplayıb orta qulağa ötürür, orta qulaq da qəbul etdiyi səs titrəyişlərini gücləndirib daxili qulağa ötürür, daxili qulaq isə bu titrəyişləri elektrik siqnallarına çevirərək beynə göndərir. Eynilə görmə hadisəsində olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində baş verir. Kəllə işığı içəri keçirmədiyi kimi, səsi də keçirmir. Buna görə də insanın eşitdiyi səslər nə qədər güclü və gurultulu da olsa, beynin içi tamamilə səssizdir.

Buna baxmayaraq, ən aydın səslər beyində şərh olunur. Bu, elə bir şeydir ki,

sağlam bir insan qulağı heç bir cızıltı olmadan hər şeyi eşidir. Səs keçirməyən beyninizdə orkestrin simfoniyalarını dinləyirsiniz, izdihamlı mühitin bütün hay-küyünü eşidirsiniz, yarpağın xışıltısından reaktiv təyyarələrin gurultusuna qədər böyük bir tezlik intervalındakı bütün səsləri eşidə bilirsiniz. Amma o anda həssas cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada tam səssizliyin hakim olduğu məlum olar.

Qoxu hissimizin əmələ gəlməsi də buna bənzərdir: vanil qoxusu, gül qoxusu kimi uçucu molekullar burnun epitel hissəsindəki titrək tükcüklərdəki reseptorlara çatırlar və bu reseptorlarda qarşılıqlı təsirə girirlər. Bu qarşılıqlı təsir beynimizə elektrik siqnalı şəklində ötürülür və qoxu kimi şərh edilir. Nəticədə bizim gözəl və ya pis adlandırdığımız qoxuların hamısı uçucu molekulların girdikləri qarşılıqlı təsirlərin elektrik siqnallarına çevrildikdən sonra beyindəki şərh olunma formasından başqa bir şey deyil. Bir ətiri, çiçəyi, sevdiyiniz yeməyi, dəniz qoxusunu, xoşunuza gələn və ya gəlməyən hər cür qoxunu beyninizdə hiss edirsiniz. Lakin qoxu molekulları beynə heç vaxt daxil ola bilməzlər. Səs və görüntüdə olduğu kimi, qoxuda da beyninizə daxil olan ancaq elektrik siqnallarıdır. Beləliklə, doğulduğunuz andan etibarən kənardakı cisimlərə aid sizə məlum olan qoxular duyğu orqanlarınız vasitəsilə hiss etdiyiniz elektrik siqnallarıdır. Bir qoxunun xarici dünyadakı əsliylə heç vaxt təmasda olmazsınız.

Buna bənzər şəkildə insan dilinin ön hissəsində də dörd müxtəlif növdə kimyəvi reseptor var. Bunlar, duzlu, şirin, turş və acı dadlarını hiss edir. Dad reseptorlarımız bir sıra kimyəvi prosesdən sonra bu hissləri elektrik siqnallarına çevirir və beynə ötürürlər. Bu siqnallar da beyin tərəfindən dad kimi şərh olunur. Bir şokoladı və ya sevdiyiniz bir meyvəni yedikdə aldığınız dad elektrik siqnallarının beyin tərəfindən şərh olunmasıdır. Xarici aləmdəki cisimlə isə əsla təmasda ola bilməzsiniz, şokoladın özünü görə bilməz, qoxulaya bilməz və dada bilməzsiniz. Məsələn, beyninizə gedən dadbilmə sinirləri kəsilsə, o an yediyiniz hər hansı bir şeyin dadının beyninizə ötürülməsi mümkün olmaz, dad duyğunuzu tamamilə itirərsiniz.

Burada qarşımıza bir həqiqət də çıxır: bir qidanı daddıqda başqa birinin o qidadan aldığı dadın və ya bir səsi eşitdikdə başqa birinin eşitdiyi səsin bizim aldığımız dad və eşitdiyimiz səslə eyni olduğundan əmin ola bilmərik. Bu həqiqətlə bağlı Linkoln Barnet belə deyir:

*Heç kimin öz gördüyü qırmızı rəngin və ya eşitdiyi "do" notunun başqa bir insanınkı ilə eyni olub-olmadığını bilməsi mümkün deyil. (Lincoln Barnett, Evren ve Einstein, Varlık Nəşriyyatı, Çev: Nail Bezel, səh. 20)*

Toxunma hissimizə gəlincə dəyişən bir şey olmadığını görərik. Bir cismə toxunduqda xarici aləmi və cisimləri tanımamıza kömək edən məlumatlar dəridəki

duyğu sinirləri vasitəsilə beyinə ötürülür. Toxunma hissi beynimizdə əmələ gəlir. Zənn edildiyi kimi, toxunma duyğusunu hiss etdiyimiz yer barmaq uclarımız və ya dərimiz deyil, beynimizdəki toxunma mərkəzidir. Biz cisimlərdən gələn elektrik siqnallarının beynimizdə şərh olunması nəticəsində bərklik və ya yumşaqlıq, istilik və ya soyuqluq kimi cisimləri tərif edən müxtəlif duyğuları hiss edirik. Hətta bir cismi tanımağa kömək edən hər cür incəliyi də bu siqnallar nəticəsində əldə edirik. Bu mühüm həqiqətlə bağlı B. Rasl və L. Uittqeynsteyn kimi məşhur filosofların fikirləri aşağıdakı kimidir:

*...Bir limonun həqiqətən mövcud olub-olmadığı və necə bir proses nəticəsində mövcud olduğunu soruşmaq və tədqiq etmək qeyri-mümkündür. Limon ancaq dil ilə hiss edilən dad, burunla hiss edilən qoxu, gözlə görülən rəng və formadan ibarətdir. Ancaq bu xüsusiyyətləri ilə elmi tədqiqatın və mühakimənin mövzusu ola bilər.* ***Elmin maddi dünyanı bilməsi qeyri-mümkündür.*** *(Orhan Hançerlioğlu, Düşünce Tarihi, İstanbul: Remzi Kitabevi, 1987, səh. 447)*

Yəni beynimizdən kənardakı maddi dünya ilə təmasda olmağımız qeyri-mümkündür. Təmasda olduğumuz cisimlər əslində görmə, eşitmə, toxunma kimi duyğuların cəmindən ibarətdir. Duyğu mərkəzlərindəki məlumatları şərh edən beynimiz həyatımız boyu maddənin bizdən kənardakı **"əsli" ilə deyil, beynimizdəki surətləri ilə təmasda olur**. Biz isə bu surətlərin əslinin necə olduğunu heç vaxt bilmərik.

# Beynimizin içində əmələ gələn "xarici dünya"

Buraya qədər izah etdiyimiz fiziki həqiqətlər bizi mübahisəsiz nəticəyə gətirir: bizim gördüyümüz, toxunduğumuz, eşitdiyimiz və "maddə", "dünya" və ya "kainat" adlandırdığımız anlayışların əsliylə heç vaxt təmasda ola bilmərik. Biz ancaq bunların beynimizdəki surətlərindən xəbərdarıq.

Məsələn, meyvə yeyən biri əslində meyvənin beyindəki hissi ilə təmasda olur, əsli ilə təmasda olmur. İnsanın "meyvə" adlandırdığı şey meyvənin forması, dadı, qoxusu və bərkliyinə aid informasiyanın beyində şərh olunmasından ibarətdir. Əgər beynə gedən görmə sinirini kəssəniz, meyvə görüntüsü də bir anda yox olar və ya burundakı reseptorlardan beynə uzanan sinirdəki bir qırılma halı, qoxu hissinizi tamamilə məhv edər. Çünki meyvə beynin bəzi elektrik siqnallarını şərh etməsindən başqa bir şey deyil.

Üzərində düşünməli olduğumuz başqa bir cəhət də **uzaqlıq hissidir**. Uzaqlıq, məsələn, bu kitabla aranızdakı məsafə sadəcə beyninizdə meydana gələn boşluq hissidir. Bir insanın özündən çox uzaqda hesab etdiyi maddələr də əslində beyninin içindədir. Məsələn, insan göyə baxıb ulduzları seyr edir və onların milyonlarla işıq ili

uzaqlığında olduqlarını hesab edir. Halbuki ulduzlar onun içində, beynindəki görüntü mərkəzindədir. Bu yazıları oxuyarkən içində oturduğunuzu hesab etdiyiniz otağın da əslində içində deyilsiniz, əksinə, otaq sizin içinizdədir. Bədəninizi görməyiniz sizi otağın içində olduğunuza inandırır. **Ancaq bunu unutmayın: bədəniniz də beyninizdə əmələ gələn bir görüntüdür.**

Eyni vəziyyət digər bütün hisslərinizə də aiddir. Məsələn, siz qonşu otaqdakı televizorun səsini eşitdiyinizi hesab edirsiniz, əslində beyninizin içindəki səslə təmasda olursunuz. Metrlərlə uzaqdan gəldiyini hesab etdiyiniz səs də, yanınızdakı insanın söhbəti də əslində beyninizdəki bir neçə $sm^3$-lik eşitmə mərkəzində hiss olunur. Bu duyğu mərkəzindən kənarda sağ, sol, ön, arxa kimi bir anlayış yoxdur. Yəni səs sağdan, soldan və ya havadan sizə çata bilməz, **səsin gəldiyi bir istiqamət yoxdur**.

Hiss etdiyiniz qoxular da elədir, heç biri uzaq məsafədən sizə gəlmir. İybilmə mərkəzinizdə əmələ gələn siqnalları kənardakı maddələrin qoxusu zənn edirsiniz. Halbuki bir gülün görüntüsü necə görmə mərkəzinizin içindədirsə, o gülün qoxusu da eyni şəkildə iybilmə mərkəzinizin içindədir, kənardakı gülün və qoxusunun əsli ilə təmasda ola bilməzsiniz.

Çünki bizim üçün "xarici aləm", yalnız eyni anda beynimizə gələn "elektrik siqnallarının cəmindən" ibarətdir. Beynimiz həyatımız boyu bu siqnalları şərh edir. Biz də bunları maddənin "xarici aləmdəki" əsli hesab edərək yanıldığımızı dərk etmədən ömür sürürük. Yanılırıq, çünki hisslərimizlə maddənin əsli ilə əsla təmasda ola bilmərik.

Əsliylə təmasda olduğumuzu hesab etdiyimiz "xarici aləm"lə əlaqədar siqnalları şərh edib mənalı hala gətirən də beynimizdir. Məsələn, eşitmə duyğusunu nəzərdən keçirək. Qulağımızın içinə gələn səs dalğalarını şərh edib onu simfoniyaya çevirən əslində beynimizdir. Yəni musiqi beynimizin əmələ gətirdiyi bir hissdir. Rəngləri görərkən də əslində gözümüzə çatan sadəcə **işığın müxtəlif dalğa uzunluqlarıdır**. Bu müxtəlif dalğa uzunluqlarını rənglərə çevirən də beynimizdir. **Xarici dünyadakı rənglərin necə olduğu bizə məlum deyil**. Biz nə almanın əsl qırmızı rəngiylə, nə göy üzünün əsl mavi rəngiylə, nə də ağacların əsl yaşıl rəngiylə heç vaxt təmasda ola bilmərik. **Xarici dünya tamamilə hiss edəndən asılıdır.**

Belə ki, gözdəki torlu qişada əmələ gələn kiçik bir pozulma rəng korluğuna səbəb olur. Bəzi insanlar mavini yaşıl, bəziləri qırmızını mavi, bəziləri də rəngləri boz rəngin müxtəlif çalarları şəklində görürlər. Ona görə də xarici dünyadakı cismin rəngli olub-olmaması vacib deyil.

# Xarici dünya olmadan da hisslər dünyası meydana gələ bilər

Gördüyümüz və yaşadığımız hər şeyin beynimizdə mövcud olduğunu, xarici dünyada mövcud olan maddənin əslini heç bilmədiyimizi göstərən həqiqətlərdən biri də, beynimizdə hisslərin meydana gəlməsi üçün xarici dünyaya ehtiyacımızın olmamasıdır. Bugünkü gündə simulyatorlar kimi bir çox texnoloji inkişaf və həmçinin yuxularımız bu həqiqətin ən əhəmiyyətli dəlillərindəndir.

Elmi yazıçı Rita Carter *"Mapping The Mind"* adlı kitabında, "görmək üçün gözlərə ehtiyac yoxdur" deyərək, elm adamları tərəfindən aparılan əhəmiyyətli bir təcrübəyə yer verir. Təcrübədə görmə əlilli kəslərə, video görüntüləri titrəyişlərə çevirən bir cihaz taxılmışdır. Bu kəslərin gözlərinin yanına taxılan bir kamera isə xəbərdarlıqları bu adamın beyninə göndərir. Beləliklə, bu adam daim vizual dünyadan xəbərdarlıq ala bilir. Xəstələr bir müddət sonra həqiqətən görürmüş kimi davranmağa başlamışlar. Məsələn, cihazlardan birində görüntünü yaxınlaşdırmaq üçün bir linza var, məhz bu linza xəstə xəbərdar edilmədən işə düşdükdə, xəstə görüntünün böyüyərək üstünə gəldiyini görürmüş kimi hərəkət etdiyi üçün iki qolu ilə özünü qoruma ehtiyacı hiss etmişdir. (Rita Carter, *Mapping The Mind*, səh. 113)

Bu təcrübədən də görüldüyü kimi, hisslərimizin meydana gəlməsi üçün xarici dünyada maddi bir qarşılıqlarının olması vacib deyil. Bütün xəbərdarlıqlar süni olaraq da yaradıla bilir.

# Yuxularda yaşadığımız "hisslər dünyası"

İnsan xarici dünya olmadan da bütün hissləri bütün canlılığı ilə yaşaya bilər və buna verilə biləcək ən bariz nümunə, daha əvvəl də bəhs etdiyimiz kimi yuxulardır. Bir insan yuxusu əsnasında gözləri yumulu halda yatağında yatar. Ancaq buna baxmayaraq, gerçək həyatında qarşılaşdığı hadisələrin, yaşadığı hisslərin, xəbərdarlıqların hamısını yuxularında, həqiqi hallarından ayırd edilə bilməyəcək qədər həqiqi hesab edər. Bu həqiqətə, bu kitabı oxuyan insanların hamısı bilavasitə öz yuxularında tez-tez şahid olarlar. Məsələn, gecə yatağında səssiz və sakit bir mühitdə, ətrafında ikinci bir adam da olmadığı halda yatan bir insan, yuxusunda özünü çox izdihamlı məkanda, təhlükə içində görə bilər. Canını qurtarmaq üçün bu təhlükədən qaçdığını, bir divarın arxasına gizləndiyini bir həqiqətmiş kimi yaşaya bilər. Hətta yuxusunda gördükləri o qədər realdır ki, qorxu və təşviş duyğusunu həqiqətən təhlükəli

bir mühit varmış kimi eynisi ilə hiss edər. Hər səs-küydə ürəyi ağzına gələr, qorxudan titrəyər, ürəyi sürətlə döyünər, tərləyər, insan bədəni təhlükə anlarında nələr hiss etsə, fiziki olaraq nə kimi reaksiyalar versə hamısını eynilə yaşayar.

Yuxusunda uca bir yerdən aşağı düşən bir insan da bunu bütün bədəni ilə hiss edər. Halbuki həmin anda yatağında heç tərpənmədən yatır və ya yuxusunda ucu-bucağı bilinməyən suya düşdüyünü görən bir insan, bütün paltarlarının islandığını, əsməyə başlayan küləkdən ötrü üşüdüyünü hiss edə bilər. Ancaq olduğu yerdə nə bir su, nə də külək vardır. Hətta çox isti bir otaqda yatmasına baxmayaraq, yaşlıq və üşümə hissini, eyni oyanıq olduğu haldakı kimi yaşayar.

Yaxud yuxusunda maddənin əsli ilə təmasda olduğunu iddia edən bir adam özündən olduqca əmin ola bilər. Özünə "xarici dünyanın əsliylə təmasda olmağın mümkün olmadığını" izah edən yoldaşının çiyninə əlini qoyaraq; "indi sən əlimi çiynində hiss etmirsənmi? Onda necə maddənin əslini görmədiyini söyləyə bilirsən? Haradan çıxarırsan bu iddiaları? “Gəl səninlə Bosfor boğazı turuna çıxaq, həm bu mövzunu danışarıq, həm də belə bir mövzuya niyə inandığını mənə izah edərsən” deyə bilər. Dərinləşən yuxusunda gördüyü bu yuxu o qədər dəqiqdir ki, avtomobili işə salıb mühərrikə yavaş-yavaş qaz verər və sonra birdən-birə pedala basıb avtomobili sanki sıçradar. Yolda sürətlə gedərkən ağaclar və yol xəttləri sürətdən sanki bütöv bir görüntü meydana gətirər. Bir tərəfdən də Bosfor boğazının təmiz havasını udar. Tam yoldaşına etiraz etməyə, həmin anda maddənin əslini gördüyünü izah etməyə hazırlanarkən saatının zəngiylə oyanar. Ancaq necə də qəribədir ki, yuxusunda maddənin əsliylə təmasda olmadığımız həqiqətinə etiraz edən bu insan, oyanıq olarkən də gördüklərinin zehnində əmələ gələn surəti çıxarılmış görüntülər olduğunu izah edən bir yoldaşı yanında olsa, ona da eyni şəkildə etiraz edər.

İnsanlar yuxularından oyandıqlarında həmin ana qədər görmüş olduqlarının xəyal olduğunu dərk edərlər, amma "oyanma" görüntüsüylə başlayan və "həqiqət" dedikləri həyatın gerçək quruluşundan nədənsə heç şübhələnməzlər. Halbuki, "gerçək həyatımız" dediyimiz görüntüləri qavrama formamız, yuxularımızı qavrama formamızla tamamilə eynidir. Hər ikisini də zehnimizdə görərik və yuxularımızdan oyandırılmadığımız müddət, onların bir xəyal olduğunu anlaya bilmərik. Ancaq oyandığımız vaxt; "deməli, gördüklərim bir yuxu imiş" deyərik. Elə isə hal-hazırda gördüklərimizin bir yuxu olmadığını necə isbat edə bilərik? Yalnız hələ oyandırılmadığımız üçün, içində olduğumuz anı həqiqətmiş kimi zənn edə bilərik. Hər gecə gördüyümüz yuxulardan daha uzunmüddət davam edən bu yuxudan bir gün oyandırıldığımızda, bu həqiqətlə qarşılaşa bilərik və bunun əksini söyləyərək isbat edə biləcəyimiz heç bir dəlilimiz yoxdur.

Dünya həyatının bir yuxu kimi olduğu, bu yuxudan "böyük bir oyanış"la oyanıldığı təqdirdə, insanların yuxu kimi bir aləmdə yaşadıqlarını anlayacaqları, İslam alimləri tərəfindən də dilə gətirilən bir həqiqətdir. Üstün elmindən ötrü Şeyx əl-Əkbər (ən böyük şeyx) olaraq xatırlanan böyük İslam alimi Muhyiddin İbn əl-Ərəbi bir sözündə, Peyğəmbərimiz (s.ə.v)-in bir hədisini nəql edərək, dünya həyatını yuxularımıza belə bənzətmişdir:

*Həzrəti Məhəmməd Əleyhissalam; "insanlar yuxudadır, öldükləri vaxt oyanarlar" deyə buyurmuşdur. Deməli, dünya həyatında gördüyü şeylər yatan kimsənin yuxusunda gördüyü şeylər kimidir... (Muhyiddin Arabi, Fusus-ül Hikem, tərcüməçi: Nuri Gencosman, İstanbul, 1990, səh.220)*

Bir ayədə isə Allah insanların qiyamət günündə yenidən dirildildiklərində belə deyəcəklərini xəbər verir:

**Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim oyatdı? Bu, Mərhəmətli Allahın vəd etdiyidir. Elçilər doğru deyirlərmiş". (Yasin surəsi, 52)**

Ayədə də görüldüyü kimi, insanlar qiyamət günü eynilə bir yuxudan oyanan kimi oyanarlar. Bir insan, ağır bir yuxuya getdiyi və yuxu gördüyü əsnada qəfildən oyandırıldığında özünü oyandıranın kim olduğunu necə soruşarsa, bu insanlar da eynilə özlərini kimin oyandırdığını soruşurlar. Allahın bu ayədə də bildirdiyi kimi, dünya həyatı gördüyümüz bir yuxu kimidir və hər insan bu yuxudan oyandırılacaq və həqiqi həyatı olan axirət həyatına dair görüntüləri görməyə başlayacaq.

# Qavrayan kimdir?

Bura qədər başa düşüldüyü kimi, içində yaşadığımızı hesab etdiyimiz və "xarici dünya" adlandırdığımız maddi dünyanın əsliylə heç vaxt təmasda ola bilmərik. Amma ən mühüm sual burada yaranır: bizə məlum olan bütün maddi varlıqların əsliylə təmasda ola bilmiriksə, bəs beynimiz nədir? Beynimiz də qolumuz, ayağımız və ya başqa hər hansı cisim kimi maddi dünyanın bir hissəsi olduğuna görə, onun da əsliylə heç vaxt təmasda ola bilmərik.

Beyini nəzərdən keçirdikdə qarşımıza digər canlı orqanlarda da olan zülal və yağ molekulları kimi molekullardan fərqli bir şey çıxmayacaq. Yəni beyin adlandırdığımız ət parçasında görüntüləri seyr edərək şərh edən, şüuru əmələ gətirən, bir sözlə, "mən"

dediyimiz şeyi yaradan bir şey yoxdur.

R.L. Qreqori beynin içində görüntünün hiss edilməsi ilə bağlı insanların düşdükləri xətanı belə ifadə edir:

*Gözlərin beyində rəsmlər əmələ gətirdiyini söyləməyə meyl edirlər, lakin bundan qaçınmaq lazımdır. Beyində rəsm əmələ gəldiyi deyilərsə, bunu görmək üçün beynin içində də bir göz olmalıdır; lakin bu gözün rəsmini görmək üçün daha bir gözə ehtiyac olacaqdır; ...və bu da sonsuz göz və rəsmin olması deməkdir. Bu, isə qeyri-mümkündür. (R. L. Gregory, Eye and Brain: The Psychology of Seeing, Oxford University Press Inc. New York, 1990, səh. 9)*

Maddədən başqa bir varlığı qəbul etməyən materialistlərin həll edə bilmədikləri problemlərdən biri budur: görən, gördüyünü qavrayan və reaksiya verən "daxildəki göz" kimə aiddir?

Karl Pribram da elm və fəlsəfə dünyasında duyğunu hiss edənin kim olduğu ilə bağlı bu mühüm axtarışa diqqət çəkmişdir:

*Qədim yunanlardan bəri filosoflar; "makinanın içindəki xəyalət", "kiçik insanın içindəki kiçik insan" və s. üzərində düşünüblər. Mən* ***–beyindən istifadə edən varlıq-haradadır? Əsl görən kimdir?*** *Müqəddəs Assisili Frensisin də dediyi kimi; "axtardığımız şey baxanın nə olduğudur?" (Karl Pribram, David Bohm, Marilyn Ferguson, Fritjof Capra, Holografik Evren I, Tərcüməçi: Ali Çakıroğlu, İstanbul: Kuraldışı Nəşriyyat, 1996, səh. 37)*

İndi bunu düşünün: əlinizdəki kitab, içində oturduğunuz otaq, bir sözlə, qarşınızdakı bütün görüntüləri beyninizin içində görürsünüz. Bəs, bu görüntüləri atomlar görür? Həm də kor, kar, şüursuz atomlar... Nə üçün atomların bir hissəsi bu xüsusiyyətləri qazanıb, digərləri isə qazanmayıb? Düşünməyimiz, qavramağımız, xatırlamağımız, sevinməyimiz, kədərlənməyimiz, bütün bunlar bu atomların arasındakı kimyəvi reaksiyalardan ibarətdir?

Bu sualları diqqətlə düşündükdə atomlarda iradə axtarmağın bir mənasının olmadığını görürük. Aydındır ki, görən, eşidən və hiss edən varlıq maddənin fövqündə olan bir varlıqdır. Bəs bu görüntüləri beyninizin içində görən kimdir? Beyninizin içində, bir gözə ehtiyac duymadan bu kitabı görüntüsünü görən, gördüklərini dərk edən, oxuduqlarından təsirlənən, bunlar üzərində düşünən kimdir? Beynə çatan elektrik siqnallarını bir qulağa ehtiyac duymadan, bir dostunun səsi və ya ən sevdiyi mahnı olaraq dinləyən, dinlədiklərindən zövq alan kimdir?

**Məhz bu varlıq "ruh"dur.**

Xarici dünyada mövcud olan maddənin beyindəki surətlərini görən, eşidən, hiss

edən, qavrayan, şərh edən ruhdur. Bu sətirləri yazan və oxuyan ağıllı varlıqlar atom və molekul yığını və onların arasındakı kimyəvi reaksiyalar deyil, ruhdur.

# Həqiqi mütləq varlıq

Bütün bu həqiqətlər bizi çox mühüm sualla qarşı-qarşıya qoyur: madam ki, maddi dünyanın əslinə dair heç bir şey bilmir və yalnız beynimizdəki surətləriylə təmasda oluruqsa, onda bu xəyalların mənbəyi nədir?.

Bəs, kim bizim ruhumuza ulduzları, dünyanı, bitkiləri, insanları, bədənimizi və gördüyümüz digər hər şeyi müntəzəm olaraq seyr etdirir?

Məlumdur ki, içində yaşadığımız bütün maddi kainatı yaradan və müntəzəm olaraq yaratmağa davam edən üstün Yaradıcı var.

Bu Yaradıcı aləmlərin Rəbbi olan Allahdır.

Göylərin və yerin, yəni kainatın sabit olmadığı, sadəcə Allahın yaratması ilə var olduqları və Allah yaratmağı dayandırdıqda yox olacaqları bir ayədə belə ifadə edilir:

**Həqiqətən, Allah göyləri və yeri yox olmasınlar deyə tutub saxlayır. Əgər yox olsalar, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Doğrudan da, (Allah) həlimdir, bağışlayandır! (Fatir surəsi, 41)**

Daha əvvəl bildirdiyimiz kimi, insanların əksəriyyəti Allahın gücünü qavraya bilmədiklərinə görə, cəhalət ucbatından Onu göyün bir yerində mövcud olan və dünyanın işlərinə müdaxilə etməyən bir varlıq kimi düşünürlər. (Allahı tənzih edirik). Bu düşüncə tərzi kainatın maddələr bütünü olduğu, Allahın isə bu maddələrin "xaricində" bir yerdə olduğuna əsaslanır.

Həqiqi mütləq varlıq Allahdır. **Yəni var olan yalnız Allahdır, maddə mütləq varlıq deyil. Xarici dünyada mövcud olan maddələr dünyası Allahın üstün yaratmasının bir əsəridir. Allah "hər yerdə"dir və hər yeri əhatə edir.** Bu həqiqət Quranda belə açıqlanır:

**Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, Qaimdir. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O,**

**çox Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

Allahın məkana tabe olmadığı və hər yeri əhatə etdiyi həqiqəti başqa bir ayədə də belə bildirilir:

**Şərq də, Qərb də Allahındır: hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah oradadır. Şübhəsiz ki, Allah əhatə edəndir, biləndir!. (Bəqərə surəsi, 115)**

Bu həqiqətin qavranmasıyla insan, Ona şərik qoşmadan, Allahı tək ilah qəbul edərək tam mənasıyla iman edər. Çünki Allahdan başqa bütün varlıqların kölgə varlıqlar olduqlarını bilən bir insan, qəti bir imanla (haqqəl-yəqin dərəcəsində) "yalnız Allah vardır, Ondan başqa ilah (güc sahibi varlıq) yoxdur" deyər.

Gözləriylə görmədikləri üçün Allahın varlığına inanmayanların materialist iddiaları da, maddənin həqiqi mahiyyəti öyrənildikdə tamamilə yox olar. Çünki bu həqiqəti öyrənən adam, öz varlığının bir xəyal xüsusiyyətində olduğunu dərk edər. Xəyali bir varlığın isə mütləq bir varlığı görə bilməyəcəyini dərk edər. Necə ki, Quranda, insanların Özünü görə bilmədiyi, amma Özünün onları gördüyünü Rəbbimiz belə açıqlayır:

**Gözlər Onu dərk etməz. O, gözləri dərk edər..." (Ənam surəsi, 103)**

Əlbəttə ki, biz Allahın varlığını gözlərimizlə görə bilmərik, amma Allah bizim daxilimizi, zahirimizi, baxışlarımızı, düşüncələrimizi tamamilə əhatə etmişdir. Bu səbəblə də Allah Quranda Özünün **"qulaqlara və gözlərə hakim olduğunu olan"** (Yunis surəsi, 31) bildirir. O bilmədən biz bircə söz belə deyə bilməz, hətta nəfəs belə ala bilmərik. Buna görə də Allah bizim etdiyimiz hər şeyi bilir, bu vəziyyət Quranda da belə bildirilmişdir:

**Şübhəsiz ki, nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz. (Ali İmran surəsi, 5)**

Maddənin əsliylə təmasda olduğumuzu zənn edərək, dünyanın beynimizdəki surətini seyr edərkən də, yəni yaşayarkən də, bizə ən yaxın olan varlıq, Allahın Özüdür. Allahın Quranda bildirdiyi; **"and olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə**

**etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq!"** (Qaf surəsi, 16) ayəsinin sirri də bu həqiqətdə gizlənmişdir. **Allah insanı tamamilə əhatə etmişdir və ona "sonsuz dərəcədə yaxındır".**

Allah insanlara "sonsuz dərəcədə yaxın" olduğunu; **"bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) çox yaxınam..."** (Bəqərə surəsi, 186) ayəsi ilə də bildirir. Başqa bir ayədəki; **"Rəbbin insanları ehtiva etmişdir"** (İsra surəsi, 60) ifadəsi də eyni həqiqəti xəbər verir.

İnsan özünə ən yaxın olan varlığın özü olduğunu hesab edərək yanılır. Halbuki Allah bizə özümüzdən belə daha yaxındır. **"(Can) boğaza yetişdiyi zaman, Siz (ona) baxıb durursunuz, Biz ona sizdən daha yaxınıq, amma siz görmürsünüz!"** (Vaqiə surəsi, 83-85) ayələri ilə də Allah bu həqiqətə diqqət çəkmişdir. Ancaq ayədə də bildirildiyi kimi, insanlar gözləri ilə görə bilmədikləri üçün bu qeyri-adi həqiqətdən xəbərsiz yaşayırlar.

Bu çox əhəmiyyətli həqiqətdən xəbərsiz halda yaşayan bəzi insanlar özlərini yaradanın Allah olduğunu qəbul edər, ancaq gördükləri işləri özlərinin gördüklərini zənn edərlər. Halbuki, insanın etdiyi hər hərəkət Allahın izniylə yaradılar. Məsələn, bir kitab yazan insan Allahın izniylə o kitabı yazar. O kitabdakı hər cümlə, hər fikir, hər paraqraf Allahın istəyi ilə meydana gəlir. Allah bu çox əhəmiyyətli həqiqəti bir çox ayəsi ilə bildirir. Bu ayələrdən biri; **"...sizi də, etdiklərinizi də Allah yaratmışdır"** (Saffat surəsi, 96) ayəsidir. Allah, **"...atdığın zaman sən atmadın, Allah atdı..."** (Ənfal surəsi, 17) ayəsi ilə etdiyimiz bütün hərəkətləri Özünün etdiyini bildirir.

Həqiqət budur. Bir insan bunu qəbul etmək istəməyə bilər, amma bu heç bir şeyi dəyişdirməz.

# Maddənin həqiqətini bilmək dünya həvəsini yox edir

Buraya qədər izah etdiyimiz mövzu həyatınız boyu sizə izah edilmiş ən böyük həqiqətlərdən biridir. Çünki bütün maddi dünyanın həqiqətdə kölgə varlıq olduğunu sübut edən bu mövzu Allahın varlığının və yaratmasının dərk edilməsinin, Onun yeganə mütləq varlıq olmasının başa düşülməsinin açarıdır. Eyni zamanda, həm insanın nə qədər aciz olduğunun elmi və inkaredilməz sübutu, həm də Allahın möhtəşəm sənətinin təzahürüdür. Buna görə də bu elm insanları iman etməyə məcbur edir, iman etməməyi isə qeyri-mümkün hala gətirir. Bəzi insanların bu həqiqətdən qaçmasının əsas səbəbi də budur.

Burada izah edilənlər eynilə fizika qanunu və ya kimya formulu qədər qəti həqiqətlərdir. İnsanlar lazım gəldikdə ən çətin riyaziyyat suallarını həll edə bilir, başa düşülməsi çətin görünən bir çox məsələni qavraya bilirlər. Amma eyni şəxslərə insanların həyatları boyu zehinlərində əmələ gələn görüntülərlə təmasda olduqları, maddənin əsli ilə heç vaxt təmasda ola bilməyəcəkləri izah edildikdə bunu heç cür anlamaq istəmirlər. Bu, son dərəcə şişirdilmiş anlamazlıqdır. Çünki burada izah edilən mövzunun başa düşülməsi eynilə bir insanın "iki vur iki neçə edir?", "neçə yaşın var?" kimi suallara verəcəyi cavablar qədər asandır. Dünyanı harada gördüyünü hansı elm adamından, hansı nevrologiya professorundan soruşsanız, sizə: "Əlbəttə, beynimdə", - deyə cavab verəcəkdir. Hətta bu həqiqəti orta məktəbdəki biologiya kitablarında belə görə bilərsiniz. Ancaq bütün bunlara baxmayaraq, maddi dünyanı beynimizdə qavradığımıza dair bilik və bu biliyin insanı gətirdiyi nəticələr görməməzliyə vurulur. Elmin sübut etdiyi ən mühüm həqiqətlərdən birinin insanlardan bu qədər böyük cəhdlə gizlədilməsi, əslində, böyük hadisədir.

İnsanların bütün elmi həqiqətləri asanlıqla qəbul edib bu həqiqətdən bu qədər çox qorxub qaçmalarının əsas səbəbi isə budur ki, maddənin həqiqətinin öyrənilməsi bütün insanların həyata baxışlarının kökündən dəyişilməsinə səbəb olacaqdır. Maddəni və özlərini mütləq varlıq kimi qəbul edənlər və bütün həyatlarını buna bağlı quranlar bir anda özlərinin, həyat yoldaşlarının, uşaqlarının, malik olduqları bütün sərvətin bir xəyal olduğunu anlayacaqlar. Məhz insanların bu həqiqətdən bu qədər qorxmalarının, anladıqları halda özlərini anlamazlığa vurmalarının, ibtidai sinif şagirdinin belə asanlıqla qavraya biləcəyi həqiqəti son dərəcə anlaşılmaz etirazlarla yox etməyə çalışmalarının arxasında gizlənən səbəb bu dünya həvəslərini itirmək qorxusudur.

Mallara, övladlara, dünyanın keçici həvəslərinə çox bağlı olan biri üçün bu, həqiqətən də, böyük qorxu səbəbidir. Çünki bu həqiqəti anladıqda hələ ölmədən ölmüş, malını və canını təslim etmiş olacaq. Allah, **"əgər Allah sizdən onun hamısını istəsə və bunu sizdən israrla tələb etsə, siz xəsislik göstərərsiniz və O da kin-küdurətinizi zahirə çıxardar"** (Muhəmməd surəsi, 37) ayəsi ilə insanlardan bütün mallarını istədikdə onların necə müqavimət göstərəcəklərini və xəsislik edərək kin tutacaqlarını bildirir. Bir insan maddənin əsli həqiqətini öyrəndikdə isə onsuz da malının, canının Allaha aid olduğunu, verəcəyi və ya verməməkdə israr edəcəyi bir şey olmadığını anlayar, ölməzdən əvvəl hər şeyi ilə Allaha təslim olar. Səmimi iman edənlər üçün bu bir gözəllik, şərəf və Allaha yaxın olmaq üçün vasitədir. İmansız və ya zəif imanlı insanlar isə bu gözəlliyi anlamadıqları üçün bu həqiqəti israrla inkar edərlər.

# Maddənin həqiqəti aşkara çıxdıqda əmələ gələcək mühit

Maddənin əsli ilə təmasda olmadıqlarını, yalnız Allahın onlara göstərdiyi görüntülərlə sıx təmasda olduqlarını bilən insanların bütün həyatları, həyata baxışları və mühakimə meyarları da dəyişəcək. Bu, həm şəxsi, həm də ictimai mənada faydalı dəyişiklik olacaq. Çünki bu həqiqəti görən insan Allahın Quranda bildirdiyi üstün mömin əxlaqını asanlıqla yaşayacaq.

Dünyaya əhəmiyyət verməyən, maddənin xəyal olduğunu anlayan insanlar mənəviyyata əhəmiyyət verəcəklər. Allahın hər an onu eşitdiyini və gördüyünü bilən, etdiyi hər hərəkətə görə axirətdə hesab verəcəyini dərk edən şəxs, təbii ki, gözəl əxlaqlı olacaq, Allahın əmr və qadağalarına ciddi yanaşacaq. Beləliklə, cəmiyyətdə hər kəs bir-birinə qarşı sevgi və hörmətlə yanaşacaq, yaxşı və gözəl davranmaqda hər kəs bir-biri ilə yarışacaq. İnsanlar arasındakı mühakimə meyarları dəyişəcək, maddə dəyərini itirəcək və beləliklə, insanlar arasında üstünlük mövqe və vəzifəyə görə deyil, əxlaq və təqvaya görə olacaq. Heç kim xəyalın arxasınca qaçmayacaq, hər kəs həqiqətin arxasınca gedəcək. İnsanlar “kim nə fikirləşər?” düşüncəsi ilə deyil, “nə etsəm Allah məndən razı qalar?” düşüncəsi ilə hərəkət edəcəklər. Mal, mülk, mövqe və vəzifədən qaynaqlanan qürur, lovğalıq, təkəbbür hisslərinin yerini təvazö və acizliyini çox yaxşı anlama hissi alacaq. Buna görə də insanlar Quranda bəhs edilən bütün gözəl əxlaq nümunələrini sevərək və istəyərək yaşayacaqlar. Sadalanan bu dəyişikliklər isə dövrümüzdəki cəmiyyətlərin bir çox problemini, təbii ki, aradan qaldıracaq.

Kiçik mənfəətlər üçün belə əsəbiləşən, hirslənən, təcavüzkar olan insanların yerini gördüyü hər şeyin Allahın özünə seyr etdirdiyi görüntülər olduğunu bilən, buna görə də qəzəb, hirs, hay-küy salmaq kimi reaksiyaların onu alçaldacağını bilən insanlar alacaq. Beləliklə, insanlar və cəmiyyətlərə rahatlıq və etimad duyğusu hakim olar, hər kəs həyatından və sahib olduqlarından razı qalar. Odur ki, insanlardan gizlədilən bu həqiqətin insanlara və cəmiyyətlərə qazandıracağı nemətlərin bir qismi bunlardır. Bu həqiqətin bilinməsi, düşünülməsi və yaşanması ilə birlikdə insanlar daha bir çox gözəlliklərə qovuşarlar. Bu gözəlliklərə qovuşmaq istəyən şəxslər bu böyük həqiqəti yaxşı düşünməli və anlamağa çalışmalıdırlar. Allah bir ayəsində belə bildirir:

**De: “Rəbbinizdən sizə göz qabağında olan dəlillər gəlmişdir. Kim onları görsə,**

**xeyri onun özünə, kim kor olsa zərəri onun öz əleyhinə olar... (Ənam surəsi, 104)**

# Nəticə

Buraya qədər izah etdiyimiz mövzu həyatınız boyu sizə izah edilmiş ən böyük həqiqətlərdən biridir. Maddənin xarici dünyada olan əsli ilə heç vaxt təmasda olmadığımızı sübut edən bu mövzu, Allahın varlığının və yaratmasının dərk edilməsinin, Onun yeganə mütləq varlıq olmasının başa düşülməsinin açarıdır

Bu mövzunu dərk edən insan, dünyanın, insanların çoxunun güman etdiyi kimi bir yer olmadığını görər. Dünya, prospektlərdə məqsədsiz şəkildə gəzənlərin, barlarda savaşanların, lüks kafelərdə bir-birlərinə göstəriş edənlərin, mallarıyla öyünənlərin, həyatlarını boş məqsədlərə həsr edənlərin hesab etdiyi kimi əslini bildiyimiz, mütləq bir yer deyil. Bizim dünyaya aid bütün biliklərimiz, beynimizdə gördüyümüz surəti çıxarılmış görüntülərdən ibarətdir. Saydığımız insanların hamısı, bu görüntüləri zehinlərinin içində seyr edən kölgə varlıqdırlar, amma bunu bilmirlər.

Bu mövzu çox əhəmiyyətlidir və Allahı inkar edən materialist fəlsəfəni tam təməlindən çökdürür. **Marks, Engels, Lenin** kimi materialistlərin bu mövzunu eşitdiklərində təşvişə qapılmaları, hirslənmələri, tərəfdarlarını "əsla düşünməyin" deyə xəbərdar etmələri buna görədir. Əslində bu kəslər, hisslərin beyində meydana gəldiyi həqiqətini belə qavraya bilməyəcək qədər böyük bir ağıl zəifliyi içindədirlər. Beyinlərinin içində seyr etdikləri dünyanı "xarici dünya" hesab edir, bunun əksini göstərən açıq-aydın dəlilləri isə heç cür anlaya bilmirlər.

Bu qəflət, Allahın inkarçılara verdiyi ağıl çatışmazlığının bir nəticəsidir. Çünki Quranda bildirildiyinə görə, inkarçıların **"...qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır".** (Əraf surəsi, 179)

Yaşadığımız dövrdə isə bəhs olunan həqiqət, elmin ortaya qoyduğu dəlillərlə konkret şəkildə sübut edilə biləcək hala gəlmişdir. Kainatın xarici dünyada olan əsliylə təmasda olmadığımız həqiqəti, dünya tarixində ilk dəfə bu cür konkret, açıq və aydın bir şəkildə izah edilir. Bu səbəblə də **21-ci əsr**, insanların geniş şəkildə İlahi həqiqətləri qavrayacaqları və tək mütləq varlıq olan Allaha dəstə-dəstə yönələcəkləri **tarixi bir dönüş nöqtəsi olacaq**. 21-ci əsrdə 19-cu əsrin materialist inancları tarixə quylanacaq, Allahın varlığı və yaratması qavranacaq, məkansızlıq, zamansızlıq kimi həqiqətlər başa düşüləcək, bəşəriyyət əsrlərdir ki, gözünün önünə çəkilən pərdələrdən, yalanlardan və batil inaclardan xilas olacaq.

# GÖZÜMÜZÜN ÖNÜNDƏKİ MÖCÜZƏLƏR

*Biz göyü, yeri və onların arasında olanları əyləncə üçün və əbəs yerə yaratmadıq. Biz onları əsl həqiqət kimi yaratdıq. Lakin insanların çoxu bilmir.*

*(Duxan surəsi, 38-39)*

Kitabımızın əvvəlki hissələrində bir nümunə vermiş və "birdən-birə" yaranan bir insandan danışmışdıq. Bu insanın, özünə və ətrafındakı mühitə nə qədər böyük bir heyrətlə və heyranlıqla baxacağını xatırlatmışdıq və sizin vəziyyətinizin də bu adamınkından əslində heç bir fərqinin olmadığını, ancaq vərdişlər nəticəsində, təəccüblənməyi, heyrətlənməyi, mükəmməllikləri hiss etməyi unutmuş ola biləcəyinizi vurğulamışdıq. Digər bir sözlə, bir çox insanın gözünün önündəki möcüzələri görə bilmədiyini ifadə etmişdik.

Quran ayələrində diqqət çəkilən mövzuların başında da, bu düşünmə tənbəlliyinin və vərdişlərdən qaynaqlanan laqeydliyin yox edilməsi gəlir. Quranda, iman etmək üçün möcüzə gəlməsini gözləyən və beləliklə, doğru yoldan sapan qövmlərdən danışılarkən, onsuz da ətrafımızın tamamilə "möcüzəvi" hadisələrlə dolu olduğu bildirilər.

Quranda insanlar bir çox ayəylə təbiəti araşdırmağa və "Allahın varlıq dəlillərini"ni görməyə çağırılar. Çünki bütün təbiət, bütün kainat "yaradılmış" olduqlarını göstərən işarələrlə doludur və özlərini yaradan Uca Allahın güc, bilik və sənətini göstərmək üçün mövcuddurlar. İnsan, ağlından istifadə edərək bu işarələri görmək və Allahı tanımaqla məsuldur.

Biz bu hissədə Allahın yaratdığı canlılar arasında, Quranda adları verilərək diqqət çəkilən bir neçə nümunədən danışacağıq.

# AĞCAQANAD

**Həqiqətən, Allah ağcaqanadı və ondan da üstün olanı məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən gələn haqdır. Küfr edənlər isə deyirlər: “Bu məsəllə Allah nə demək istədi?” Halbuki O bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır. (Bəqərə surəsi, 26)**

Ağcaqanad demək olar ki, hər insanın "ülfət"lə baxdığı (ülfəti, "əslində fövqəladə və təəccübləndirəcək xüsusiyyətdəki şeyləri, yaranan vərdişdən ötrü normal qarşılamaq, təəccüblənməmək, heyrətlənməmək və heyrətlənə bilməmək" kimi tərif edə bilərik), əhəmiyyət vermədiyi, mükəmməlliyini düşünmədiyi və "adi" bir şey kimi gördüyü bir varlıqdır. Amma əslində bu kiçik canlıya Allah ayələrdə diqqət çəkmişdir.

## Ağcaqanadın fövqəladə macərası

Ümumiyyətlə ağcaqanadlar barəsində bilinən məlumat qanla bəslənmələridir. Halbuki bu, o qədər də doğru məlumat deyil. Çünki ağcaqanadların hamısı deyil, təkcə dişiləri qan sorar. Həmçinin dişilər qidalanmaqdan ötrü qan sormazlar. Əslində həm dişilərin, həm də erkəklərin qidaları çiçək nektarıdır. Erkəklərdən fərqli olaraq, dişilərin qan sormalarının yeganə səbəbi, daşıdıqları yumurtaların yetkinləşmək üçün qanda olan zülallara ehtiyac duymasıdır. Digər bir sözlə, dişi ağcaqanad yalnız növünün kəsilməməsi üçün qan sorar.

Ağcaqanadın ən inanılmaz və heyranlıq oyandırıcı xüsusiyyətlərindən biri inkişaf müddətidir. Heyvan, çox fərqli mərhələlərdən keçərək kiçicik bir sürfədən ağcaqanada çevrilər. Bu inkişafın əhvalatı qısaca olaraq belədir:

Dişi ağcaqanad, qanla qidalanan və yetkinləşən yumurtalarını, yaz və ya payız aylarında, nəmli yarpaqların üstünə və ya qurumuş gölməçələrə buraxar. Ana ağcaqanad əvvəlcə qarnının alt hissəsindəki həssas reseptorların köməyi ilə zəmində yumurtalar üçün əlverişli şəraitlər axtarar. Lazımi xüsusiyyətlərə sahib bir yer tapdığı vaxt yumurtlamağa başlayar. Uzunluqları 1 millimetrə də çatmayan yumurtalar tək-tək və ya qruplar halında olmaqla sırayla düzülər. Bəzi növlər isə yumurtalarını bir sal meydana gətirirmiş kimi bir-birinə yapışmış şəkildə buraxarlar. Bu yumurta qruplarının bəzilərində 300 qədər yumurta olar.

Ana ağcaqanadın diqqətlə yerləşdirdiyi ağ rəngli yumurtalar dərhal tündləşməyə başlayar və iki saat ərzində tamamilə qapqara qaralarlar. Bu tünd rəng, onların böcəklər və quşlar tərəfindən görünmələrinə mane olduğundan yumurtaları əhəmiyyətli dərəcədə qoruyur.

Kürt yatma dövrünün bitməsi üçün bir qış keçməlidir. Yumurtalar uzun və soyuq bir qışa dözə biləcək quruluşda yaradıldıqlarından yaz gəlib kürt yatma dövrü bitənədək zərər görmədən canlılıqlarını qoruyarlar.

## Yumurtadan çıxış

Kürt yatma dövrü tamamlandığında ağcaqanad sürfələri demək olar ki, eyni vaxtda yumurtadan çıxmağa başlayarlar. Əvvəlcə birinci sonra isə tezliklə digər yumurtalar çatlayar. Sonra da bütün sürfələr suda üzməyə başlayar. Fasiləsiz surətdə bəslənən sürfələr sürətlə böyüyər. Qısa müddət ərzində dəriləri daha çox böyümələrinə mane olacaq şəkildə gərilər. Bu, ilk dəri dəyişmə vaxtının gəldiyini göstərir. Olduqca möhkəm və kövrək olan dəri asanlıqla soyular. Ağcaqanad sürfəsi öz inkişafını tamamlayanadək iki dəfə daha dəri dəyişdirəcək.

Sürfələrin bəslənməsi üçün yaradılmış üsul olduqca diqqət çəkicidir. Sürfələr, tüklərdən yaranan yelpik formasındakı iki uzadılma ilə su içində kiçik burulğanlar meydana gətirərək, bakteriya və digər mikroorqanizmlərin ağızlarına doğru hərəkət etmələrini təmin edərlər. Sürfə, dalğıcların istifadə etdiyi "snorkelinq"ə bənzər bir hava şlanqıyla tənəffüs edər. Su içində başıaşağı vəziyyətdə dayanarlar. Bədənlərinin ifraz etdiyi yapışqan bir ifrazat, suyun hava dəliklərindən içəri girməsinə də maneə olar. Bir sözlə, heyvan, bir çox həssas tarazlığın bir yerdə işləməsi sayəsində yaşayır. Hava şlanqı olmasa heyvan yaşaya bilməz, yapışqan ifrazat olmasa şlanq tıxanar.

Aradan keçən müddət ərzində sürfələrin əksəriyyəti, dərilərini yenidən dəyişdirmişlər. Son dəri dəyişdirmə əməliyyatı digərlərindən olduqca fərqlidir. Sürfələr artıq əsl bir ağcaqanad olmaq üçün son mərhələ olan "pup" fazasına daxil olmuşlar. Sürfənin dərisinin içində kifayət qədər inkişaf edən pupun artıq bu qılafdan xilas olma vaxtı gəlib çatmışdır.

Qılafın içindən elə fərqli bir canlı çıxar ki, bunların eyni canlının fərqli inkişaf mərhələləri olduğuna inanmaq çətindir və bu dəyişmə, nə sürfənin, nə anasının, nə də başqa bir canlının həyata keçirə bilməyəcəyi qədər kompleks və həssas bir əməliyyatdır.

Bu son dəyişmə əsnasında bir boru vasitəsilə suyun üstünə uzanmış olan hava dəlikləri bağlanacağından, heyvan havasız qalma təhlükəsiylə üz-üzə gələr. Amma yeni

çıxan canlı artıq bu kanaldan deyil, baş tərəfində meydana gələn iki boru vasitəsilə tənəffüs edəcək. Buna görə də qılaf dəyişdirməyə başlamadan əvvəl bunlar suyun səthinə çıxarlar. Üç-dörd gün davam edən pup fazasında heç qidalanmazlar.

Pupun içindəki ağcaqanad artıq olduqca inkişaf etmiş və son şəklini almışdır. Bir antena formasındakı bığcıqları, xortumları, ayaqları, döş qəfəsi, qanadları, qarnı və başının böyük hissəsini əhatə edən gözləri ilə ağcaqanad artıq uçmağa hazırdır.

Pup baş tərəfdən yırtılar. Həqiqi bir ağcaqanadın meydana çıxacağı bu mərhələ, ölüm təhlükəsi ən yüksək olan mərhələdir. Bu mərhələdəki ən böyük təhlükə pupun içinə su girməsidir. Ancaq yırtılan baş tərəf, ağcaqanadın başının su ilə təmas etməsinə mane olacaq yapışqan maye ilə örtülmüşdür.

Ağcaqanad suya dəymədən pupdan çıxmaq məcburiyyətindədir. Suyun səthinə yalnız ayaqları dəyər. Bu an çox əhəmiyyətlidir, çünki zəif bir külək onu məhv edə bilər. Pupdan çıxan ağcaqanad yarım saat dincəldikdən sonra ilk uçuşuna başlayar.

Canlı, artıq suya dəymədən suyun içindən çıxmışdır...

Görüldüyü kimi, olduqca incə xüsusiyyətlərə sahib bir quruluş sayəsində ağcaqanad yumurtaları ağcaqanada çevrilə bilirlər. Hər mərhələdə olduqca təfərrüatlı bir yaradılış vardır. Sürfələrin nəfəs almalarını təmin edən hava şlanqları, suyun içəri girməsinə mane olan yapışqan maye və daha bir çox təfərrüat ağcaqanaddakı qüsursuz yaradılışı göstərər. Bu yaradılış necə baş vermişdir? Təkamülçülərə görə ağcaqanadlar təsadüflər nəticəsində meydana gəlmişdirlər. Əlbəttə ki, bu iddia qarşısında bu sualı vermək lazımdır: Görəsən ilk ağcaqanad necə olub da, belə bir çevrilmə "qabiliyyətinə" sahib olmuşdur? Bir sürfə, öz-özünə, üç dəfə dəri dəyişdirib bir ağcaqanada çevrilməyə necə "qərar" vermişdir? Ağcaqanadın bunu düşünəcək ağla sahib olması mümkündürmü?

Əlbəttə ki, xeyr. Ağcaqanadların belə bir şeyi düşünmələri qeyri-mümkündür. Aydındır ki, Allahın Quranda nümunə olaraq verdiyi bu heyvan xüsusi olaraq belə yaradılmışdır.

## Ağcaqanadın istilik reseptorları

Ağcaqanadlar, olduqca həssas istilik reseptorlarıyla təchiz edilmişdirlər. Ətraflarındakı varlıqları, istiliklərinə görə rəng-rəng qəbul edə bilərlər. Bu proses işıqdan asılı olmadığı üçün, qaranlıq bir otaqda belə qan damarlarını asanlıqla taparlar.

Ağcaqanadın istilik reseptorları, 1/1000 dərəcəlik temperatur dəyişikliklərini belə hiss edəcək həssaslıqdadır.

# Ağcaqanadın "qan sorma" texnikası

Hədəfin üstünə qonan ağcaqanad, xortumundakı dodaqcıqlar (latınca; labellum) vasitəsilə əvvəlcə bir nöqtə seçər. Heyvanın şprisə bənzəyən iynəsi xüsusi bir qılafla mühafizə olunmuşdur. Qan sorma əməliyyatı əsnasında bu qılaf iynədən ayrılar.

Dəri, zənn edildiyi kimi iynənin batırılması üsuluyla deşilməz. Bu məqamda vəzifə, bıçaq itiliyindəki üst çənə və üzərində arxaya tərəf meyilli dişlərin yerləşdiyi alt çənəyə düşür. Alt çənə mişar kimi irəli-geri hərəkət edər və dəri üst çənənin köməyi ilə sanki kəsilər. Açılan yarıqdan içəri soxulan iynə qan damarına çatdıqda deşmə əməliyyatına son verilər. Canlı artıq qan sormağa başlayacaq.

Ancaq məlumdur ki, insan bədəni, damarlardakı ən kiçik bir zədələnmə nəticəsində qanı dərhal laxtalandıraraq, o nahiyədəki qan axımını dayandıran bir fermentə malikdir. Əslində bu ağcaqanad üçün böyük bir problem yaratmalıdır. Çünki onun açdığı kiçik dəliyə də bədən dərhal reaksiya verəcək, dərhal qan laxtalanacaq və bərpa əməliyyatı başlayacaq. Əlbəttə ki, bu da ağcaqanadın heç qan sora bilməməsi deməkdir.

Amma ağcaqanad üçün bu problem aradan qaldırılmışdır. Canlı qan sormağa başlamadan, bədənində ifraz etdiyi xüsusi bir mayeni insanın damarında açdığı dəlikdən içəri ötürər. Bu maye, qandakı laxtalanmanı təmin edən fermenti təsirsiz hala gətirər. Beləliklə də, laxtalanma problemi olmadan, ağcaqanad özünü qidayla təmin edə bilər. Ağcaqanadın sancdığı yerdə əmələ gələn qaşınmaya və şişməyə səbəb olan da, məhz laxtalanmanın qarşısını alan bu mayedir.

Şübhəsiz ki, bu inanılmaz bir əməliyyatdır və qarşımıza bu sualları çıxarır:

1) Ağcaqanad insan bədənində belə laxtalandırıcı ferment olduğunu haradan bilir?

2) Bu fermentə qarşı öz bədənində bir ifrazat hazırlaması üçün, fermentin tərkibini (kimyəvi quruluşunu) bilmək məcburiyyətindədir. Bu necə ola bilər?

3) Bunu bilsə belə, öz bədənində belə bir ifrazat hazırlayıb, bunu iynəsinə köçürəcək "texniki təchizat"ı necə meydana gətirmiş ola bilər?

Əslində bu sualların cavabı sadədir: Ağcaqanad bunların heç birini bacara bilməz. Nə bunun üçün zəruri olan ağla, nə kimya məlumatına, nə də ifrazatı hazırlayacaq "laboratoriya" təchizatına malikdir. Bəhs etdiyimiz varlıq, bir neçə millimetr böyüklüyündə tamamilə şüursuz bir ağcaqanaddır, məhz bu qədər!...

Ağcaqanadı, belə inanılmaz, fövqəladə və heyrət oyandırıcı bir sistemin sahibi edən isə, "göylərin, yerin və onlar arasındakıların Rəbbi olan" Allahdır.

# BAL ARISI

**Rəbbin bal arısına belə vəhy etdi: “Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör. Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get”. O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Nəhl surəsi, 68-69)**

Arıların hazırladığı bal dediyimiz maddənin insan bədəni üçün nə qədər əhəmiyyətli bir qida maddəsi olduğu artıq demək olar ki, hamı tərəfindən bilinir. Bəs bu qiymətli qida maddəni hazırlayan arının təfərrüatlı əhvalatını heç düşünmüşdünüzmü?

Arıların qida mənbəyi məlum olduğu kimi çiçək nektarıdır. Ancaq qış aylarında çiçək nektarı tapmaları qeyri-mümkündür. Bu səbəblə də, topladıqları çiçək nektarlarını öz bədənlərindəki xüsusi ifrazatlarla qarışdıraraq, yeni bir qida maddəsini, yəni balı hazırlayar və bunu qış üçün tədarük edərlər.

Burada diqqət çəkən məqam, arıların, öz ehtiyaclardan qat-qat artıq bal tədarük etmələridir. Əlbəttə ki, ağla gələn ilk sual, arı üçün yersiz zaman və enerji itkisi kimi görünən bu; "həddən artıq istehsal"dan nə üçün imtina edilməməsidir? Bu sualın cavabı isə, yuxarıda yer verdiyimiz Nəhl surəsinin 68-ci və 69-cu ayələrində bildirilən, arının aldığı "vəhy"də gizlənmişdir. Arılar da digər bütün canlılar kimi Allahın vəhyi ilə hərəkət edərlər.

Arılar, yaradılışlarının gərəyi olaraq yalnız özləri üçün deyil, insanlar üçün də bal hazırlayırlar. Yer üzündəki bir çox canlı kimi arılar da insanların xidmətinə verilmişdir. Eynilə hər gün özünə o qədər də fayda verməməsinə baxmayaraq, ən azı bir yumurta verən toyuq və ya balasının ehtiyacından qat-qat artıq süd verən inək kimi...

## Şandakı mükəmməl təşkilatlanma

Arıların şan içindəki həyatları və bal hazırlamaları da olduqca heyrətləndirici incəliklər ehtiva edir. Arıların şanda görmələri lazım olan çox sayda "iş" vardır və mükəmməl bir təşkilatlanmayla bu işlərin öhdəsindən gəlirlər:

**Rütubətin nizamlanması və ventilyasiya:** Bal üçün, əhəmiyyətli dərəcədə qoruyucu xüsusiyyət kəsb edən şan içindəki rütubət nisbəti daim müəyyən səviyyədə olmalıdır. Şanın içindəki rütubət normadan az və ya çox olduqda bal, həm qidalandırıcı, həm də

qoruyucu xüsusiyyətini itirəcək, yəni xarab olacaqdır. Eynilə şandakı temperatur da 10 ay ərzində tam $32^0$ olmalıdır. Şandakı temperatur və rütubət miqdarını daimi olaraq lazımi səviyyədə saxlamaq vəzifəsi xüsusi bir "ventilyator qrupu"na verilmişdir.

İsti bir gündə arıların şanların havasını dəyişdirdikləri asanlıqla görülə bilər. Şanın giriş hissəsi arılarla dolar və onlar, elə bil, zəminə yapışıb qalar və qanadlarıyla şanı yelpikləyər. Beləliklə, şandakı hava, arılar tərəfindən bir tərəfdən girib o biri tərəfdən çıxmağa məcbur edilir. Şanın içində yelpikləyən əlavə arılar havanı dörd bir tərəfə qovar.

Şanın içindəki ventilyasiya sisteminin digər bir faydası da, şanı tüstüdən və hava çirkliliyindən qorumasıdır.

**Sağlamlıq sistemi**: Arıların balın xüsusiyyətinin korlanmaması üçün göstərdikləri səy yalnız temperatur və rütubəti nizamlamaqla məhdudlaşmır. Şanda, bakteriyaların törəməsinə səbəb olan bütün hadisələri nəzarət altında saxlamaq üçün mükəmməl bir sağlamlıq sistemi işlədilər. Bu sistem ilk növbədə bakteriya əmələ gətirməsi ehtimalı olan maddələrin yox edilməsini hədəfləyər. Arıların sağlamlıq sisteminin təməl prinsipi kənar maddələrin şana girməsinin qarşısını almaqdır. Bu səbəblə də, şanın girişində daim iki növbətçi saxlanılar. Bu tədbirə baxmayaraq, arılar, içəri yad bir böcək və ya yad bir cisim girdikdə, bunun ən qısa vaxtda şandan kənarlaşdırılması üçün səfərbər olarlar.

Şandan kənara atıla bilməyəcək böyüklükdəki yad cisimlərdən ötrü isə, başqa bir qorunma mexanizmi dövrəyə girər. Arılar belə vəziyyətlər üçün "propolis" adı verilən bir maddə hazırlayarlar. Bunu, şam, qovaq, akasiya kimi ağaclardan yığdıqları qatranlara, bəzi xüsusi ifrazatlar əlavə edərək edərlər. Propolisin xüsusiyyəti, içinə bakteriyaların sığına bilməməsidir. Çöldən şana girmiş canlılar propolislə sarılarlar və beləliklə də, bir cür mumiyalanaraq şandakı mühitdən təcrid olunmuş olarlar.

Arıların bu davranışlarıyla əlaqədar əvvəlcə bu məqama diqqət çəkməkdə fayda vardır: Arılar, canlılar öldükləri vaxt, bədənlərinin sıradan çıxacağını və əmələ gələn maddələrin şandakı canlılara zərər verə biləcəyini bilirlər. Həmçinin bu korlanmanın qarşısını almaq üçün ölən canlı üzərində xüsusi kimyəvi əməliyyatların aparılmasının lazım olduğunu da bilirlər. Mumiyalama əməliyyatı üçün də özündə bakteriya saxlamamaq xüsusiyyətinə sahib bir maddə olan propolisdən istifadə edirlər.

Bura qədər sadalanmış məlumatlar əsasında düşünərək bu sualları verək: Görəsən arılar bir canlıda meydana gələ biləcək korlanmaları və bu korlanmanın zərərli təsirlərini necə yox edə biləcəklərini haradan bilirlər? Üstəlik, təkcə bunları bilməklə kiyafətlənməyib, propolis kimi bir maddədən istifadə etməyə başlamağı necə dərk etmiş ola bilərlər? Arılara bunu öyrədən kimdir? Arılar bu maddəni necə kəşf etmişlər? Formulunu necə tapıb, necə hazırlamağa başlamışdırlar? Bu formula aid məlumatı digər

koloniya üzvlərinə və özlərindən sonra gələn nəsillərə necə ötürmüşlər?

Mumiyalama əməliyyatı, antiseptik maddənin tərkibi və hazırlanması və ya hansı yerlərdə istifadə ediləcəyi kimi mövzularda arıların həm məlumat sahibi ola bilməyəcəyi, həm də bədənlərində bunları hazırlaya biləcəkləri bir sistemi, özlərinin meydana gətirə bilməyəcəkləri aydındır. Bütün bunları arılar öz-özlərinə fikirləşib tapa bilməzlər. Hər mərhələsində müəyyən ağıl və məlumat tələb edən bu əməliyyatları, arılar təsadüfən də öyrənməmişdirlər. Çünki təsadüflər, şüurlu və ağıllı hərəkətlər meydana gətirə bilməzlər.

Bunlar, bütün bu əməliyyatların necə həyata keçiriləcəyini arılara başqa biri tərəfindən öyrədilmiş olduğunu göstərir. Bütün bu məlumatları arılara ilham edən, yaradıcıları olan Allahdır. Yer üzündəki hər şey kimi arılar da Məlik (bütün kainatın sahibi və mütləq hökmdarı) olan Allaha boyun əymişlər:

**Haqq Məlik olan Allah hər şeydən ucadır! Ondan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. O, şanlı Ərşin Rəbbidir. (Muminun surəsi, 116)**

## Ən az vəsaitlə ən çox tədarük

Balarıları kiçik arı mumu parçalarına forma verərək, 30 000 arının yaşaya biləcəyi və birlikdə işləyə biləcəyi şanlar inşa edə bilərlər.

Şan, hər bir üzündə yüzlərlə kiçik pətək gözü olan, divarı da arı mumundan hörülmüş pətəklərdən ibarətdir. Bütün pətək gözləri tamamilə eyni böyüklükdədir. Bu mühəndislik möcüzəsi, minlərlə arının birlikdə işləməsiylə ortaya çıxar. Arılar, bu pətək gözlərindən qida maddələrini ehtiyyatda saxlamaq və gənc arıların baxımı üçün istifadə edərlər.

Balarıları, pətək gözlərini milyonlarla ildir ki, (100 milyon il bundan əvvələ aid arı qalığı tapılmışdır) altıbucaqlı formada inşa edir. Görəsən niyə səkkizbucaqlı və ya beşbucaqlı kimi həndəsi formalar deyil, əksinə xüsusi olaraq altıbucaqlı forma seçilmişdir? Riyaziyyatçılar bu sualı belə cavablandırır: Vahid sahədən maksimum istifadə etmək üçün ən uyğun həndəsi forma altıbucaqlıdır. Pətəklər altıbucaqlı əvəzinə başqa bir formada inşa edilsəydi, istifadəsiz yerlər meydana çıxacaq, beləliklə, daha az bal tədarük edilə biləcək və şandan daha az sayda arı faydalanacaqdı.

Dərinlikləri eyni olduğu təqdirdə, üçbucaqlı və dördbucaqlı pətək gözlərində də altıbucaqlı pətək gözlərindəki qədər bal saxlanıla bilərdi. Ancaq bu həndəsi formalardan ətrafı ən qısa olan altıbucaqlıdır. Eyni həcmə malik olmasına baxmayaraq,

altıbucaqlı pətək gözləri üçün istifadə edilən vəsait üçbucaqlı və ya dördbucaqlı pətək gözləri üçün istifadə ediləndən daha azdır.

Bu vəziyyətdə bu nəticəyə gəlinər: Altıbucaqlı pətək gözü, ən yüksək miqdarda bal tədarük etməklə yanaşı, inşası üçün ən az bal mumu tələb edən həndəsi formadır. Mürəkkəb həndəsi əməliyyatlardan sonra əldə olunan bu nəticə, əlbəttə ki, arılar tərəfindən hesablanmamışdır. Bu kiçik heyvanlar altıbucaqlı formadan, yaradılışlarının gərəyi olaraq, yalnız özlərinə öyrədildiyi, digər bir sözlə "vəhy edildiyi" üçün istifadə edirlər.

Arıların altıbucaqlı pətək gözləri hər cəhətdən işəyararlı bir dizayndır. Pətək gözləri arasında ahəngdarlıq vardır və divarları ortaqdır. Bu, yenə ən az arı mumuyla, ən yüksək miqdarda qida tədarük etməyə imkan verər. Olduqca nazik olmalarına baxmayaraq pətək gözləri, öz kütlələrinin bir neçə mislindəki ağırlıqları daşıya biləcək gücdədirlər.

Arılar pətək gözlərinin yan səthləriylə yanaşı, dib tərəflərini də inşa edərkən ən yüksək qənaət qanununu nəzərə alarlar.

Pətəklər, kürək kürəyə vermiş iki sıradan ibarət bir dilim şəklində inşa edilər. Belə olduqda, iki pətək gözününü birləşmə nöqtəsi kimi bir problem ortaya çıxacaq. Bu problem, pətək gözü oturacaqlarının, üç rombun birləşdirilərək inşa edilməsiylə həll edilmişdir. Pətəyin bir üzündə üç pətək gözü inşa edilməsi, oturacağın qarşı üzündə avtomatik şəkildə bir pətək gözü oturacağının öz-özünə inşa edilmiş olması deməkdir.

Oturacaq romb formasındakı arı mumu təbəqələrindən ibarət olduğundan, bu üsulla inşa edilən pətək gözlərinin dib tərəfində aşağıya doğru dərinləşmə görülər. Bu hüceyrənin həcminin, dolayısilə ehtiyyatda saxlanılacaq balın miqdarının artması deməkdir.

Bura qədər izah edilənlərdən də görüldüyü kimi altıbucaqlı forma, bir pətəyin hörülməsi üçün ən ideal formadır. Bu məqamda cavablandırılmalı olan bir sual ortaya çıxır: Arılar altıbucaqlının ən ideal forma olduğunu haradan bilirlər?

Pətəklərdəki bu qüsursuz dizayn nümunəsinin arılar tərəfindən xəyali təkamül prosesində yavaş-yavaş meydana gətirilə bilməyəcəyini anlamaq üçün təkcə sağlamfikirli bir insan olmaq kifayətdir. Bir arının bir gün beşbucaqlı pətək inşa edib, daha sonrakı gün üçbucaqlı formanı sınaqdan keçirib, bir müddət belə davam edib, daha sonrakı günlərdə, illərdə və ya əsrlərdə isə altıbucaqlı formanın pətək inşasında ən səmərəli forma olduğunu anlayıb, pətəyi daim belə inşa etməyə qərar verdiyi ssenarisini düşünmək belə olduqca axmaq bir hərəkətdir. Belə bir şeyi iddia etmək, arıların ən azı insanlar qədər ağıl və şüur sahibi varlıqlar olduğunu iddia etməkdir. Belə ki, bu iddianın

qəbul edilməsi də ağıl və vicdan baxımından qeyri-mümkündür.

Arıları Allah yaratmışdır. Təkamül prosesindən keçməmişdirlər. Heç bir şəkildə dəyişikliyə məruz qalmamışdırlar. Müasir dövrdə də, ilk yaradıldıqları andakı xüsusiyyətlərinə sahibdirlər.

## Pətək gözlərinin digər xüsusiyyətləri

Balarılarının pətək inşası əsnasında diqqət yetirdikləri digər bir xüsusiyyət, pətək gözlərinin meylliyidir. Gözlər hər iki tərəfə doğru 13 dərəcə yüksəldilərək yerə tam paralel olmalarının qarşısı alınar. Beləliklə, bal, ağız hissədən axıb getməz.

İşçi balarıları işləyərkən, elə bil, bir-birinə keçmiş halqalar kimi salxım forması halında bir yerə cəmləşərlər. Buradakı məqsəd, arı mumunun hazırlanması üçün zəruri olan 35$^{0}$C-lik temperaturun təmin edilə bilməsidir. Arılar qarınlarındakı torbacıqlardan şəffaf bir maye çıxardarlar. Bu maye, çölə axar və ağ rəngli, nazik arı mumu təbəqələrini möhkəmlədər. Arılar da arı mumunu ayaqlarındakı kiçik qarmaqlarla toplayarlar. Daha sonra arı mumunu ağızlarına qoyar, yumşalana qədər ağızlarında əməliyyatdan keçirər və ona pətəklərdə forma verərlər. Bir çox arı birlikdə hərəkət edərək, arı mumunun yumşaq və istifadəyə yararlı vəziyyətdə qalması üçün, iş prosesi gedən yerin temperaturunun tam istənilən səviyyədə qalmasını təmin edər.

Pətəyin inşasında çox maraqlı bir məqam daha vardır: Pətəyin inşasına şanın yuxarı hissəsindən başlanılar və eyni anda iki-üç cərgə aşağı doğru hörülər. Bir pətək dilimi hər iki tərəfə doğru genişləyərkən, əvvəlcə ehtiva etdiyi iki sıranın oturacaqları birləşər. Bu iş çox münasib və nizamlı şəkildə baş tutar. Belə ki, pətəyin bir-birindən fərqli iki və ya üç hissədən hazırlandığını görmək qeyri-mümkündür. Eyni vaxtda müxtəlif uclardan hörülən pətək dilimləri o qədər düzgün formaya malikdirlər ki, pətəklər yüzlərlə bucaq ehtiva etməsinə baxmayaraq, tək hissədən ibarət bir quruluş təəssüratı verərlər.

Bunun meydana gələ bilməsi üçün, arılar, başlanğıc və birləşmə nöqtələri arasındakı məsafələri əvvəlcədən hesablayıb, pətək gözlərinin ölçülərini onun əsasında planlaşdırmalıdırlar. Minlərlə arının belə bir şeyi bacara bilməsi, elm adamlarını heyrətə gətirir.

Görüldüyü kimi pətəklərin hörülməsiylə əlaqədar təfərrüatlar olduqca çoxdur. Pətəyin xüsusi olaraq hazırlanmış bir quruluş olduğu açıq şəkildə görülür. Belə bir quruluşun təsadüf nəticəsində meydana gəldiyini düşünmək isə olduqca axmaq bir hərəkət olacaq. Arıların həyatlarındakı hər mərhələ Allahın sonsuz qüdrətinin və

yaratma gücünün bir təcəllisidir.

## Arılar gedəcəkləri istiqaməti necə müəyyənləşdirirlər?

Arılar qida əldə edə bilmək üçün, çox vaxt uzaqlara gedərək geniş əraziləri axtarmaq məcburiyyətində qalarlar. Şanlarından 800 metr məsafəyə qədər uzanan bir sahədə, tarla çiçəklərindən nektar və tozcuq toplayarlar. Çiçəkləri tapan arı, bunların yerini digər arılara xəbər vermək üçün şanına qayıdar. Ancaq bu arı, şandakı dostlarına çiçəklərin yerini hansı yolla başa salacaq?

Rəqs yoluyla!... Şana qayıdan arı bir növ rəqs etməyə başlayar. Bu rəqs, digər arıların çiçəklərin yerini tapa bilmələri üçün istifadə edilən bir izahat yoludur. Arının təkrar etdiyi rəqs, digər arılara hədəfə çatmaq üçün lazım olan istiqamət, uzaqlıq kimi bütün məlumatları əskiksiz şəkildə verər.

Rəqs, arının dayanmadan çəkdiyi "8" rəqəmi formasından ibarətdir. Arı, səkkizin ortasını, quyruq hissəsini titrədərək ziq-zaqlar halında çəkər. Ziq-zaqlı yolun Günəş-şan arasındakı düz xəttlə əmələ gətirdiyi bucaq, tamamilə çiçəklərin olduğu yerin istiqamətini verər.

Təkcə həmin bu yerin istiqamətini bilmək də kifayət etməz. İşçi arılar nektar toplaya bilmək üçün, nə qədər uzağa getməli olduqlarını da "bilməli"dirlər. Şana geri qayıdan arı, digər arılara, yenə müəyyən bədən hərəkətləriylə tozcuqlara olan məsafəni "başa salar". Bunu bədənin alt hissəsini yırğalayıb ani hava axınları meydana gətirərək ifadə edər. Digər arılar da bığcıqlarıyla bu axınları hiss edərək gedəcəkləri qida mənbəyinin uzaqlığını müəyyənləşdirərlər. Məsələn, 250 metr uzaqlıqdakı yeri "təsvir etmək" üçün yarım dəqiqəlik bir müddət ərzində bədəninin alt hissəsini 5 dəfə yırğalayar. Beləliklə də, ifadə edilən bucaq və uzaqlıqla hədəfin yeri konkret şəkildə ifadə edilmiş olar.

Amma mənbəyə gediş-gəliş müddəti böyük vaxt aparan uçuşlarda, arını yeni bir problem gözləyər: Qida mənbəyini yalnız Günəşə görə təsvir etmə qabiliyyətinə sahib olan arı, şana qayıdana qədər, günəş hər 4 dəqiqədə 1 dərəcə yer dəyişdirər. Buna görə də arı, yolda keçirdiyi hər 4 dəqiqə üçün yoldaşlarına verdiyi istiqamətdə bir dərəcə xəta etməsi lazım gəldiyi halda, o heç vaxt belə bir problemlə üzləşməz. Çünki gözü yüzlərlə kiçik altıbucaqlı linzalardan ibarətdir. Hər linza eynilə bir teleskopda olduğu kimi çox dar bir sahəni görər. Günün müəyyən vaxtında Günəşə doğru baxan bir arı, uçarkən daim yerini tapa bilər. Elm adamları arının bu işi, zamana görə günəşin yaydığı

işıq miqdarının dəyişməsindən faydalanaraq etdiyini söyləyirlər. Nəticədə arı, günəş hərəkət etdikcə şanda, verəcəyi istiqamətdə dəyişiklik edərək hədəfin istiqamətini düzgün şəkildə müəyyənləşdirər.

## Çiçək işarələmə üsulu

Bal arıları, bir çiçəyin nektarının daha əvvəl başqa arılar tərəfindən istifadə olunduğunu həmin çiçəyə qonan kimi anlayar və dərhal həmin çiçəyi tərk edərlər. Bu sayədə həm vaxt, həm də enerji itkisinə yol verməzlər. Bəs arı çiçək üzərində araşdırma aparmadan nektarın bitdiyini haradan bilir?

Çünki çiçəkdən faydalanan və nektarından istifadə edən yoldaşları həmin çiçəyin üstünə, özünəməxsus qoxuya malik bir damla buraxaraq, onu işarələyərlər. Onlardan sonra gələn hər hansı bir arı çiçəyə qonan kimi əvvəlcədən buraxılan qoxunu hiss edər və çiçəyin işə yaramaz olduğunu başa düşərək dərhal başqa bir çiçəyə yönələr. Beləliklə də, birdən çox arının eyni çiçək üzərində qalaraq vaxt itirmələrinin qarşısı alınar.

## Bal möcüzəsi

Allahın kiçik bir heyvan vasitəsiylə insanlara bəxş etdiyi balın necə əhəmiyyətli bir qida mənbəyi olduğunu bilirsinizmi?

Bal, fruktoza və qlükoza kimi şəkərlərlə yanaşı maqnezium, kalium, kalsium, natrium xlor, kükürd, dəmir və fosfor kimi minerallara malikdir. Nektar və tozcuqların xüsusiyyətlərinə görə dəyişməklə yanaşı, balda B1, B2, B6, B5, B3 və C vitaminləri var. Həmçinin az miqdarda mis, yod, dəmir və sink də olur. Balın tərkibində bunlardan başqa bəzi hormonlar da vardır.

Bal, Quran ayəsində xəbər verildiyi kimi, "insanlara şəfa" vermə xüsusiyyəti daşıyır. 1993-cü il 20-26 sentyabr tarixləri arasında Çində keçirilən Dünya Arıçılıq Konqresində elm adamlarının bal haqqındakı şərhləri də bunu təsdiqləyir:

Konqresdə müzakirə olunan əsas mövzu arı məhsulları ilə müalicə mövzusu oldu. Xüsusilə də amerikalı elm adamları bal, arı südü, tozcuq və propolisin bir çox xəstəliyi müalicə etdiyini bildirdilər. Rumıniyalı bir həkim balı katarakt xəstələri üzərində sınaqdan keçirdiyini və 2094 xəstədən 2002-sinin (95%) bal sayəsində tam olaraq yaxşılaşdığını dedi. Polşalı həkimlər isə propolisin babasil, dəri və qadın xəstəlikləri kimi bir çox xəstəliyə fayda verdiyini müəyyənləşdirdiklərini bildirdilər. *(Hürriyet, 19*

*oktyabr 1993)*

Elm sahəsində ən qabaqcıl yerləri tutan ölkələrdə arıçılıq və arı məhsulları artıq özlüyündə bir tədqiqat sahəsidir. Balın digər faydaları isə belə sadalana bilər:

**Asanlıqla həzm olunar**: İçindəki şəkərlərin digər bir şəkər növünə (fruktozanın qlükozaya) çevrilə bilmə xüsusiyyəti sayəsində bal, yüksək miqdarda turşu ehtiva etməsinə baxmayaraq, ən həssas mədə tərəfindən belə asanlıqla həzm edilər. Həmçinin bağırsaqların və böyrəklərin daha yaxşı işləməsinə kömək edər.

**Kalorisi azdır**: Balın digər bir xüsusiyyəti də, eyni miqdardakı şəkərlə müqayisədə olduqca şirin olmasına baxmayaraq, bədəni təxminən 40% nisbətində daha az kalori ilə təmin etməsidir. Bədənə yüksək enerji verməsinə baxmayaraq, kökəltməməsi balı üstün bir qida mənbəyi etməyə kifayət edər.

**Sürətlə qana qarışar**: Bal ılıq suyla qarışdırıldığında 7 dəqiqə ərzində qana qarışar. Tərkibində olan sərbəst haldakı şəkərlərdən ötrü beynin işləməsi asanlaşar.

**Qan hazırlanmasına dəstək olar**: Bal, qan hazırlanması üçün bədənin ehtiyac duyduğu enerjinin əhəmiyyətli bir hissəsini təmin edər. Həmçinin qanın təmizlənməsinə də yardım edər. Həm qan dövranını tənzimləyər, həm də onun hərəkətinin asanlaşdırar. Damar sərtləşməsinə qarşı əhəmiyyətli bir qoruyucudur.

**İçinə bakteriya sığına bilməz**: Balın bakteriyaların sığınmasına imkan verməyən xüsusiyyəti "öldürücü təsir" deyə adlandırılar. Aparılan təcrübələr sulandırılmış balın bakteriya öldürücü xüsusiyyətinin saf bala görə iki qat artdığını göstərmişdir. İşin maraqlı cəhəti, arı koloniyasına yeni daxil olacaq tırtılların, özlərinə baxmaqla mükəlləf olan arılar tərəfindən (sulandırılmış balın bu xüsusiyyətini bilirmiş kimi) sulandırılmış balla bəslənməsidir.

**Arı südü**: Arı südü, şandakı işçi arıların hazırladığı maddədir. Çox bəsləyici olan arı südündə şəkər, zülal, yağ və bir çox vitamin olur. Bədənin gücsüz düşdüyü vəziyyətlərdə və toxumaların yaşlanmasından yaranan pozulmalarda istifadə edilər.

# Dəvə

**Məgər onlar dəvənin necə yaradıldığını görmürlər? Göyün necə yüksəldiyini görmürlər? Dağların necə sancıldığını görmürlər? Yerin necə döşədildiyini görmürlər? Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən. (Ğaşiyə surəsi, 17-21)**

Bütün varlıqlar, bütün kainatı olduğu kimi özlərini də yaradan Allahın sonsuz gücünü və elmini göstərirlər. Allah bunu bir çox ayədə bildirir, yaratdığı hər şeyin bir ayə, yəni bir dəlil və ibrət olduğuna daim diqqət çəkir.

Ğaşiyə surəsinin 17-ci ayəsində də, yenə üzərində diqqətlə düşünülməsi və ibrət götürülməsi lazım olan bir heyvandan; "dəvə"dən bəhs edilir.

Aşağıda, Allahın Quranda; **"məgər onlar dəvənin necə yaradıldığını görmürlər?"** ifadəsiylə üzərində düşünməyə dəvət etdiyi bu heyvan haqqında bəzi heyrətləndirici məlumatlar verilmişdir.

**1) İnanılmaz dərəcədə aclıq və susuzluğa dözmə qabiliyyəti**: Dəvə, $50^0$C temperatur altında 8 gün ac-susuz qala bilər. Bu müddət ərzində bədən çəkisinin cəmi 22%-ni itirər. İnsan, öz bədənində olan suyun 12%-ni itirdiyi vaxt öldüyü halda, dəvə, bədənindəki suyun 40%-ni itirdiyi halda ölməz. Dəvənin susuzluğa dayana bilməsinin digər bir səbəbi də, gündüzlər bədən temperaturunu $41^0$C-yə qədər yüksəldən bir mexanizmə sahib olmasıdır. Bu sayədə gündüzlər qızmar səhrada su itkisini minimum səviyyədə saxlaya bilir. Soyuq səhra gecələrində isə bədən temperaturunu $30^0$C-yə qədər aşağı sala bilir.

**2) Mükəmməl su istifadəsi vahidi**: Dəvələr, 10 dəqiqədə bədən ağırlıqlarının üçdə biri nisbətində su içərlər. Bu miqdar bəzən 130 litrə çata bilir. Bununla yanaşı dəvə, insanla müqayisədə 100 qat daha geniş bir sahəni əhatə edən bir burun selikli qişasına malikdir. Heyvan, çox böyük və qıvrımlı burun selikli qişası sayəsində, havadakı rütubətin 66%-ni tuta bilir.

**3) Qidalardan və sudan maksimum istifadə**: Heyvanların çoxu böyrəklərində yığılan sidik cövhəri qana qarışdığı anda zəhərlənərək ölər. Halbuki, dəvə, bədənində əmələ gələn sidik cövhərini dəfələrlə qaraciyərdən keçirərək, sudan və qidalardan maksimum dərəcədə istifadə edə bilir.

Dəvənin qan və hüceyrə quruluşu da, səhra şəraitində uzun müddət susuz yaşaya bilməsini təmin edə biləcək şəkildədir. Hüceyrə divarları, hüceyrələrin çox su itirməsinin qarşısını alacaq bir quruluşdadır. Qan isə, dəvənin bədənində su minimum

səviyyəyə endikdə belə qanın axım sürətinin zəifləməsinə imkan verməyəcək bir formadadır. Həmçinin qanında, susuzluğa davamlığı artıran albumin fermenti, digər canlılarla müqayisədə daha yüksək miqdarda mövcuddur.

Dəvənin digər bir yardımçısı da hörgücüdür. Hörgüclərdə dəvənin bədən ağırlığının beşdə bir hissəsi qədər yağ tədarük edilmişdir. Dəvədə yağın tək bir nöqtədə toplanması, (yağa bağlı olaraq) bədənin hər yerində intensiv surətdə su itkisinin qarşısını alar. Bu da dəvənin sudan minimum ölçüdə istifadə etməsinə səbəb olar.

Bir hörgüclü dəvə, normalda gündə 30-50 kiloqram qida qəbul edə bildiyi halda, çətin şərtlər altında gündə yalnız 2 kiloqram quru otla belə bir ay ərzində yaşaya bilir. Dəvənin ağız və dodaq quruluşu, ayaqqabı dərisini deşəcək qədər kəskin tikanları belə rahatlıqla yeyə biləcəyi formadadır. Dörd kameralı mədəsi və həzm sistemi isə qabağına çıxan hər şeyi üyüdə biləcək qədər güclüdür. Dəvə normalda bir yemək növü olmayan kauçuk kimi maddələrdən belə istifadə etməyi bacarar. Quraq mühitlərdə bu xüsusiyyətin nə qədər qiymətli olduğu aydındır.

**4) Tornadolara və fırtınalara qarşı görülən tədbir**: Dəvənin kirpikləri iki qatlıdır. Kirpiklər, tələ kimi iç-içə keçərək, gözü güclü qum fırtınalarına qarşı tam bir qoruma altına alar. Dəvələr həmçinin burun dəliklərini də qum girməsin deyə bağlaya bilərlər.

**5) Qızmar istiyə və dondurucu soyuğa qarşı görülən tədbir**: Bütün bədənini örtən sıx tüklər səhradakı qızmar günəş şüasının heyvanın dərisinə çatmasına mane olar. Bunlar həmçinin soyuqda da heyvanın isinməsini təmin edər. Səhra dəvələri 70$^{0}$C-lik temperaturdan zərər görmədikləri halda, cüt hörgüclü dəvələr sıfır dərəcədən aşağı -52$^{0}$C-lik temperaturda belə yaşaya bilirlər. Bu cür dəvələr, 4 000 metrlik hündür yaylalarda belə yaşaya bilirlər.

**6) Qızmar qumlar üçün görülmüş tədbir**: Qıçlarına görə olduqca böyük olan ayaqları da, quma batmadan yeriyə bilsin deyə xüsusi olaraq geniş səthə malik şəkildə yaradılmışdır. Dabanlarındakı xüsusi qalın dəri isə qızmar səhra qumlarına qarşı görülmüş tədbirdir. Bütün bu məlumatlar əsasında bunları düşünək:

Dəvə, öz bədənini səhra mühitinə görə mi qaydaya salmışdır? Burun selikli qişasını özü əmələ gətirib, hörgücünü özümü yaratmışdır? Yaxud tornado və fırtınaya qarşı göz və burun quruluşunu özümü dizayn etmişdir? Qan və hüceyrə quruluşunu, sudan qənaətlə istifadə etmək üçün özümü nizamlamışdır? Bədənindəki tüklərin quruluş və xüsusiyyətini dəvənin özümü seçmişdir? O mu özünü "səhra gəmisi"nə çevirmişdir?

Əlbəttə ki, dəvə (digər hər hansı bir canlı kimi) bunları edə bilməz, öz-özünü insanlara faydalı hala gətirə bilməz.

**"Məgər onlar dəvənin necə yaradıldığını görmürlər?"** ayəsi, həqiqətən də bu inanılmaz heyvanın meydana gəlişini ən yaxşı şəkildə izah edir. Dəvə də, hər şey kimi yaradılmış, müxtəlif xüsusiyyətlərlə bəzənmiş və Allahın yaratmasındakı üstünlüyün bir dəlili olaraq yer üzünə yerləşdirilmişdir.

Dəvə, bu cür üstün fiziki xüsusiyyətlərlə yaradılmaqla yanaşı, ona insana xidmət etmək, insana isə, bütün varlıq aləmindəki buna bənzər yaradılış möcüzələrini görmək və bütün varlıqların yaradıcısı olan Allahı tanımaq vəzifəsi verilmişdir...

# Quranda təkrarlanan sözlər

Quranda bir-birləriylə olan əlaqələri və ya ifadə etdikləri mənalara görə möcüzəvi şəkildə təkrarlanan eyni sayda bəzi sözlər var. Aşağıdakı cədvəllərdə bu cür sözlər və Quranda neçə dəfə təkrarlandıqları verilmişdir. (Ətraflı məlumat üçün baxın: *Kuran Mucizeleri, Harun Yahya, Araştırma Yayıncılık)*

| | |
|---|---|
| Yeddi göy | 7 |
| Göylərin yaradılışı | 7 |
| İman | 25 |
| Küfür | 25 |
| Xəyanət | 16 |
| Xəbis | 16 |
| Zəkat | 32 |
| Bərəkət | 32 |
| Dünya | 115 |
| Axirət | 115 |
| Mələk | 88 |
| Şeytan | 88 |
| İnsan | 65 |
| Torpaq | 17 |
| Nütfə | 12 |
| Rüşeym | 6 |
| Bir parça ət | 3 |
| Sümük | 15 |
| Ət | 12 |
| CƏMİ: | 65 |

| | |
|---|---|
| Bitki | 26 |
| Ağac | 26 |
| Ağlı kəsmək | 49 |
| Nur | 49 |
| Cəza (qarşılıq vermək) | 117 |
| Bağışlamaq | (117x2) 234 |
| Yay-İsti | 1+4: 5 |
| Qış-Soyuq | 1+4: 5 |
| Şərab | 6 |
| Sərxoşluq | 6 |
| Cənnət | 77 |
| Cəhənnəm | 77 |
| Gün | 365 |
| Ay | 12 |
| Günlər | 30 |
| De | 332 |
| Dedilər | 332 |
| Yaxşı insanlar | 6 |
| Pis insanlar | 3 |
| Dil | 25 |
| Vəz | 25 |

De: “Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün bir yerə toplaşıb, bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər”. (İsra surəsi, 88)

# Quranda 19 ədədi

Quranın riyazi möcüzələrindən biri də 19 ədədinin, ayələrin içinə şifrələnmiş halda yerləşdirilməsidir. Muddəssir surəsinin 30-cu ayəsində diqqət çəkilən bu ədəd, Quranın bəzi yerlərində şifrələnmişdir. Buna aşağıdakı nümunələri verə bilərik:

* Bəsmələ 19 hərfdən ibarətdir.

* Quran 114 (19x6) surədən ibarətdir.

* İlk vəhy olan surə (96-cı surə) axırdan 19-cu surədir.

* Quranın ilk vəhy edilən ayələri 96-cı surənin ilk 5 ayəsidir və bu ayələrdəki sözlərin ümumi sayı 19-dur.

* Vəhy edilən ilk surə (Ələq surəsi) 19 ayədən ibarətdir.

* Vəhy edilmiş son surə olan Nəsr surəsi, cəmi 19 sözdən ibarətdir.

* Həmçinin bu surənin Allahın köməyindən bəhs edən ilk ayəsi də 19 hərfdən ibarətdir.

* Quranda 114 (19x6) bəsmələ var. Bu da 19-un 6 mislidir.

* Quranda 113 surə bəsmələ ilə başlayır. Bəsmələ ilə başlamayan yeganə surə, 9-cu surə olan Tövbə surəsidir. Quranda yalnız Nəml surəsində iki bəsmələ var. Bu bəsmələlərdən biri surənin əvvəlində digəri isə 30-cu ayədə gəlir. Bəsmələ ilə başlamayan Tövbə surəsindən etibarən saymağa başlanıldığı təqdirdə Nəml surəsinin 19-cu sırada yerləşdiyi görülər.

* Tövbə surəsindən 19 surə sonra gələn və sıra nömrəsi 27 olan Nəml surəsinin həm əvvəlində, həm də 30-cu ayəsində bəsmələ var. Beləliklə də, 27-ci surədə iki bəsmələ var. Bəsmələlərin sayını 114-ə tamamlayan 27-ci surənin 30-cu ayəsidir.

* Surə və ayə nömrələrini, yəni 27 və 30 ədədlərini topladığımızda 57 (19x3) ədədini alırıq.

* Tövbə surəsindən (9-cu surə) Nəml surəsinə (27-ci surə) qədər olan surələrin sıra nömrələrinin cəmi;

(9+10+11+12+13+14+15+16+17+18+19+20+21+22+23+24+25+26+27=) 342-dir. Bu da 19-un 18 mislidir.

* Sıra nömrəsi 19 və 19-un misli olan ayələrdə keçən Allah adının ümumi sayı 133 (19x7)-dür.

* Bir mənasını verən "vahid" (i hərfi oxunarkən əlavə olunur) sözünün əbcəd

hesabı 19-dur. Bu söz Quranda, bir növ yemək, bir qapı və s. kimi müxtəlif sözləri ifadə etmək üçün istifadə edilmişdir. 19 dəfə də "Bir Allah" olaraq istifadə edilmişdir.

* 19 dəfə vəhd sözünün keçdiyi ayələrin surə və ayə nömrələrinin cəmi: 361 (19x19)dir.

* "Yalnız Allaha ibadət edin" ifadəsinin ərəbcəsi olan "Vəhdahu" kəlməsi; 7:70, 39:45, 40:12, 40:84 və 60:4 nömrəli ayələrdə keçər. Bu ədədlərin hər birindən yalnız bir dəfə istifadə etməklə, onları cəmlədiyimiz vaxt 361 (19 x 19) ədədi əldə edərik.

* Ən başda gələn müqəttə hərflərindən (Əlif, Ləm, Mim; Bəqərə surəsi, 1-ci ayə) ən sonda gələn müqəttə hərflərinə (Nun; Qələm surəsi, 1-ci ayə) qədər olan ayə sayı 5 263 (19x277)dür.

* Müqəttə hərflərinin olduğu ilk surə ilə müqəttə hərflərinin olduğu son surə arasında, müqəttə hərflərinin olmadığı 38 (19x2) surə vardır.

* "Rəhman" sözü isə Quranda 57 (19x3) dəfə keçir.

* Quranda adları çəkilən 30 fərqli rəqəm vardır.

* Quranda keçən bütün bu ədədləri (təkrarlar diqqətə alınmadan) topladığımız vaxt alınan nəticə 162 146 olur. Bu da 19-un 8534 mislidir:

1+2+3+4+5+6+7+8+9+10+11+12+19+20+30+40+50+60+70+80+99+100 +200+300+1000+2000+3000+5000+50000+100000=162146 (19x8534)

* Quranın lap əvvəlindən başlayaraq 19 ayəsi olan ilk surə İnfitar surəsidir. Bu surənin digər bir xüsusiyyəti son sözünün Allah olmasıdır. Bu həmçinin Rəbbimizin adının "Allah" olaraq çəkildiyi, Quranda axırdan 19-cu dəfə istifadə olunan adıdır.

* Sıra nömrələri 19-un misli olan surələrdəki ayələrin sayını (bəsmələ də daxil olmaqla) topladığımız vaxt, aşağıdakı cədvəldə verdiyimiz nəticələr alınır:

| | **SURƏ №** | **AYƏ SAYI** |
|---|---|---|
| **19 x 1** | **19-cu surə** | **99** |
| **19 x 2** | **38-ci surə** | **89** |
| **19 x 3** | **57-ci surə** | **30** |
| **19 x 4** | **76-cı surə** | **32** |
| **19 x 5** | **95-ci surə** | **9** |
| **19 x 6** | **114-cü surə** | **7** |
| **CƏMİ** | | **266 (19 x 14)** |

* Qaf hərfi ilə başlayan 50-ci surədə 57 (19x3) ədəd qaf hərfi var. Başında qaf hərfi olan 42-ci surədə yenə 57 (19x3) ədəd qaf hərfi var. 50-ci surənin 45 ayəsi vardır. Bunları toplasaq nəticə 95 (19x5) alınar. 42-ci surənin 53 ayəsi vardır. Bunları toplasaq (42+53) yenə 95 ədədi (19x5) alınar.

* Qaf surəsinin ilk ayəsində Quran üçün istifadə edilən Məcid sözünün əbcəd hesabı 57 (19x3)dir. Yuxarıda da qeyd etdiyimiz kimi surədəki qaf hərflərinin ümumi sayı da 57-dir.

* Qaf surəsindəki qaf hərflərinin keçdiyi ayələrin sıra nömrələrini topladığımız vaxt 19-un 42 misli olan 798 ədədini alarıq. 42 ədədi isə müqəttə hərfləri arasında qaf hərfi olan digər bir surənin sıra nömrəsidir.

* Nun hərfi yalnız 68-ci surənin əvvəlində gəlir. Bu surədəki "nun" hərflərinin ümumi sayı 133 (19x7)dür.

Bu mövzuda tapılan digər məlumatlar isə belədir: Quranda bütövlükdə;

* Rəsul (elçi) sözü 513 (19x27) dəfə,

* Ətiu (itaət edin) sözü 19 dəfə,

* Rəbb (söz birləşməsinin tərkib hissəsi kimi işlənməyənlər) sözü 152 (8x19) dəfə,

* Əbd (qul), Abid (qulluq edən adam) və İbadət sözləri isə cəmi 152 (8x19) dəfə keçir.

**Bu Quran Allahdandır, Ondan başqası tərəfindən uydurula bilməz. Lakin o, özündən əvvəlkiləri təsdiqləyən və aləmlərin Rəbbi tərəfindən nazil edilmiş kitabları müfəssəl izah edəndir. Bunda heç bir şübhə yoxdur, O Allahdandır. Yoxsa: “Onu özündən uydurdu!” deyirlər. De: “Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!” (Yunis surəsi, 37-38)**

(Ətraflı məlumat üçün baxın; *Kuran Mucizeleri 1-2-3,* Harun Yahya (Adnan Oktar)

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər,

milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda

təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi”

kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B.*

*Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul

edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan**

**kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan

həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

# KİTABIN ARXA ÜZÜ

Siz kimsiniz və dünyada hansı məqsəd üçün yaşayırsınız? Sizi kim yaratdı, sahib olduğunuz mükəmməl bədəni kim meydana gətirdi? Digər bütün insanları və bütün kainatı kim yaratdı? Bütün bunları yaratmaqdakı məqsədi nədir və sizdən nə istəyir? Bir çox insan, həyatını bu suallar üzərində ciddi şəkildə düşünmədən qurmuşdur. Zehnini, bu suallarla deyil, axşam nə yeməyi yeyəcəyi, valyuta məzənnəsi, sevdiyi qadın və ya kişiylə olan əlaqəsi, gələcək narahatlığı və buna bənzər mövzularla doldurar. Ancaq zehnini məşğul edən bütün bu mövzular, bir neçə on ildən sonra, qaçılmaz ölümün gəlməsiylə birlikdə, artıq heç bir məna kəsb etməyəcək. İnsanın ölümlə birlikdə başlayacaq əbədi həyatında yerləşəcəyi yer də, yuxarıdakı suallar istiqamətində, həyatını necə keçirdiyinə görə müəyyənləşəcək.

Bu sualların ən düzgün cavablarını insana öyrədən yeganə qaynaq isə, insanları və bütün kainatı yaradan, hamımızın Rəbbi olan Allahın endirdiyi kitab olan Qurani-Kərim və Peyğəmbərimiz (s.ə.v)-in hədisləridir. Əlinizdəki kitab, insanları düşünməkdən qaçındıqları bəzi suallar barəsində düşünməyə dəvət edir və onlara, Quranda verilən cavabları çatdırır. Bunu hər kəs bilməlidir ki, həmin bu suallar, insanlara əhəmiyyətli kimi görünən digər bütün mövzulardan xeyli əhəmiyyətlidir.